Xalqın qəzeti!

# Xalq qəzeti

№ 146 (30262) 15 iyul 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az


**Günün xəbəri**

Bu gün Prezident İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan Brüsseldə Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə yenidən bir araya gələcəklər.

## Nəzərlər yenidən Brüsselə dikilib

### Brüsseldə Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə görüşü olub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə iyulun 14-də Belçika Krallığına işgüzar səfərə gəlib.**

Avropa İttifaqı Şurasının mənzil-qərargahında Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel dövlətimizin başçısı İlham Əliyevi qarşılayıb.

Birgə foto çəkdirilib.

Sonra Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə görüşü olub.

Prezident İlham Əliyev işgüzar səfərə dəvətə görə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelə minnətdarlığını bildirdi.

Ermənistan–Azərbaycan münasibətlərinin normallaşması istiqamətində Şarl Mişelin göstərdiyi səylərə görə təşəkkürünü ifadə edən dövlətimizin başçısı Brüssel formatının səmərəli olduğunu vurğuladı.

Söhbət zamanı Azərbaycan Prezidenti İlham Əliyev, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə sabah keçiriləcək üçtərəfli danışıqlar, həmçinin Ermənistan ilə Azərbaycan arasında sülh danışıqları ilə bağlı fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**

## Separatçıların çənbəri daralır



Səhifə ⇨ 4

## Qarabağ və Şərqi Zəngəzura Qayıdış dövlətimizin prioritet vəzifəsidir



Səhifə ⇨ 8

## Naxçıvan “yaşıl enerji” diyarına çevrilir



Səhifə ⇨ 9

## Oskanyan siyasi avantüradan əl çəkmir və... Paşinyana biclik öyrədir



Səhifə ⇨ 6

## Qazax: gəlirlər artdıqca güzəran da yüksəlir



Səhifə ⇨ 9

## Molla Pənah Vaqifin faciəli qətli



Səhifə ⇨ 10

## Deyəsən, haylar Bakının yaratdığı yeni reallıqları dərk etməyə başlayıblar



Səhifə ⇨ 4

## Azərbaycanın gəlirləri xərclərindən çox, xarici borcundan isə 10 dəfə artıqdır




Səhifə ⇨ 7

## Ölkəmizin xarici ticarət şəbəkəsi genişlənir



Səhifə ⇨ 7

## Vaqif Poeziya Günlərinin açılışı



Səhifə ⇨ 10

## “Gimnastlarımızın potensialına güvənirik”

Səhifə ⇨ 11

# Milli Məclisin yaz sessiyasının növbədənkənar iclasları başa çatdı

**Dünən Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin yaz sessiyasının növbədənkənar sonuncu iclası keçirildi. Deputatlar əvvəlcə cari məsələlərdən söhbət açdılar.**



Fazil Mustafa bu yaxınlarda Rusiyanın şəhərlərinin birində olarkən Naftalan brendinin başqa ölkə adı ilə satışının şahidi olduğunu dedi. Bunun yolverilməz olduğunu bildirən deputat Naftalan, İstisu, Qalaaltı kimi brendlərin respublikamıza məxsus olduğunu diqqətə çatdırdı və bu məhsulların Azərbaycan brendi olaraq dünyaya təqdim edilməsinin vacibliyini bildirdi. O dedi ki, hansısa ölkənin brendlərimizdən istifadə edib məhsulu öz adı ilə dünyaya çıxarmasının qarşısı alınmalıdır. Həm də ona görə ki, Naftalan yağının müalicədə müstəsna rolu var. Bu yolla ölkəyə turist axınını təmin edə bilərik.

Deputat, həmçinin bölgələrdə vəkil çatışmazlığından söhbət açdı və problemin aradan qaldırılmasının səbəbini "Vəkillik haqqında" Qanunda dəyişiklik aparılmasında gördüyünü vurğuladı. Bu yolla bölgələrdəki vəkil çatışmazlığının aradan qaldırılmasının mümkünlüyünü əsaslandırdı.

Sonra deputatlar Sahib Alıyev, Bəhruz Məhərrəmov və Hikmət Məmmədov 14 iyul 1969- cu il tarixinin Azərbaycanda hər bir kəsin yaddaşında ulu öndər Heydər Əliyevin birinci dəfə siyasi hakimiyyətə gəlişi kimi qaldığını bildirdilər, bu əlamətdar tarixi gələcək nəsillərimizə miras qədirbilənlik yaddaşı kimi dəyərləndirdilər. Qeyd edildi ki, ölkəmizin çoxəsrlik dövlətçilik tarixində Heydər Əliyev epoxasının müstəsna yeri vardır.

Heydər Əliyev şəxsiyyəti öz müdrik fəaliyyəti ilə müasir tariximizin ən şanlı və parlaq salnaməsini yaradıb. Ulu öndər Azərbaycan xalqının şüurunda inqilabi dəyişiklik edib. Bu baxımdan inamla demək olar ki, görkəmli dövlət xadiminin ölkəmizə rəhbərliyinin birinci dövrü, eyni zamanda, milli özünüdərkin başlanğıc dövrüdür. Onun bütün fəaliyyəti xalqın milli dirçəlişi, milli qürur hisslərinin oyanması ideyasına əsaslanırdı.

Deputatlar, həmçinin 2023-cü ilin 6 ayının yekunu ilə əlaqədar keçirilən toplantıda dövlət başçımızın nitqindən bəzi məqamları diqqətə çatdırdılar. Qeyd edildi ki, bu dövrdə Böyük Qayıdış proqramına start verilib, rəşadətli ordumuz daha da mətinləşib, sülh danışıqları intensivləşib. Dövlət başçımızın Qarabağın və Şərqi Zəngəzurun bərpasına 12 milyard manat vəsaitin xərclənməsinin nəzərdə tutulması barədə səsləndirdiyi fikri də deputatlar tərəfindən yüksək dəyərləndirildi. Bununla yanaşı, iclasda Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) fəaliyyəti kəskin tənqid olundu. Bildirildi ki, bu qurumun işi nə beynəlxalq hüquqa, nə də komitənin özünün nizamnaməsinə uyğundur. Yüz əlli ildən çox yaşı olan həmin təşkilat münaqişə qurbanlarının müdafiəsi və onlara yardım göstərilməsini qarşısına məqsəd qoymasına baxmayaraq, konflikt törədənlərlə əlbir olub qaçaqmalçılıqla məşğul olur.

Sonra S.Qafarova gündəliyə 19 məsələnin daxil edildiyini bildirdi. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Konstitusiya Qanunu barəsində Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli məlumat verdi. Qeyd etdi ki, bütün normativ hüquqi aktlar bu qanunla tənzimləndiyindən sənədin qəbulu vacibdir.

Qanun layihəsi qəbul edildikdən sonra "Azərbaycan Respublikasının Slovakiya Respublikasında (Bratislava şəhərində) Səfirliyinin təsis edilməsi haqqında" qanununun layihəsi müzakirəyə təqdim edildi. Azərbaycanın xarici əlaqələrinin daha da genişləndiyini vurğulayan Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov layihə barədə məlumat verdi. O bildirdi ki, son illər Azərbaycanın xüsusən Avropa ölkələri ilə münasibətləri gündən-günə güclənir. Münasibətlər getdikcə inkişaf edir və Mərkəzi Avropada yerləşən Slovakiyada səfirliyin açılması vacib əhəmiyyət kəsb edir. Həmin ölkənin Azərbaycanda da səfirliyi fəaliyyət göstərir. Odur ki, bu layihənin qəbulu təqdirəlayiqdir.

***B. ƏLİQIŞMƏT,***
***"Xalq qəzeti"***

# Ceyhun Bayramov BQXK-nin Azərbaycandakı Nümayəndəliyinin rəhbəri ilə görüşüb

**Dünən xarici işlər naziri Ceyhun Bayramov Beynəlxalq Qızıl Xaç Komitəsinin ölkəmizdəki Nümayəndəliyinin rəhbəri Draqana Kojiç ilə görüşüb.**



Görüş zamanı, Azərbaycanla BQXK arasında əməkdaşlıq məsələləri, Laçın sərhəd buraxılış məntəqəsində yaranmış son vəziyyət, habelə BQXK-nin Azərbaycanın Xankəndi şəhərində fəaliyyəti məsələləri müzakirə olunub.

Nazir Ceyhun Bayramov Laçın sərhəd buraxılış məntəqəsinin fəaliyyəti ilə bağlı yaranmış son vəziyyətlə əlaqədar bildirib ki, iyunun 15-də məntəqənin atəşə tutulması ilə yanaşı, erməni əsilli sürücülərin Beynəlxalq Qızıl Xaç Komitəsinə məxsus nəqliyyat vasitələrində qaçaqmalçılıq məhsullarını Azərbaycana gətirmək səyləri Ermənistan tərəfinin Azərbaycanın suverenliyinə müdaxilə edən cəhdlərdən və qeyri-qanuni fəaliyyətlərdən əl çəkmək niyyətinin olmadığını göstərir.

BQXK-nin 11 iyul tarixli açıqlamasında bəyan edilməmiş məhsulların keçirilməsi fəaliyyətlərini dəstəkləmədiyini diqqətə çatdırmasının və belə yükləri daşıyan nəqliyyat vasitələrinin sürücülərinin xidməti müqavilələrinə xitam verilməsinin qeydə alındığı və təqdirəlayiq olduğu bildirilib. Gələcəkdə bu kimi halların qarşısının alınmasının zəruri olduğu vurğulanıb.

Aparılmış müzakirələr zamanı, zəruri qaydalara riayət etməklə, BQXK vasitəsilə erməni sakinlərin tibbi məqsədlər üçün sərhəd məntəqəsindən keçidinin davam etməsinin mümkünlüyü nazir tərəfindən bildirilib.

Erməni sakinlərin tədarük ehtiyaclarına gəldikdə, Azərbaycan tərəfinin Ağdam–Xankəndi yolundan istifadə etməklə yardım göstərmək imkanının mövcud olduğu bir daha xatırlanıb.

***"Xalq qəzeti"***

# Mövqelərimiz atəşə tutulub

**İyulun 14-ü saat 10:55 radələrində Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən ordumuzun Şuşa və Xocalı rayonları istiqamətlərində yerləşən mövqeləri atıcı silahlardan atəşə tutulub.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, bundan başqa saat 13:39-dan 13:50-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Vedi rayonunun Arazdəyən yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Heydərabad yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

Ordumuzun bölmələri tərəfindən qeyd olunan istiqamətlərdə cavab tədbirləri görülüb.

***"Xalq qəzeti"***



# Konstitusiya Məhkəməsinin 25 illik yubileyi geniş qeyd olunub

**İyulun 14-də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin yaradılmasının 25 illiyi tamam olub. Yubiley münasibətilə Məhkəmənin sədri Fərhad Abdullayev, hakimlər və Aparatın məsul əməkdaşları dünən Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.**

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

Yubiley tədbiri Məhkəmənin inzibati binasında davam etdirilib. Fərhad Abdullayev diqqətə çatdırıb ki, Konstitusiya Məhkəməsinin yaradılmasının 25 illiyi münasibətilə bir qrup şəxsin təltif edilməsi Prezidentin Konstitusiya Məhkəməsinin fəaliyyətinə verdiyi qiymətin təzahürüdür.

Sədr ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin daim Konstitusiya Məhkəməsinə diqqət və qayğı göstərdiklərini, onun fəaliyyətini yüksək qiymətləndirdiklərini xüsusi qeyd edib.

Konstitusiya Məhkəməsi Plenumunun bu günə kimi 545 qərar qəbul etdiyini diqqətə çatdıran Fərhad Abdullayev vurğulayıb ki, bu qərarlar hüququn bütün sahələrinə mühüm təsir göstərib. Hüquqi dövlət quruculuğuna öz töhfəsini verən həmin qərarlarda Konstitusiyanın aliliyinin təmin edilməsinə yönəlmiş mühüm hüquqi mövqelər öz əksini tapıb.

Bildirilib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu 44 gün davam edən Vətən müharibəsində öz şücaəti ilə ölkəmizin ərazi bütövlüyünü bərpa edib. Torpaqlarımızın işğaldan azad edilməsi ölkəmizin Konstitusiyasında və bir çox beynəlxalq hüquq müqavilələrində təsbit edilmiş bir sıra əsas insan hüquq və azadlıqlarının təmin olunmasına imkan verib.

Vurğulanıb ki, Konstitusiya Məhkəməsi hər zaman olduğu kimi, insan hüquq və azadlıqlarının qorunması, müstəqil Azərbaycanın Əsas Qanunu olan Konstitusiyanın müddəalarının müdafiəsi, müstəqil dövlətimizin möhkəmləndirilməsi, xalqımızın maddi, mənəvi rifahının daha da yaxşılaşdırılması istiqamətində Prezident İlham Əliyevin həyata keçirdiyi mütərəqqi fəaliyyətinə dəstək olaraq, üzərinə düşən vəzifələri bundan sonra da layiqincə yerinə yetirməyə çalışacaq.

***"Xalq qəzeti"***

# Baş nazirin müavini BMT-nin ölkəmizdəki rezident əlaqələndiricisi ilə görüşüb

**Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov iyulun 14-də BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi xanım Vladanka Andreyeva ilə görüşüb.**



Ətraflı fikir mübadiləsi zamanı 2023-cü ilin sentyabr ayında baş tutacaq Dayanıqlı İnkişaf Məqsədləri (DİM) Sammiti və Sammit çərçivəsində dünya liderlərinin Zirvə görüşündə təqdim ediləcək İnsanlar və Planet üçün Xilasetmə Planı ətrafında müzakirə olunub.

Bundan əlavə, Azərbaycan ilə BMT arasında müxtəlif sahələrdə tərəfdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə olundu.

***"Xalq qəzeti"***

# Ölkəmizdə məhkəmə-hüquq sistemində aparılan islahatlar sahibkarlığın inkişafı baxımından önəmlidir

**Ali Məhkəmə tərəfindən həyata keçirilən "Femida Dialoq Platforması" çərçivəsində növbəti görüş sahibkarlarla keçirilib.**

Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov layihənin məqsədi barədə tədbir iştirakçılarına məlumat verib.

Bildirilib ki, dövlət və məhkəmə hakimiyyəti vahid məhkəmə təcrübəsinin formalaşdırılması, məhkəmə orqanlarının səmərəliliyin gücləndirilməsi, mübahisələrin alternativ həlli institutlarının yaradılması və digər fundamental əhəmiyyət daşıyan məsələlərdə öz üzərinə düşəni həyata keçirir. Lakin sürətlə inkişaf edən dünyada yeni hüquq münasibətləri meydana çıxır, biznes mühitində rəqabətə davamlılıq getdikcə çətinləşir. Mövcud problemlərin əvvəlkindən daha çevik həlli tələb olunur, həm dövlətlər, həm də sahibkarlar yeni çağırışlarla üzləşirlər. Bu çağırışlara cavab vermək üçün ən uğurlu yol isə birgə əməkdaşlıq və dialoqdur. Ali Məhkəmənin də hər zaman dialoqa və sahibkarların məhkəmə sahəsində üzləşdiyi problemlərin həlli istiqamətində səy göstərməyə hazır olduğu xüsusi qeyd edilib.

Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev çıxışında Ali Məhkəmə tərəfindən sahibkarlarla görüşün keçirilməsini yüksək qiymətləndirib və aparılan müzakirələrin məhkəmə mübahisələrində çevik qərarların qəbul edilməsinə təsir göstərəcəyini bildirib.

İnsan Hüquqları üzrə müvəkkil (ombudsman) Səbinə Əliyeva, İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov və digər tədbir iştirakçıları çıxışlarında "Femida Dialoq Platforması" çərçivəsində keçirilən görüşün sahibkar-məhkəmə münasibətlərinin inkişafına, ölkəmizdə sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına önəmli töhfə verəcəyini vurğulayıblar.

***"Xalq qəzeti"***

# Polis Akademiyasının məzunları təyinat alıblar



**Dünən Daxili İşlər Nazirliyində Polis Akademiyasını əyani bitirən məzunlar polis orqanlarında orta rəis heyəti vəzifələrinə püşkatma yolu ilə təyin olunublar.**

Nazir general-polkovnik Vilayət Eyvazov tədbirdə gəncləri zabit rütbələrinə layiq görülmələri münasibətilə təbrik edib, təyinatın şəffaflıq, aşkarlıq və ədalət prinsipləri əsasında gerçəkləşdiyini vurğulayıb.

Püşkatma yolu ilə keçirilən təyinatlarda 43 məzun Bakı şəhərinin ərazi polis orqanlarına, Akademiyanı fərqlənmə diplomu ilə bitirən 4 məzun isə nazirliyin aparatında müxtəlif vəzifələrə təyin edilib.

***"Xalq qəzeti"***

# Azərbaycan və Ermənistan liderlərinin növbəti Brüssel raundu

## *Qərb vasitəçiliyinin sülh gözləntisi: Bakı və İrəvan razılaşa bilərmi?*

**"Biz Ermənistanın konstruktivliyinə ümid edirik. Əgər onlar konstruktiv olmasalar, biz diplomatik tədbirlərdən başqa hər hansı bir digər tədbirlərə əl atmağı planlaşdırmırıq. Bu qədəri bizə bəsdir. Buna görə, sadəcə, sülh olmayacaq, kommunikasiyalar açılmayacaq. Onlar yenə də təcrid olunacaqlar və onlar bu yeni geosiyasi konfiqurasiyada özlərinə yer tapmalı olacaqlar". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev bu il mayın 4-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada keçirilmiş, ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransdakı çıxışında deyib.**

Bu gün Prezident İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan Brüsseldə Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə yenidən bir araya gələcəklər. Dövlətimizin başçısı yuxarıda diqqətə çatdırdığımız fikirləri səsləndirəndə isə Azərbaycan və Ermənistanın xarici işlər nazirlərinin Vaşinqtonda mayın 1-dən başlanmış dördgünlük danışıqları davam edirdi. Yeri gəlmişkən, həmin danışıqlar Azərbaycan–Ermənistan münasibətlərinin tənzimlənməsi üzrə kollektiv Qərb vasitəçiliyinin ilk baxışdan iflasa uğradığına dair düşüncələrin formalaşdığı bir vaxta təsadüf edirdi. Belə bir durumda XİN rəhbərlərinin görüşünün təşkili bu qənaəti formalaşdırdı ki, ABŞ özünü ayrıca vasitəçi kimi təqdim etməkdədir. Lakin mayın 14-də Brüsseldə Azərbaycan və Ermənistan liderlərinin görüşü və görüş əsnasında baş verənlər göstərdi ki, Birləşmiş Ştatların təşəbbüsü kollektiv Qərb nizamlanması çərçivəsindədir.



***

Bəli, hazırda Vaşinqton Qərb formatı müstəvisində liderliyə can atmaqdadır. Brüssel raundunun ABŞ istiqaməti barədə də söz açacağıq. Hələlik isə bildirək ki, bu görüşün təşəbbüskarı qismində Avropa İttifaqı, daha doğrusu, Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişel çıxış etməkdədir. Yeri gəlmişkən, Ş.Mişelin vasitəçiliyinin iki Cənubi Qafqaz ölkəsi arasındakı münaqişəli duruma ədalətli yanaşma baxımından mühüm nəticələr verdiyini də yada salmalıyıq. Nəzərə almalıyıq ki, 44 günlük müharibədən sonra Azərbaycan–Ermənistan nizamlaması baxımından təşəbbüsə yiyələnmiş Rusiyanın, belə demək mümkünsə, "təkhakimiyyətliliyinə" məhz Aİ Şurasının rəhbəri son qoymuşdu.

Əlbəttə, vəziyyətin belə alınmasında Kremlin Bakı-İrəvan tənzimləməsi üzrə bir sıra məsələləri gələcəyə saxlamaq, vaxt udmaq, danışıqlar prosesini uzatmaq niyyəti də öz sözünü demişdir. Təbii ki, Azərbaycanın 44 günlük müharibədən sonrakı hücum diplomatiyası da xüsusi təsiredici mexanizm olaraq vurğulanmalıdır. Bakının dirənişi və konkret nəticə almaq əzmi qarşılığında Rusiyanın vasitəçi fəaliyyətsizliyini konpensasiya edəcək tərəf olmalı idi ki, bu mənada Qərb nizamlama xətti meydana çıxdı və Ş.Mişel bu xətt daxilində öz üzərinə düşən missiyanı layiqincə yerinə yetirməyi bacardı.

Ümumən, Ş.Mişeli 30 ildən artıq bir müddətdə davam edən Azərbaycan-Ermənistan danışıqları baxımından ən ədalətli vasitəçi qismində dəyərləndirmək mümkündür. 2022-ci ilin oktyabrında Praqa sammitindən sonra Fransanın ermənipərəst mövqeyi səbəbindən sülh prosesi iflasa uğrayanda da Azərbaycan dövləti Aİ Şurasının rəhbərinin missiyasına hörmətlə yanaşdığını bəyan etmiş, durumu anlayışla qarşılamışdı.

Bəli, dövlətimizin başçısı İlham Əliyev özü də müxtəlif çıxışlarında Ş.Mişelin Bakı ilə İrəvan arasında sülhün yaradılmasına yönələn xidmətlərini yüksək qiymətləndirdiyini bildirib. Prezidentin köməkçisi Hikmət Hacıyevin bildirdiyi kimi: "Biz Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin komandasının Ermənistan və Azərbaycan arasında ikitərəfli sülh müqaviləsi danışıqlarına və dövlətlərarası normallaşmaya kömək etməsini yüksək qiymətləndiririk. Prezident İlham Əliyev bununla bağlı Azərbaycanın mövqeyini dəfələrlə bəyan edib".

Qeyd edək ki, H.Hacıyev özünün "Twitter" sosial şəbəkəsindəki hesabında paylaşdığı bu fikirləri 2022-ci ilin avqustun 31-də Azərbaycan və Ermənistan liderlərinin Şarl Mişelin vasitəçiliyi ilə keçirilmiş sayca dördüncü görüşü əsnasında bildirmişdi. Hazırda eyni formatdakı təmasların sayı yeddidir. Bugünkü görüş isə sayca səkkizinci olacaq.

Əlbəttə, 2022-ci ilin dekabrına planlaşdırılmış, ancaq baş tutmayan bir görüş təşəbbüsünün mövcudluğunu da vurğulamalıyıq ki, az əvvəl Qərb vasitəçiliyi baxımından iflasın yaşandığını bildirdikdə, məhz həmin təmasın reallaşdırılmamasını nəzərdə tutmuşduq. Belə ki, oktyabrın 6-da gerçəkləşmiş Praqa sammitinə qatılan Fransa Prezidenti Emmanuel Makron cəmi iki həftə sonra Azərbaycanı Ermənistan ərazisini işğal etməkdə günahlandırmışdı. Mövcud kontekstdə Bakı-Paris münasibətlərində ziddiyyətlər yaşanmış, Ermənistanın baş naziri N.Paşinyan isə bildirmişdi ki, dekabrın 7-ə nəzərdə tutulmuş görüşdə yalnız Prezident Makron qatılacağı təqdirdə iştirak edəcək. Təbiidir ki, Paşinyanın bu şərti ölkəmiz tərəfindən qəbul olunmamış, beləcə barəsində söz açdığımız iflas gerçəkləşmişdi.

***

Hazırda Qərb vasitəçiliyini iflas təhlükəsinin gözləmədiyini ehtimal etmək mümkündür. Birincisi ona görə ki, Ş.Mişelin ədalətli vasitəçiliyi həm də səmərə verib. Bu baxımdan, ilk növbədə, haqqında danışdığımız Praqa sammitində Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını vurğulamalıyıq. Söhbət İrəvanın müəyyən qədər də olsa, konstruktivliyə meyilli olmasından gedir. Əlbəttə, buna məcburi konstruktivlik də demək mümkündür. Çünki ötən ilin dekabrındakı iflasdan sonra İrəvan çox çalışdı ki, başqa müstəvilərdə yeni reallıqlar yaratsın. Lakin buna nail olmadıqda yenidən masaya əyləşmək məcburiyyətində qaldı. İndi isə eyni əməllərini masaya əyləşənədək davam etdirir. Çox güman ki, görüş zamanı da spekulyasiyalara baş vuracaq. Ancaq görünən budur ki, "istəyinə" nail ola bilmir və bilməyəcək. Məlum olduğu kimi, mayın 14-də keçirilmiş görüşdə baş nazir Ermənistanın Qarabağ da daxil olmaqla, 86,6 min kvadratkilometr ərazidə Azərbaycanın suveren hüquqlarını tanıdı. N.Paşinyan ölkəsini mövqeyini sonrakı açıqlamalarında da dilə gətirdi. Yəni, heç nə edə bilmədi.

Hazırkı danışıqlar formatını iflasın gözləmədiyi ilə bağlı ehtimal irəli sürərkən, onu da düşünmək lazımdır ki, kollektiv Qərb özünün vasitəçilik missiyası üzərində, necə deyərlər, əsməkdədir. Cənubi Qafqazda maraqlı olan qlobal aktorlar yaxşı anlayırlar ki, uğursuzluq Rusiyanın bölgədə yenidən aktivləşməsi reallığını doğura bilər. Əslində buna aktivləşmək düşünəcək demək olmaz. Sadəcə, Moskva Qərbin uğursuzluğu fonunda hazırkı status-kvonu qorumağa çalışacaq. Beləliklə, bölgəyə təsir imkanlarını saxlamağı hədəfə alacaq. Bu isə Qərbə sərf etmir. Ona görə çalışır ki, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi imzalansın, anlaşılmaz məsələlər tezliklə yoluna qoyulsun.

Əlbəttə, Qərb Cənubi Qafqaz siyasi akvatoriyasındakı proseslərə öz baxış bucağı ilə baxmaqdadır. Bu yanaşma son dərəcə diplomatikdir, onda danışıqlardakı ani uğursuzluqdan, yaxud nəticəsizlikdən ruhdan düşməmək əzmi var. Ona görə Qərb özünün rıçaqları ilə İrəvana müəyyən təzyiqlər göstərir. Belədə sual yaranır: Ermənistan sülh prosesindən yayınmaq üçün hansı üstünlüyə malikdir? Sual ritorikdir, çünki cavabı məlumdur. İrəvanın üstünlük anlamında heç bir dividendi yoxdur. Ancaq kor iddiası var ki, onu da 2020-ci ilin noyabrından bu yana müxtəlif şəkildə ortaya qoymaqdadır. İddianın katalizatoru qismində Ermənistanın xaricdəki havadarları, erməni lobbi və diaspor təşkilatları, əlbəttə, Fransa çıxış edir.

***

Danışıqlar prosesində hər dəfə yeni reallıqlar formalaşdırmaq, anti-Azərbaycan ritorikasını işə salaraq bunu masa üzərinə gətirmək yolu tutan Ermənistan hakimiyyətinin, müəyyən mənada Qərbi Rusiya ilə şantaj etdiyini də düşünmək mümkündür. Yəni, baş nazir Nikol Paşinyan administrasiyası bir tərəfdən Moskvaya yaxınlaşmağa ehtiyat edir, digər tərəfdən elə görüntü yaradır ki, sanki hər an Kremlin qucağına düşə bilər. Beləliklə, Qərbin ölkəmizə təzyiq göstərməsinə, Bakının yolundan döndərilməsinə ümid bəsləyir. Ermənistan hakimiyyətinin konstruktivliyə meyili də əslində həmin ümidlərin boşa çıxması kontekstində meydana çıxan reallıqdır. Hesab edirik ki, Azərbaycan Prezidenti İlham Əliyevin iyulun 11-də keçirdiyi müşavirədə söylədikləri həm də bu kimi davranışlardan əl çəkilməsinin vacibliyini vurğulayan xatırlatma idi: "Əksinə, bizə qarşı tuşlanmış bütün oxları sındırıb öz ləyaqətimizi və maraqlarımızı qoruya bilmişik, daha əlavə sözlərə ehtiyac yoxdur, hər şey göz qabağındadır. Necə deyərlər, dərinə getmək istəmirəm, amma bunu artıq hər kəs görür, görməlidir və bilməlidir ki, Azərbaycanla hədə-qorxu, ultimatum dili ilə heç kim danışa bilməz və hesab edirəm ki, bundan sonra belə cəhdlər də olmayacaq".

Bəli, Ermənistanın indiyədək nümayiş etdirdiyi pozitiv məqamların hamısı böyük ölçüdə Azərbaycanın prinsipialığından, qətiyyətindən və bunun nəticəsində ortaya qoyduğu gücdən qaynaqlanıb. Ölkəmiz bugünkü danışıqlarda da güclü və deməli diktə edən tərəfdir. Qarşı tərəf də bunu yaxşı dərk edir. Sadəcə, Ermənistan rəhbərliyi hazırda məcburiyyət qarşısında razılaşdığı Qərb vasitəçiliyi kontekstində yeni reallıqlar formalaşdırmaq niyyətindən də çəkmir.

Ümumən, onu da deməliyik ki, hazırda Ermənistanın avantürizmini şərtləndirən bir sıra məqamlar var. Birincisi, ölkənin mövcud vəziyyətlə barışmaq istəməməsi, 44 günlük müharibənin rüsvayçı nəticələrini minimallaşdırmaq istəyi, Qarabağ ambisiyaları və s. İkincisi, beynəlxalq dairələrin Cənubi Qafqaz siyasi akvatoriyasına marağı, onların regionda rəqabət aparmaq əzmi. Bu trayektoriyada Qərbin Rusiyanı bölgədən sıxışdırmaq istəklərini artıq vurğuladıq. Ermənistan isə mövcud platformada mətləbdən yayınmaq, manevr cəhdlərinə baş vurur. Bu cəhdlərin səmərəsizliyi isə gün kimi aydındır.

***

Bəs, bugünkü Brüssel görüşündən hansı gözləntilər var? Əlbəttə, ən böyük gözlənti sülhdür. Heç olmasa, sülh yolunda ciddi irəliləyişin əldə olunması. Bu, nə dərəcədə mümkündür. Bu istiqamətdə həm pozitiv, həm də neqativ məqamlar mövcuddur. İlk diqqət çəkən məqam Cənubi Qafqaz liderlərinin təmasının vaxtının tezləşdirilməsidir. Məlum olduğu kimi, Azərbaycan və Ermənistan rəhbərlərinin görüşü iyulun 21-də nəzərdə tutulurdu. İndiyədək belə bir hal yaşanmamış, əksinə nəzərdə tutulan vaxtın daha irəli çəkilməsi olmuşdu. Hazırkı durum nədən xəbər verir, konkret söyləmək çətindir. Ancaq ehtimal etmək olar ki, razılaşdırılmış müəyyən ciddi məqamlar var və görüş həmin məqamların tez bir zamanda rəsmiləşdirilməsi məqsədi daşımaqdadır. Əlbəttə, bəzi detalların dərhal dəqiqləşdirilməsinə duyulan ehtiyac amili də vurğulanmalıdır.

İkinci məqam. Azərbaycan və Ermənistan rəhbərlərinin görüşünün dəqiq tarixinin artıq bilindiyi bir vaxtda ABŞ Dövlət Departamentinin rəhbəri Antoni Blinkenin hər iki ölkə liderinə zəngi də maraq doğurmaqdadır. Bu, bir daha onu göstərir ki, Vaşinqton kollektiv Qərbin Cənubi Qafqaz tənzimləməsi üzrə vasitəçilik missiyasında özünün öncül mövqe tutduğunu nümayiş etdirir. Bir qədər əvvəl barəsində söz açdığımız Brüssel raundunun Vaşinqton təmayülü də məhz budur.

***

Azərbaycan və Ermənistan liderlərinin sonuncu görüşü bu il iyunun 1-də Kişineuda Avropa Siyasi Birliyinin zirvə toplantısında gerçəkləşmişdir. Hər iki ölkənin xarici işlər nazirlərinin sonuncu görüşü isə iyunun 27-29-da Birləşmiş Ştatların paytaxtında baş tutdu. Təcrübəyə söykənsək, görərik ki, XİN rəhbərlərinin bu il mayın 1-4-də ABŞ-da bir araya gəlməsindən sonra, həmin ayın 14-də ölkə liderlərinin Brüsseldəki təmasında konkret irəliləyişə nail olunmuşdu. Söhbət Ermənistanın baş nazirinin Qarabağ da daxil olmaqla, Azərbaycanın 86,6 kvadratkilometrlik ərazidə suveren hüquqlarını tanıdığını bildirməsindən gedir. Görünür, indi Blinkenin zəngi, belə demək mümkünsə, incəliklərin yenidən nəzərdən keçirilməsi məramından irəli gəlir. Deməli, bu gün daha ciddi irəliləyişlərin qeydə alınacağını proqnozlaşdırmaq mümkündür. O da mümkündür ki, Dövlət Departamentinin rəhbəri Azərbaycan və Ermənistan liderlərinə zəng etməklə, həmin nəticələri riskə atmaq istəmədiyini ortaya qoyur.

Əvvəldə də vurğuladıq ki, Azərbaycan Brüssel formatı çərçivəsindəki bugünkü danışığa üstün tərəf kimi gəlib. Üstünlüyü ifadə etmək baxımından Prezident İlham Əliyevin 11 iyul müşavirəsində səsləndirdiyi fikirlər müstəsna əhəmiyyətə malikdir: "Bizim sülh danışıqları ilə bağlı mövqeyimiz aydındır, məntiqlidir, beynəlxalq hüquqa əsaslanır. Hesab edirəm ki, bu prinsiplə, beynəlxalq hüququn norma və prinsipləri əsasında sülh müqaviləsi imzalana bilər. Hər halda mən hesab edirəm ki, belə imkanlar var. Son danışıqlar raundları və bir neçə gündən sonra nəzərdə tutulan yüksək səviyyəli təmaslar bir məqsədi güdür ki, biz sülh anlaşmasına daha da yaxınlaşaq. Biz bunu arzulayırıq, bunu təşəbbüskar kimi irəli sürmüşük. Ancaq yenə də deyirəm, hər şey bizdən asılı deyil, qarşı tərəf də buna hazır olmalıdır və sözdə ifadə etdiyi prinsipləri kağız üzərinə də keçirməlidir".

Deməli, ən böyük gözlənti razılaşdırılmış konkret məqamların kağız üzərində ifadəsini tapmasıdır. Bu baş verəcəkmi, irəliləyişlər yalnız şifahi formada açıqlanacaq, yoxsa heç bir nəticə olmayacaq, məsələ barədə fikir yürütmək çətin olsa da, hər bir halda Aİ Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə keçiriləcək bugünkü görüş, ümumən nikbinlik üçün əsas verməkdədir.

**Ə.CAHANGİROĞLU,**
**"Xalq qəzeti"**

# Paşinyan Beynəlxalq Ədalət Məhkəməsinin qərarını təhrif etdi

**Ermənistanın baş naziri Nikol Paşinyan iyulun 13-də hökumətin iclasında Beynəlxalq Ədalət Məhkəməsinin Laçın yolu ilə bağlı qərarını şərh edib. Qərarı birmənalı şəkildə Ermənistanın uğuru kimi təqdim edən Paşinyan qeyd edib ki, Azərbaycan Laçın yolunda hərəkətin fasiləsizliyini təmin etməyə "borcludur": "Ermənistan Respublikasının iddiası əsasında məhkəmə bu il fevralın 22-də qəbul edilmiş qərarı təsdiqləyib. Qanuni qüvvəyə malik bu qərarla Azərbaycan Laçın dəhlizi ilə hər iki istiqamətdə insanların, nəqliyyat vasitələrinin və yüklərin fasiləsiz hərəkətini təmin etmək üçün əlində olan bütün tədbirləri görməyə borcludur".**

### İrəvan beynəlxalq hüququ terrorçulara xidmət vasitəsinə çevirməyə çalışır

Paşinyanın məlum açıqlamasından da görünür ki, İrəvan beynəlxalq hüququn şərtlərini manipulyasiya etməklə onu terrorçulara xidmət vasitəsinə çevirməyə çalışır. Baş nazir iddia edir ki, Beynəlxalq Ədalət Məhkəməsinin qərarı Laçın yolunda hərəkətin fasiləsiz şəkildə təmin edilməsini nəzərdə tutur. Lakin Paşinyan bu yerdə beynəlxalq hüququn başqa və daha önəmli tələbini xatırlatmır. Ermənistanın baş naziri demir ki, beynəlxalq hüquq həm də terrorla, terrorçuluq fəaliyyəti ilə məşğul olmağı qadağan edir və bu, hansısa yolda hərəkətin müvəqqəti bağlanmasından daha böyük məsuliyyətdir. Azərbaycanın Laçın yolunu müvəqqəti bağlamasına səbəb də erməni terroru və onun fəsadları olub. Paşinyan onu da demir ki, Azərbaycan Laçın yolunu yalnız erməni terroru səbəbilə bağlayıb və məqsəd vətəndaşların, eləcə də mülki ermənilərin təhlükəsizliyini təmin etməkdir.

Əslində, İrəvanın Laçın istiqamətində həyata keçirdiyi hərbi təxribatlar onu göstərir ki, Qarabağ və ətraf ərazilərdəki ermənilərin təhlükəsizliyi Ermənistan üçün heç bir məna kəsb etmir. Məhz buna görə də, İrəvan zaman-zaman Laçın istiqamətində ciddi təxribatlar həyata keçirib ki, nəticədə Azərbaycan təhlükəsizlik naminə Laçın yolunu bağlamaq məcburiyyətində qalıb. Və nə qədər ki, erməni terroru davam edəcək, Laçın yolunun müvəqqəti bağlanması da təhlükəsizlik tələbi kimi daim gündəmdə olacaq.

### Heç kim Azərbaycana öz daxilində nəyi necə etmək lazım gəldiyini diktə edə bilməz!

Paşinyanın şərhində diqqət çəkən məqamlardan biri də, Beynəlxalq Ədalət Məhkəməsinin qərarını Azərbaycan üçün mütləq tələb kimi təqdim etməsidir.

Öncə qeyd edək ki, Beynəlxalq Ədalət Məhkəməsinin Laçın yolunun bağlanmasına görə Ermənistanı deyil, Azərbaycanı ittiham etməsi ədalətsizlikdir və bu, ölkəmizlə bağlı qərarın qərəzli, qeyri-obyektiv olduğunu göstərir. Çünki adıçəkilən qurum Laçın yolunun bağlanmasına münasibət bildirirsə, bunun səbəblərinə toxunmalı, məsələyə aydınlıq gətirməli idi. Ancaq təəssüf ki, məhkəmənin qərarında bu barədə heç bir müddəa yer almır. Bu isə onu göstərir ki, Beynəlxalq Ədalət Məhkəməsi sözügedən problemə səthi yanaşıb və sadəcə, Ermənistanı məmnun etmək haqqında düşünüb.

İkincisi, Laçın yolu Azərbaycan ərazisinin ayrılmaz tərkib hissəsidir. Bu səbəbdən həmin ərazidə istənilən fəaliyyətin həyata keçirilməsi hüququ istisnasız olaraq Azərbaycana məxsusdur. Heç kim Azərbaycana öz daxilində nəyi necə etmək lazım gəldiyini diktə edə bilməz!

Xatırladaq ki, bu reallıq zaman-zaman Prezident İlham Əliyev tərəfindən də dilə gətirilib, xüsusi olaraq vurğulanıb. Dövlət başçısı cari ilin 23 iyun tarixində Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birinə döyüş bayrağının təqdim olunması mərasimindəki çıxışında da bu reallığa diqqət çəkərək demişdir: "Əgər Vətən müharibəsi dövründə bizim iradəmizə heç kim təsir edə bilmədisə, bu gün təbii ki, heç kim təsir edə bilməz".

Preizdent İlham Əliyevin bu açıqlaması göstərir ki, Ermənistanın, onun havadarlarının, habelə rəsmi İrəvanın yalanlarına inanan, bu yalanlara alət olan qurumların ölkəmizlə bağlı qeyri-obyektiv qərar və bəyanatlarının ölkəmiz üçün heç bir əhəmiyyəti yoxdur.

### Ən böyük humanitar fəlakət Xankəndidə yox, Ermənistanda yaşanır

Paşinyan Beynəlxalq Ədalət Məhkəməsinin qərarından danışarkən Laçın yolunun bağlanmasının Xankəndidə yaratdığı "humanitar böhran"dan da söz açıb. O qeyd edib ki, "böhran"a görə məsuliyyət Azərbaycanın üzərinə düşür.

Göründüyü kimi, Paşinyan bu məsələdə də riyakarlığa yol verir. Çünki yolun bağlanmasının məsuliyyəti Ermənistan tərəfinin üzərinə düşdüyü üçün Xankəndidə yaşandığı iddia olunan böhrana görə də məsuliyyət məhz İrəvana məxsusdur. Baxmayaraq ki, Xankəndidə humanitar böhranın baş verməsi ilə ilə bağlı deyilənlər cəfəngiyyatdır və heç bir reallığa söykənmir.

Əslində, erməni KİV-lərində yer alan məlumatların təhlili göstərir ki, bu gün ən böyük humanitar böhran Xankəndidə yox, Ermənistanda yaşanır. Tez-tez keçirilən etiraz aksiyaları, sadə ermənilərin ölkəni tərk edərək başqa yerlərə üz tutmaları bu böhranın bariz göstəricisidir. Bu baxımdan Paşinyanın Xankəndidən daha çox Ermənistan daxilindəki vəziyyəti diqqətdə saxlamasına ehtiyac var.

***Seymur ƏLİYEV***

# Separatçıların çənbəri daralır

## Xankəndidəki “mitinq” qondarma rejimin tör-töküntülərinin son çırpıntısıdır

**Azərbaycanın beynəlxalq norma və qaydalara uyğun olaraq, aprelin 23-də Ermənistanla şərti sərhəddə, Laçın–Xankəndi yolunun başlanğıcında sərhəd nəzarət-buraxılış məntəqəsi yaratmasından sonra Qarabağ iqtisadi rayonunun Rusiya sülhməramlı kontingentinin müvəqqəti məsuliyyəti zonasında yaşayan erməni azlığı “blokada” deyib dad edir. Onların haray-həşiri haradasa başadüşüləndir. Çünki uzun onilliklər ərzində separatçıları Ermənistana bağlayan məhz dəhliz adlandırdıqları Laçın yolu olub.**

Onlar bu yolda külli-ixtiyar sahibi olublar. Beynəlxalq hüquqla Azərbaycanın suveren əraziləri olan yerlərə istədikləri zaman girib-çıxıblar, istədikləri malı, məhsulu gətirib-aparıblar. Həmçinin onların xaricdəki havadarları cənnət Qarabağa bu yoldan keçməklə daxil olublar. Laçın yolu işğal dövründə bizim üçün bir növ göz dağı olub. Vətən müharibəsindəki tarixi Qələbəmizdən sonra vəziyyət köklü şəkildə dəyişdi. Bu il aprelin 23-də yaradılan sərhəd nəzarət-buraxılış məntəqəsi isə separatçılar üçün əsl soyuq duş effekti oldu. Buna baxmayaraq, Azərbaycan erməni əsilli vətəndaşların giriş-çıxışına normal şərait yaradıb. Məntəqənin fəaliyyət göstərdiyi dövrdə hər iki istiqamətə yüzlərlə erməni sakinin tənzimlənən şəkildə, sərbəst və təhlükəsiz hərəkəti təmin edilib. İyunun 15-də məhz Ermənistan tərəfindən sərhəd nəzarət-buraxılış məntəqəsinin atəşə tutulması nəticəsində sərhədçimiz yaralanıb. Hazırda sərhəddən keçid üzrə təhlükəsizlik və istintaq tədbirləri həyata keçirilir.

Separatçılar isə bununla heç cür barışa bilmirlər. Onların hay-küyü, “blokada” deyib dünyaya car çəkməsi məhz bunun nəticəsidir. Ancaq indi informasiya müharibəsi sahəsində də fərqli vəziyyət yaranıb, daha əvvəlki dövr deyil. Müşahidələrimiz göstərir ki, Azərbaycanın istər dövlət qurumları (əsasən xarici işlər və müdafiə nazirlikləri), istərsə də ayrı-ayrı rəsmi şəxsləri qarşı tərəfin heç bir dezinformasiyasını cavabsız buraxmır, ona anındaca tutarlı cavab verir, əsl həqiqətin nədən ibarət olduğunu beynəlxalq ictimaiyyətin diqqətinə çatdırırlar. Necə deyərlər, yalan ayaq tutsa da, yerimir. Son olaraq, Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın yalan paylaşımını ifşa etməsi bunun bariz göstəricisidir. Qeyd edək ki, Mirzoyan “Twitter” hesabında Qarabağda “humanitar vəziyyətin pis olması” səbəbindən 3 və 6 yaşlı iki uşağın vəfat etdiyini yazıb. Hikmət Hacıyev isə bu paylaşımda əksini tapan fikirlərin tamamilə yalan olduğunu faktlarla sübut edib: “Ermənistan XİN rəsmi olaraq dezinformasiya yaydığı zaman faktların yoxlanması və miflərin aşkarlanması lazımdır. Birincisi, yerli polis valideyn tərəfindən nəzarətsiz qalan iki uşağın səhlənkarlıq və maşındakı yüksək temperatur nəticəsində yuxuda olarkən vəfat etdiyini təsdiqləyib. Bu, riyakarlıqdan başqa bir şey deyil. İkincisi, Laçın sərhəd nəzarət-buraxılış məntəqəsi işləyir, lakin ümumilikdə onun bu hadisə ilə heç bir əlaqəsi yoxdur. Üçüncüsü, Ermənistan xarici işlər naziri, yəqin ki, Laçın sərhəd nəzarət-buraxılış məntəqəsini qeyd etməklə, guya, Qarabağda ərzaq qıtlığı varmış kimi rəy yaratmağa çalışır. Amma Xankəndi restoranından olan videoda bunun əksi görünür”.



Beləliklə, Ermənistanın rəsmi şəxsinin daha bir yalan informasiyası faş edildi. Bu isə Azərbaycan tərəfinin informasiya savaşında da işi düzgün qurmasının, hadisələrə çevik, operativ reaksiya verməsinin sayəsində baş verib.

***

Separatçı rejimin tör-töküntülərinin son çırpıntısı dünən Xankəndinin mərkəzində yaşanıb. Onlar şəhərin mərkəzi meydanına toplaşaraq, guya, “ümumxalq mitinqi” keçiriblər. Bu sözü ona görə dırnaq işarəsi ilə yazırıq ki, burada yaşananlar mitinqdən daha çox farsa – xarici komik fəndləri olan yüngül məzmunlu komediyaya bənzəyir. İlk olaraq toplaşanların sayının azlığı diqqəti çəkir. Separatçılar hər yerdə Qarabağda “120 minlik xalq”ın yaşadığını iddia edirlər. Ancaq bir neçə gün əvvəldən aparılan güclü təbliğata, edilən çağırışlara, hətta “dövlət naziri” Qurgen Nersisyanın iyulun 13-də “müddətsiz ümummilli hərəkat”a başlamaqla bağlı müraciətinə baxmayaraq, aksiyaya cəmi bir neçə min nəfər qatılıb. O qədər də böyük olmayan meydanın yarıdan çoxunun boş olması bunu deməyə əsas verir.

Aksiyada ilk olaraq özünü “ombudsman” adlandıran Qeqam Stepanyan çıxış edib. Daha doğrusu, əvvəlcədən yazdığı mətni üzündən oxuyub. 31 yaşlı “ombudsman”ın çıxışı sələfi Artak Beqlaryanın şüvənlik stilində olub. Onun çıxışında diqqəti daha çox çəkən beynəlxalq ictimaiyyətə və Rusiya sülhməramlılarına hiddətlənməsidir. Stepanyan beynəlxalq ictimaiyyətin subyektlərinə müraciətində deyib ki, siz insan haqlarından danışırsınız, ancaq gözəl və dəbdəbəli zallarda insan haqlarından danışmaq başqa, bu hüquqların qorunmasını əməli addımlarla sübut etmək başqa şeydir. O, Rusiya sülhməramlılarından narazılığını isə bu sözlərlə ifadə edib: “2020-ci ilin üçtərəfli bəyanatı ilə “Artsax xalqı”nın yaşamaq və fiziki varlıq hüququnun əsas təminatçısı rolu sizə həvalə edilib. Bizə sülh vəd edilmişdi. Sülh gündəlik bülletenlərdə atəşkəsin pozulması qeydi deyil. Sülh girov olmaq, vətənini itirmək demək deyil. Əsl sülhü təmin etmək, “xalqımıza” ən yüksək səviyyədə vəd etdiyiniz firavan həyatı təmin etmək üçün mandatınıza əməl edin”.

Yeri gəlmişkən, separatçıların Rusiya sülhməramlılarından narazılığı aksiyada Rusiya Federasiyasının dövlət bayrağının mövcud olmaması ilə də özünü göstərib. Yada salaq ki, bundan öncəki oxşar tədbirlərdə Rusiyanın dövlət bayrağı başlar üzərində dalğalandırılırdı.

Sonra söz “dövlət naziri” Qurgen Nersisyana verilib. Şişman “dövlət naziri” də yazdığı vərəqləri iştirakçılar üçün oxuyub. O da “Artsax blokadadır” deyib beynəlxalq ictimaiyyətdən imdad diləyib.

Aksiyada baş separatçı Arayik Arutyunyanın, habelə Qarabağ ermənilərinin Azərbaycana reinteqrasiya prosesində başlıca əngəlləyici fiqurlardan olan, Bakının israrlı tələblərindən sonra bu ilin fevralında postundan uzaqlaşdırılan Ruben Vardanyanın iştirak etməsi də diqqətdən yayınmayıb.

Bundan sonra iştirakçılar aksiyaçıların tələbləri yazılmış “qətnamə”ni Beynəlxalq Qırmızı Xaç Komitəsinin Xankəndi ofisinə təqdim ediblər. Oradan isə Rusiya sülhməramlıları kontingentinin Xocalıda yerləşən komandanlığının qərargahına yollanıblar. Etirazçılar sülhməramlılardan Laçın yolu boyunca sərbəst hərəkəti təmin etməyi və “humanitar fəlakəti” dayandırmağı tələb ediblər.

Yeri gəlmişkən, qeyd edək ki, iyulun 14-nə keçən gecə qondarma rejimin “təhlükəsizlik şurası”nın keçmiş katibi Vitali Balasanyan həbs edilib. “Armenpress”in məlumatına görə, bu barədə onun vəkili Rafael Martirosyan məlumat verib. “İctimaiyyətə bildirirəm ki, “Artsax qəhrəmanı” Vitali Balasanyanın hüquq və qanuni mənafelərinin müdafiəsini öz üzərimə götürmüşəm”, – deyə, o, sosial şəbəkə hesabında yazıb və əlavə edib ki, Balasanyanın bədənində çoxlu xəsarət yerləri var.

Digər məlumatda isə qeyd olunur ki, Balasanyan Əsgərandakı evində 40 dəqiqəlik axtarışdan sonra saxlanılıb. Onunla birlikdə oğlu və əmisi oğlu da həbs edilib. Saxlanmanın səbəbləri barədə məlumat verilmir.

***

Xankəndidəki aksiyanın iyulun 15-də keçiriləcək Brüssel görüşündən bir gün əvvələ təsadüf etməsi də diqqətdən kənarda qalmır. Görünür ki, bununla Azərbaycana hansısa formada təsir və ya təzyiq göstərmək məqsədi güdülür. Ancaq unudulur ki, Azərbaycan daha əvvəlki ölkə deyil. Bu gün ölkəmiz hərbi-siyasi, diplomatik sahədə güclü, sözünü deyən, sözü ilə əməli üst-üstə düşən ölkələrdəndir. Qarabağ erməniləri, necə deyərlər, daşı ətəklərindən tökməli, hələ işğal dövründə heç kimin, o cümlədən Ermənistanın belə tanımağa cürət etmədiyi “müstəqillik” nağılından birdəfəlik imtina etməlidirlər. Əks-təqdirdə onlar üçün yumşaq desək, daha çətin olacaq.

***Səxavət HƏMİD, “Xalq qəzeti”***

---

# Deyəsən, haylar Bakının yaratdığı yeni reallıqları dərk etməyə başlayıblar

**Ermənistanda siyasi hərarət yüksək olaraq qalır. Ölkənin yazılı və elektron media resurslarını izlədikcə, bu qənaət daha da möhkəmlənir. Deməkolar ki, Ermənistanda hər gün qalmaqal yaradacaq, ciddi müzakirələrə səbəb olacaq hadisə baş verir.**

Hazırda Hayastan siyasi gündəmində əsasən üç məsələ dayanır. Birincisi, sözsüz ki, Azərbaycanla “Sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında” ikitərəfli saziş layihəsi üzrə aparılan danışıqlar və iki ölkə arasında nəqliyyat-kommunikasiya xətlərinin açılmasıdır.

Ermənistan siyasi gündəminin ikinci məsələsi Türkiyə ilə münasibətlərin normallaşması prosesidir. Məlumdur ki, Paşinyan hökuməti Ankara ilə münasibətləri qaydaya salmağa çalışır. Parlamentin vitse-spikeri Ruben Rubinyan Ermənistan tərəfdən, səfir Sərdar Kılıç isə Türkiyə tərəfdən münasibətlərin normallaşması üzrə xüsusi nümayəndə təyin olunublar. Onların ilk görüşü 2022-ci ilin yanvarın 14-də Moskvada keçirilib. Bundan sonra xüsusi nümayəndələrin görüşləri mütəmadi xarakter alıb.

Üçüncü məsələ qonşularla, xüsusilə Türkiyə ilə münasibətlərin normallaşmasına mane olan dövlət rəmzlərinin dəyişdirilməsidir. Xüsusilə, Türkiyə ərazisindəki ən yüksək dağ zirvəsi – Ağrı dağının Ermənistanın dövlət gerbində əksini tapması iki ölkənin münasibətlərinin normallaşmasında əngəlləyici amil olduğu üçün hazırkı hökumət gerbin dəyişdirilməsində maraqlıdır. Ancaq bu məsələdə Paşinyan iqtidarına qarşı çıxanlar da az deyil.

***

Ermənistan baş naziri Nikol Paşinyan iyulun 15-də Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişellə görüşünün planlaşdırıldığını açıqlayıb. “Mən həmin görüşdə iştirakımı təsdiqlədim, ümid edirəm ki, görüş zamanı sülh müqaviləsi üzrə danışıqlarda irəliləyiş əldə edəcəyik”, – deyə Paşinyan hökumətin iyulun 13-də keçirilən iclasında bildirib. Yeri gəlmişkən, iyulun 12-də isə Ermənistan–Azərbaycan şərti sərhədində iki ölkənin baş nazirlərinin müavinləri – Mher Qriqoryan və Şahin Mustafayevin sədrliyi ilə Ermənistanla Azərbaycan arasında Dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə komissiyanın dördüncü iclası keçirilib. Bir həftə əvvəl isə Paşinyan Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin mətninin imzalanmağa hazır olmadığını bildirmişdi: “Təəssüf ki, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin mətni hələ imzalanmağa hazır deyil. Ümid edirəm ki, qarşıdan gələn görüş zamanı Vaşinqtonda əldə olunan irəliləyişi daha əsaslı hala gətirə biləcəyik. Bütün məsələlər diplomatik yolla həll edilməlidir”.

Paşinyanın bu açıqlaması Brüssel görüşündə irəliləyiş əldə olunacağına inamı azaldır. Buna baxmayaraq, Ermənistan konstruktivlik nümayiş etdirərsə, sülh danışıqları zamanı “Bakı və Xankəndi arasında Qarabağ ermənilərinin hüquqlarının və təhlükəsizliyinin təmin edilməsi gündəliyi ilə beynəlxalq mexanizm çərçivəsində dialoqun vacibliyi” kimi heç bir əsası olmayan məsələlər barədə danışmağı dayandırarsa, Brüssel görüşündə irəliləyiş əldə oluna bilər. Ancaq əgər haylar yenə əvvəlki kimi davransalar, burada da itirən yenə onlar özləri olacaqlar. Zənnimizcə, bu məqamda Prezident İlham Əliyevin mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada keçirilən “Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə” mövzusunda dördüncü beynəlxalq konfransda Prezident İlham Əliyevin ABŞ-ın Prinston Universitetinin Yaxın Şərq Araşdırmaları üzrə professoru Maykl Reynoldsun sualına verdiyi cavabı xatırlatmaq yerinə düşər. Dövlət başçımız deyib: “Mən dəfələrlə bu məsələyə dair fikrimi bildirmişəm. Demişəm ki, əgər Ermənistan sülh istəmirsə sülh olmayacaq. Tarixdən bilirik ki, sülh sazişini imzalamayan ölkələr də var. Bu, nə Ermənistan, nə də region üçün yaxşı olacaq. Əlbəttə ki, Azərbaycan üçün də yaxşı olmayacaq. Buna görə də biz hələ də ümid edirik ki, onlar məntiqli davranacaqlar, sabiq Minsk qrupu fəaliyyətdə olanda işğal zamanı istifadə etdikləri taktikadan istifadə etməyəcəklər...”

***

Türkiyə-Ermənistan münasibətlərinin normallaşması ilə bağlı isə bugünlərdə “Hraparak” qəzetində dərc olunmuş məqalədəki fikirlər diqqəti cəlb edir. Qeyd olunur ki, N.Paşinyan hökumətin iclaslarında Azərbaycana qarşı “cəsarətli” çıxışlar etsə də, qapalı görüşlərdə hökumət nümayəndələri reallıqlardan danışırlar. Nəşr qeyd edir ki, iki gün öncə hökumət nümayəndələri ekspertlərlə qapalı görüş keçirib. Bu zaman açıq, səmimi söhbət olub, lakin ictimailəşdirilməsi qadağan edilib. “Hraparak” yazır: “Görüşdə vitse-spiker, Ermənistan-Türkiyə münasibətləri üzrə xüsusi nümayəndə Ruben Rubinyan Ankara ilə danışıqlardan bəhs edib. Bildirib ki, Türkiyə Ermənistana Azərbaycanla münasibətləri tənzimləmək üçün bir ay vaxt verib. Türkiyə ilə də münasibətlərin normallaşması bundan asılıdır. Ermənistan bu müddətdə Türkiyə və Azərbaycanın tələblərini yerinə yetirə bilməsə, o zaman İrəvan-Ankara münasibətlərinin tənzimlənməsi unudula, arxivə göndərilə bilər. Türkiyədən gələn ultimatumun bir mənası var: Azərbaycanın tələblərinin yerinə yetirilməsi üçün sizə bir ay vaxt veririk, bunu etməsəniz, Ankara ilə danışmaq şansınız olmayacaq, biz hərəkətə keçəcəyik. Türkiyə hökuməti açıq şəkildə bildirib ki, rəsmi İrəvanın Ermənistan-Azərbaycan və Ermənistan-Türkiyə münasibətlərini ayırmaq, Ankaranı sivil və konstruktiv, Bakını isə təcavüzkar və barışmaz göstərmək kimi pritimiv cəhdləri mənasızdır. Türkiyə açıq şəkildə bildirdi ki, istədiklərini almayana qədər Ermənistanla münasibətlər nizamlanmayacaq, sərhəd açılmayacaq”.



Qəzet qeyd edir ki, görüşdə Ermənistan üçün iki seçimdən bəhs olunub: “Ya müqavimət göstərib təslim olmalı və ya danışıqlar apararaq, itki vermədən Azərbaycan və Türkiyənin şərtləri ilə razılaşmalıyıq. Reallıq bundan ibarətdir. Qarabağdakı ermənilər üçün də eyni seçimdən bəhs olunur. Ya Bakının şərtləri ilə razılaşıb Azərbaycana reinteqrasiya edirlər, ya da bundan imtina edərək, Qarabağı tərk etmək məcburiyyətində qalırlar. Görüşdə iştirak edən “Artsaxın xarici işlər naziri” Sergey Qazaryan bildirib ki, onların üçüncü variantı da var: Qarabağda 10 mindən çox silahlı döyüşməyə hazırdır. Lakin Ermənistan hökumət nümayəndələri ona izah ediblər ki, Azərbaycana qarşı müharibə növbəti məğlubiyyət deməkdir”.

İyulun 13-də yayılan məlumatda isə Türkiyə ilə sərhəddə yerləşən “Marqara” sərhəd-keçid məntəqəsində tikinti işlərinin birinci mərhələsinə başlanıldığı bildirilib. “Armenpress”in məlumatına görə, bu barədə hökumətin müvafiq qərarında qeyd olunub. Bildirilir ki, bu məqsədlə podratçı şirkətə 140,4 milyon dram ödənilib. Ermənistan hökumətinin bu addımı onların Türkiyə ilə sərhədləri istənilən halda açmağa hazırlaşdığının, Ankaranın tələblərinin yerinə yetiriləcəyinin göstəricisi sayıla bilər.

***

Nəhayət, haqqında söhbət açacağımız üçüncü məsələ əvvəlkilərdən heç də az əhəmiyyətli deyil. “Past” qəzeti öz mənbələrinə istinadən yazır ki, N.Paşinyan yaxın gələcəkdə dövlət rəmzlərinin dəyişdirilməsi məsələsini gündəmə gətirməyi planlaşdırır. Nəşrin mənbəyinin bildirdiyinə görə, artıq baş nazir aparatının rəhbəri Arayik Arutyunyan və təhsil, elm, mədəniyyət və idman naziri Janna Andreasyanın rəhbərliyi ilə məsələyə dair bir neçə müzakirə aparılıb. “Öyrəndik ki, görüşdə bəstəkarlar, yazıçılar, memarlar, rəssamlar iştirak edib, hətta gerbin bir neçə variantı var. Yaxın vaxtlarda gerb və bayrağın dəyişdirilməsi məsələsi ilə bağlı peşəkar komissiyanın yaradılması nəzərdə tutulur ki, bu komissiya seçilmiş ən uğurlu variantları öyrənib ictimaiyyətə təqdim etməlidir. İndiki mərhələdə hakimiyyət bu mövzunu ictimai müzakirəyə çıxarmaq fikrində deyil, eyni zamanda, müxtəlif səbəblərdən əhval-ruhiyyəni və reaksiyanı yoxlamaq üçün tədricən mövzu ilə bağlı ayrı-ayrı tezisləri ictimaiyyətə ötürəcəklər”, – deyə qəzet yazır.

Təhsil, elm, mədəniyyət və idman naziri Janna Andreasyan iki gün əvvəl keçirdiyi brifinqdə bildirib ki, gerbin dəyişdirilməsi ilə bağlı işçi qrup hələ yaradılmayıb: “Mən bu sahəni koordinasiya edən bir nazir kimi ilk növbədə mütəxəssislərin peşəkar rəyini dinləməliyəm”. Nazir bildirib ki, dövlət rəmzləri dövlətin simasıdır və istənilən dəyişiklik yaxşı düşünülməli, müzakirə olunmalı və başa düşülməlidir.

Nikol Paşinyanın Ermənistan Respublikasının dövlət gerbində təsvir olunan Nuhun gəmisi, Ağrı dağı və Ermənistanı idarə etmiş dörd sülalənin gerblərinin 1991-ci ildə yaradılmış dövlətə heç bir aidiyyəti olmadığı fikrinə gəlincə, Janna Andreasyan deyib: “Biz dövlətçilikdən imtina etmirik, sadəcə olaraq, onların indiki vəziyyətimizlə bağlılığının olub-olmadığını başa düşməliyik. Rəmzlərimiz indiki vəziyyətimizi əks etdirməlidir”.

Görünür, haylar gec də olsa, utopiyadan əl çəkərək, Vətən müharibəsindən sonra Azərbaycanın yaratdığı yeni reallıqları dərk etməyə başlayıblar.

***S.NAZİMOĞLU, “Xalq qəzeti”***

### Ekspert rəyi

**İlyas HÜSEYNOV, politoloq**



– Qırx dörd günlük Vətən müharibəsində qazanılan Qələbədən sonra Azərbaycan regionda sülhün yaradılmasının, qarşılıqlı əlaqələrin qurulmasının və inteqrasiyanın əsas təşəbbüskarı kimi çıxış edib. Ölkəmizin sülh danışıqları ilə bağlı mövqeyi aydın və şəffafdır. Ermənistan və danışıqlar prosesində vasitəçi kimi iştirak edən tərəflər də Azərbaycanın sülh danışıqları ilə bağlı mövqeyinin dəyişməz olduğunu yaxşı bilirlər. İrəvanın Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıması, sərhədlərini qəbul etməsi heç də xoşluqla olmayıb, onu buna Bakının gücü və ardıcıl prinsipial siyasi xətti məcbur edib.

Azərbaycanın bu mövqeyini Beynəlxalq Ədalət Məhkəməsi də dəstəkləyib. ABŞ-ın siyasi gündəliyi də Bakının siyasi gündəliyi ilə uyğunluq təşkil edir. Bütün bunlar diplomatik uğurlardır. Biz bu uğurlara addım-addım gəlib çatmışıq. Hazırkı siyasi danışıqlarda, diplomatik təmaslarda Azərbaycanın mövqeyi beynəlxalq hüququn fundamental norma və prinsiplərinə söykənir. Ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığı və suverenliyinin təmin edilməsi ilə yanaşı, Azərbaycan müstəqil xarici siyasət yürüdərək, daxili işlərinə hansısa geopolitik aktorun qarışmasının da əleyhinə çıxır. İrəvan anlamalıdır ki, başqa çıxış yolu yoxdur və gec-tez Azərbaycanla sülh müqaviləsi imzalamalıdır.

# Azərbaycanda Lider – Xalq tandeminin başlanğıcı



**(Əvvəli ötən sayımızda)**

Keçmiş SSRİ-nin şovinist, millətçi rəhbərliyi, Kremli və digər ittifaq qurumlarını hörümçək toru kimi bürümüş erməni lobbisi, sovet diktatoru M.Qorbaçovun məkrli ermənipərəst ətrafı Heydər Əliyevin qüdrətli, qətiyyətli şəxsiyyət, fenomen lider olmasına, ölkə daxilində daim yüksələn nüfuzuna, dünyada türk oğlu kimi geniş şöhrətlənməsinə dözə bilmirdilər.

1982–1987-ci illərdə sovet superdövlətinin ali rəhbərlərindən biri olan bu insanın geniş səlahiyyət, kəsərli hökm sahibi olmasına isə ittifaq dövlətinin hər yerinə və hər sahəsinə yayılmış ermənilər həsəd və paxıllıqla baxır, bu gerçəkliklə barışa bilmirdilər. Sovet hökumətində Heydər Əliyevə böyük səlahiyyətlər verilmişdi. Nəhəng bir ölkənin – SSRİ-nin 20-yə yaxın böyük nazirliyinə məhz Heydər Əliyev rəhbərlik edirdi. Baykal–Amur magistralı kimi nəhəng layihə, magistral xətt boyunca yüzlərlə yaşayış məntəqəsi, müəssisə və obyekt onun rəhbərliyi altında inşa olunurdu.

Lakin XX əsrin 80-ci illərin ortalarından başlayaraq beynəlxalq aləmdə geosiyasi vəziyyət kəskin şəkildə dəyişdi. Dünyada gedən bu proseslər SSRİ-də də ictimai-siyasi, sosial-iqtisadi vəziyyətə öz təsirini göstərdi. Belə bir şəraitdə sovet rəhbərliyinə, ermənipərəst, qatı şovinist, türk xalqlarına kəskin və barışmaz nifrəti ilə fərqlənən Mixail Qorbaçov gətirildi. Onun Qarabağın dağlıq hissəsini Ermənistana birləşdirməyə çalışan erməni müşavirləri Heydər Əliyevi qarşılarında ciddi maneə görürdülər. M.Qorbaçovun yenidənqurma adı altında yeritdiyi dağıdıcı siyasi xəttlə razılaşmayan Heydər Əliyev, nəhayət, ciddi təzyiq və təhdidlərlə 1987-ci ilin payızında SSRİ rəhbərliyindən uzaqlaşdırıldı.

Bununla da, Qarabağın dağlıq hissəsində, daşnak Ermənistanda fitnə ocağı alovlandı. Ölkəmizə qarşı erməni təcavüzü, vandalizmi, xalqımıza qarşı terror, soyqırımı və deportasiya kimi irimiqyaslı qəsdlər gerçəkləşdi. Xalqımızın böyük oğlu sovet rəhbərliyindən istefa verdikdən 15 gün sonra Qarabağ məsələsi ortaya çıxdı.

Ulu öndərin dövlətçilik fəaliyyətinin üçüncü mərhələsi 1991–1993 və 1993–2003-cü illəri əhatə edir. Dünya şöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyev 1991–1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədrinin müavini olmuşdu. O, 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilən təsis qurultayında partiyanın sədri seçilmişdi.

1991-ci ilin 18 oktyabrında müstəqilliyini bəyan edən Azərbaycan Respublikası, əslində, real suverenliyinə 1993-cü ilin iyunundan sonrakı dövrdə nail oldu. 1993-cü ilin may–iyununda siyasi-hərbi böhranın son dərəcə kəskinləşməsi ilə ölkədə xaos, vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yaranmışdı. Müstəqilliyin və dövlətçiliyin itirilməsi təhlükəsinin yarandığını görən xalqın çox ciddi tələbi və xahişindən sonra Heydər Əliyevin yenidən Azərbaycanda hakimiyyətə qayıdışı baş verdi.

Bununla da ölkəmiz məhv olmaq təhlükəsindən xilas oldu və Azərbaycanda milli intibah dövrünün ikinci mərhələsi (1993–2003-cü illər) başlandı. Bu dövr ümummilli liderin sözləri ilə desək, "müstəqilliyin əldə edilməsindən daha çətin olan onun qorunması və möhkəmləndirilməsi" ilə xarakterizə olunurdu. Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Təcrübəli, uzaqgörən dahi şəxsiyyət, ilk növbədə ölkədə vətəndaş müharibəsinin, ölkənin parçalanmasının, müstəqilliyimizin parçalanmasının qarşısının alınmasına nail oldu.

Ümummilli lider Heydər Əliyev qəti əmin oldu ki, sosial-iqtisadi böhran keçirən respublika iqtisadiyyatını dirçəltmək, dinamik inkişafı təmin etmək, ölkənin dünya inteqrasiya sisteminə qovuşmasına nail olmaq üçün ən sanballı mənbə neft amili ola bilər. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandı. Artıq 1994–1996-cı illərdə iqtisadiyyatda tənəzzül meyillərinin qarşısı alındı. Eyni zamanda, ölkədə yeni iqtisadi sistemin qurulması, aqrar islahatların aparılması, sahibkarlığın inkişafı ilə əlaqədar qanunvericilik bazası yaradıldı.

Azərbaycan ordusunda hökm sürən intizamsızlığa son qoyuldu. Vahid ordu sisteminin yaradılmasına başlanıldı. Əsil ordu quruculuğu mərhələsi başladı. Ordunun döyüş qabiliyyətinin, vətənpərvərliyinin artırılması, möhkəmləndirilməsi, ən müasir silah və texnikalarla təchiz edilməsi, peşəkar hərbiçilərin formalaşdırılması istiqamətində genişmiqyaslı işlər başlanıldı.

Ulu öndər çevik, düşünülmüş və uzaqgörən siyasətilə 1994 və 1995-ci illərdə Azərbaycanın dövlət müstəqilliyinin əleyhinə olan qüvvələrin dövlət çevrilişinə yönəlmiş cəhdlərinin qarşısını aldı.

Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə başlıca qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyulmuşdur. 1993–2003-cü illərdə onun apardığı daxili siyasət ölkənin genişmiqyaslı tərəqqisinə, hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarının təmin olunmasına xidmət etmişdir. Bu illərdə ümummilli lider Heydər Əliyevin fəaliyyətində sosial-iqtisadi islahatlar, bazar iqtisadiyyatının bərqərar olması, dinamik inkişafın təmin edilməsi, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, özəlləşdirmə proqramının, aqrar islahatların həyata keçirilməsi ardıcıl prioritet sahələr təşkil etmişdir.

Beləliklə, 1995-ci ilin ortalarında Azərbaycan dövlətinin inkişafında yeni mərhələ başladı. 1995-ci il noyabrın 12-də müstəqil Azərbaycanın ilk konstitusiyasının qəbulu ilə paralel demokratik seçkilər əsasında Azərbaycan Respublikasının Milli Məclisi formalaşdırıldı, özünüidarəetmə orqanları – bələdiyyələr yaradıldı.

1993–2003-cü illərdə həyata keçirilən daxili və xarici siyasət göstərdi ki, ulu öndər Heydər Əliyev təcrübəli, görkəmli, dünya miqyaslı tarixi şəxsiyyət kimi Azərbaycan gəmisini tarix okeanının tufanlarından, qasırğalarından sağ-salamat keçirib, uğurla irəliyə - gələcəyə aparmağa qadir fenomen liderdir.

Yeni Azərbaycanın qurucusu Heydər Əliyev ölkənin təbii sərvətlərindən, əlverişli coğrafi-strateji mövqeyinin üstünlüyündən respublikanın milli mənafelərinə uyğun şəkildə istifadə edilməsinə yönəldilmiş beynəlxalq iqtisadi sazişlərin işlənib hazırlanması və həyata keçirilməsi sahəsində gərgin, səmərəli və yorulmaz fədakar fəaliyyət göstərmişdir. Həmçinin, bir çox əhəmiyyətli beynəlxalq müqavilələrə imza atılmış və onların həyata keçirilməsinə başlanılmışdır.

Azərbaycana 34 il rəhbərlik etməklə Ulu öndər Azərbaycanın, bütün dünya azərbaycanlılarının lideri olmaqla bərabər, dünyanın böyük, dünyamiqyaslı xadimləri səviyyəsinə yüksəlmişdir. Türk dünyasının böyük lideri Heydər Əliyev Azərbaycanın dövlətçilik tarixində dünya azərbaycanlılarını ilk dəfə bir araya gətirən tarixi şəxsiyyət, böyük dövlət xadimi idi.

Azərbaycanın Avropa Şurasına və bir sıra beynəlxalq təşkilatlara, birliklərə daxil olması ümummilli liderin xarici siyasətinin ən mühüm uğurlarından idi. Azərbaycan xalqının, tarixin XX əsrdə yetirdiyi dünya miqyaslı tarixi şəxsiyyətlərdən olan Heydər Əliyevin parlaq siyasi zəkası, uzaqgörənliyi sayəsində iki əsrin və iki minilliyin qovşağındakı Azərbaycan öz milli-mənəvi dəyərlərini qoruyaraq, üçüncü minilliyə - XXI əsrə inamla qədəm qoymuşdu.

Xalqımızın dahi oğlu, ümummilli lideri, görkəmli dövlət xadimi, dahi şəxsiyyət Heydər Əliyevin əziz və işıqlı, şərəfli ömür yolu, xatirəsi qədirbilən Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.

**İbrahim ZEYNALOV,**
**Bakı Dövlət Universiteti tarix fakültəsinin dekanı, professor**

## Mingəçevir



**"Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, məqsədyönlü qərarları ilə qısa müddətdə respublikamızın sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olub".**

Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov Gənclər Evində keçirilən "dəyirmi masa"da daha sonra bildirib ki, ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi hər iki dönəmdə milli adət-ənənələrimizin, mədəniyyətimizin, təhsilimizin, elmimizin, dilimizin, ideologiyamızın, ümumilikdə bütün sahələrin inkişaf etdirilməsində mühüm rolu olmuşdur.

Tədbirdə çıxış edənlər Ulu öndərin əsasını qoyduğu ideyaların bu gün onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirildiyini bildiriblər.

## Ağstafa



**Ağstafada ümummilli lider Heydər Əliyevin 14 iyul 1969-cu ildə birinci dəfə hakimiyyətə gəlişinə həsr olunmuş toplantı keçirilib.**

Heydər Əliyev Mərkəzində təşkil edilən məclisdə Ulu öndərin zəngin və mənalı həyatından bəhs olunan sənədli film nümayiş etdirilib.

Ağstafa RİH başçısı Seymur Orucov xalqımızın tarixi taleyində misilsiz rol oynamış Ulu öndərin Azərbaycanda birinci dəfə siyasi hakimiyyətə gəlməsinin tarixinin əhəmiyyətindən söz açıb. O bildirib ki, dünya şöhrətli siyasi xadim o illərdə öz müdrik fəaliyyəti ilə müasir tariximizin ən şanlı və parlaq salnaməsini yaradıb.

Çıxış edənlər 1969–1982-ci illəri haqlı olaraq Azərbaycanın intibah dövrü adlandırıblar.

## Şamaxı



Şamaxı Rayon İcra Hakimiyyəti və YAP Şamaxı rayon təşkilatının birgə təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin Azərbaycanda ilk dəfə siyasi hakimiyyətə gəlişinə həsr olunmuş tədbir keçirildi.

Dəyirmi masanı giriş nitqi ilə açan rayon icra hakimiyyəti başçısı Tahir Məmmədov bildirdi ki, 1969-cu il 14 iyulundan başlayan intibah illəri Azərbaycanın tarixinə hərtərəfli təqəqqi dövrü kimi daxil olub. O dövrdə ulu öndərin müstəsna səyləri ilə Azərbaycanın gələcək müstəqilliyinin əsasları yaradılmışdı.

Digər çıxış edənlər 14 iyul tarixinin xalqımızın taleyində oynadığı misilsiz roldan danışdılar. Qeyd edildi ki, məhz həmin dövrdən başlayaraq Azərbaycanın hər yerində olduğu kimi Şamaxıda da intibah dövrünün əsasının qoymuşdu.

## Şəmkir



**Şəmkirin Heydər Əliyev Mərkəzində rayon icra hakimiyyətinin təşkilatçılığı ilə "14 iyul 1969-cu il: Müstəqil və qüdrətli Azərbaycanın təməlinin qoyulduğu gün" mövzusunda tədbirdə Ulu öndərin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.**

Sonra rayon icra hakimiyyəti başçısının birinci müavini Süleyman Zeynallı bildirib ki, Azərbaycan xalqı Heydər Əliyevin 1969-cu ildə respublikaya rəhbər vəzifəyə təyin olunmasını tarixi hadisə kimi qiymətləndirir və eyni zamanda, ikici dəfə hakimiyyətə gəlişini xalqın qurtuluşu hesab edir.

YAP Şəmkir Rayon Təşkilatının sədri Fəxrəddin Vəliyev və digər çıxış edənlər də Ulu öndərin Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən bəhs ediliblər.

## Göyçay



**Heydər Əliyev Mərkəzinin konfrans zalında ümummilli lider Heydər Əliyevin Azərbaycanada hakimiyyətə gəlişinin 54-cü ildönümü münasibətilə dəyirmi masa keçirildi.**

Məclisi giriş sözü ilə açan Göyçay Rayon İcra Hakimiyyətinin başçısının müavini Zivər Zeynalova bildirdi ki, bu il 100 illiyini qeyd etdiyimiz Ümummilli liderin ilk dəfə hakimiyyətə gəldiyi 1969-cu il 14 iyul günü xalqımızın tarixi taleyində misilsiz rolu ilə daim xatırlanır. Bu tarix Azərbaycanın xilasının birinci mərhələsi, xalqın özünə qayıdış tarixidir.

Çıxış edənlər də Ulu öndərin ölkəyə birinci rəhbərliyi illəri yüksəliş dövrü, müstəqilliyin təməllərinin yaradıldığı mərhələ kimi dəyərləndiriblər.

## Goranboy




**Goranboyda rayon icra hakimiyyətinin təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində 14 iyul 1969 cu ildə ümummilli lider Heydər Əliyevin birinci dəfə hakimiyyətə gəlişi mövzusunda konfrans keçirilmişdir.**

Məclisdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev demişdir ki, Ümummilli lider öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin ideyalarının təntənəsidir

Konfransda çıxış edən natiqlər də 1969-cu ilin 14 iyulunu xalqın taleyinə yazılmış işıqlı bir günün başlanğıcı kimi qiymətləndirdilər.

## Zaqatala



**Ümummilli lider Heydər Əliyevin Azərbaycanda birinci dəfə siyasi hakimiyyətə gəlişinin ildönümü münasibətilə dünən Zaqatala şəhərində müstəqil və qüdrətli Azərbaycanın təməlinin qoyulduğu gün mövzusunda elmi-praktik konfrans keçirilmişdir.**

Məclisdə Zaqatala Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Tofiq Əhmədov bildirmişdir ki, dünyaşöhrətli siyasətçi Heydər Əliyevin Azərbaycanda birinci dəfə siyasi hakimiyyətə gəlişi ilə Azərbaycanda sürətli inkişaf mərhələsinin təməli qoyulmuşdur.

Digər çıxışlarda Ümummilli liderin xalqımız qarşısındakı əvəzsiz xidmətləri bir daha xatırlanmışdır. öz layiqli yerini tutmuşdur.

**Hamlet QASIMOV,**
**İlqar HƏSƏNOV,**
**"Xalq qəzeti"nin bölgə müxbirləri**

# Heydər Əliyev və yeni liderlik

**2023-cü ilin "Heydər Əliyev" ili elan edilməsi ilə əlaqədar "Heydər Əliyev və yeni liderlik: fəlsəfi-elmi təhlil" kitabı işıq üzü görüb. Monoqrafiyada Ulu öndərin Prezident-Lider kimi fəaliyyəti liderologiya-fəlsəfə-elm konteksində müasir fənlərarası elmi metodologiya tətbiq edilməklə araşdırılıb.**




Müəllif fəlsəfə elmləri doktoru Füzuli Qurbanov Ümummilli liderin irsinin tədqiqində ciddi fəlsəfi-elmi yanaşmaya keçməyin faydalı ola biləcəyini əsaslandırmağa çalışıb. Bu məqsədlə Heydər Əliyevin dövlət başçısı və lider kimi fəaliyyəti konkret olaraq sinergetikada mövcud olan metodoloji prinsiplər əsasında müəllifin hazırladığı yanaşma prizmasında təhlil edilib. Həmin prinsiplər belədir: qeyri-xəttilik, intersubyektivlik, emercent interfeys, multifraktallıq və təşəkkül.

Monoqrafiyada vurğulanan fənlərarası metodoloji prinsiplər işığında Heydər Əliyevin müasir müstəqillik mərhələsində Prezident və Lider kimi təcrübəsinin başlıca məqamları fəlsəfi baxımdan araşdırılıb.

O cümlədən, Ulu öndərin siyasi varislik prinsipinin fəlsəfi-elmi analizi aparılıb. Alınan fəlsəfi qənaətlər əsasında Heydər Əliyevin uğurlu Liderlik Məktəbinin mövcudluğu və həmin kontekstdə Prezident İlham Əliyevin XXI əsrdə yeni uğurlu liderlik nümunəsi yaratdığı sübut edilib.

**"Xalq qəzeti"**

# Oskanyan siyasi avantüradan əl çəkmir və... Paşinyana biclik öyrədir

**Ermənistanda və onun havadarı olan bəzi ölkələrdə müxtəlif siyasi qüvvələr və şəxslər İrəvanla Bakı arasında sülh müqaviləsinin imzalanması istiqamətində aparılan danışıqlardan öz mənafeləri, gündəmdə qalmaları və ya populyarlaşmaları üçün istifadə edirlər. Belələrindən biri Ermənistandakı radikal-revanşist kəsimin nümayəndəsi, 1998-2008-ci illərdə ölkənin xarici işlər naziri olmuş, hazırda Civilitas Fondunun təsisçisi Vardan Oskanyandır. Hazırda 68 yaşı olan V.Oskanyan bugünlərdə söz verib ki, ona müvafiq səlahiyyətlər veriləcəyi təqdirdə, qısa müddətdə Azərbaycanla danışıqlar prosesində dönüşə nail olacaq. Lakin o, şərt qoyub: Paşinyan üç ay susmalıdır, çünki sabiq nazirin fikrincə, baş nazirin çıxışı erməni xalqının başına müharibə gətirib və hətta müharibədən sonra, bütün bu müddət ərzində onun çıxışları mövcud problemləri daha da dərinləşdirib.**

Oskanyan Ermənistanın hakim zümrəsinin mənsubları və müstəqil ekspertlər tərəfindən tənqid edildikdən sonra mövqeyində korrektə etmək əvəzinə, fikirlərində daha da "qabağa" gedib. Deyib ki, Qarabağ nəinki sıradan xarici siyasət məsələsidir, ümumiyyətlə xarici siyasət məsələsi deyil: "Bu, ümummilli, ekzistensial məsələdir və əgər Paşinyan başqa məsələlərdə başqalarının fikrini dinləyə bilmirsə, deməli, bu məsələdə də bunu edə bilməz".

Oskanyan iyulun 15-də Brüsseldə keçiriləcək görüş ərəfəsində Paşinyana necə deyərlər, biclik öyrətməyə çalışıb. Bunu diplomatik dillə pərdələyərək, "danışıqlar məntiqini dəyişmək imkanı" adlandırıb: "Sən (baş nazir Nikol Paşinyanı nəzərdə tutur-S.H.) Brüsselə getməzdən əvvəl bəyanat verə və ya danışıqların əvvəlində bunu deyə bilərsən: "Bəyanat verirəm ki, mən Praqada Alma-Ata Bəyannaməsinə istinadən Azərbaycanın Qarabağ da daxil olmaqla, ərazi bütövlüyünü tanıyan bəyanat imzalamışam. Həmçinin bu bəyannamənin iki ölkə arasında razılaşma deyil, çoxtərəfli sənəd olduğunu nəzərə alsaq, orada əksini tapan ərazi bütövlüyünün tanınması faktı Ermənistanın Azərbaycanın Qarabağ da daxil olmaqla ərazi bütövlüyünü tanıması üçün əsas ola bilməz. Daha sonra bəyan edə bilərsən ki, əgər danışıqlar prosesində iki xalq arasında ədalətli və davamlı sülh üçün zəmin yaranarsa, mən Azərbaycanın ərazi bütövlüyünü tanımağa hazıram. Ona görə də mən təklif edirəm ki, bizim danışıqlar gündəliyimizə sovet dövründə Qarabağın muxtar vilayət statusunun olması faktını mütləq daxil edək. Bu xüsusi daxil etməyi təklif edirəm".

Oskanyan əlavə edib ki, Şarl Mişel bütün dövlət quruluşunun müxtəlif icmaların bərabərliyinə əsaslandığı bir ölkənin (Belçikanın) keçmiş baş naziri kimi bunu çox yaxşı başa düşəcək: "Bu gündəliyin irəli sürülməsi danışıqlar məntiqini xeyli dəyişəcək və daha çox erməniyönlü olacaq, hazırkı gündəm isə yaxşı heç nəyə gətirib çıxara bilməz. Sənin bu gündəliyi dəyişmək şansın var".

***

Göründüyü kimi, V.Oskanyan açıq təxribatçı çağırış edir ki, N.Paşinyan əvvəlki razılaşmalardan geri çəkilsin, İkinci Qarabağ müharibəsindən ötən 2 il 8 aydan artıq dövr ərzində qət edilən yoldan dönülsün, yenidən necə deyərlər, ara qarışsın, məzhəb itsin və onun kimilər meydan sulasınlar. Maraqlıdır ki, Oskanyana əsas dəstək 10 il (2008-2018) Ermənistanda hakimiyyətin uzurpatoru olmuş Serj Sarkisyandan gəlib. O jurnalistlərə müsahibəsində deyib ki, Ermənistan tərəfdən danışıq aparanlar dəyişsə, vəziyyət dəyişə



bilər: "Bu, birmənalıdır". Sarkisyan bildirib ki, V.Oskanyanın təkliflərini diqqətlə dinləyib, onun dediklərini məntiqli və mümkün hesab edir: "Əlbəttə, vəziyyət ağırdır, çoxlu çətinliklər, böyük problemlər var, lakin mən vəziyyətin çıxılmaz olduğunu düşünmürəm. Hakimiyyət dəyişikliyi ən yaxşı həll yolu olardı, amma həqiqətən də Vardan Oskanyanın rəhbərlik edəcəyi qrupun işləyəcəyinə, qalanların isə susacağına razılaşa bilsələr, onda bu da uğur ola bilər. Baxmayaraq ki, mən hakimiyyətin buna razılaşacağını düşünmürəm".

Ancaq S.Sarkisyan istisna olmaqla, V.Oskanyanın fikirləri özünə tərəfdar tapmayıb. Bu isə onun dediklərinin havadan asılı olan fikir kimi də qalacağını deməyə əsas verir. Oskanyanın fikirlərinə verilən reaksiyalar bunun göstəricisidir.

***

Vardan Oskanyanın on il ərzində Ermənistan-Azərbaycan danışıqlarının gedişatını dəyişmək üçün imkanı var idi, amma bunu on ildə edə bilmədisə, üç ayda necə edəcək? Bunu Ermənistan təhlükəsizlik şurasının katibi Armen Qriqoryan "Amerikanın səsi" radiostansiyasının erməni xidmətinə müsahibəsində deyib. O, təkrar edib ki, Oskanyanın belə bir imkanı var idi və o, bundan istifadə etməyib. "Bəs onda ikinci dəfə, hətta üç ay ərzində və bəzi anlaşılmaz adamların köməyi ilə bunu edə biləcəyinə inam haradadır?", – deyə Qriqoryan sual edib.

Qriqoryanı Oskanyanın dövlətçilik anlayışına yanaşması da təəccübləndirib. "Belə məsələlər üçün ikinci dövlətin, yaxud ikinci dövlət institutunun yaradılması təklif olunur ki, bu da çox qeyri-ciddidir və bu mənada müzakirə mövzusu olmamalıdır", – deyə təhlükəsizlik şurasının katibi vurğulayıb.

Hakim "Vətəndaş razılaşması" partiyasından olan deputat Xaçatur Sukiasyan deyib ki, V.Oskanyan vaxtilə "Artsax"a danışıqlardan çıxmağı məsləhət görmüş adamdır: "Hər şeydən əvvəl, bundan sonra "Artsax"ın nə qədər ziyan çəkdiyini anlamaq lazımdır. İnsanlar bu adamın fəaliyyəti zamanı hansı səhvlərə yol verdiyini unutmayıb. Bu şəxs 10 ildir Ermənistanda yaşamayıb. Bizim səlahiyyətli orqanlarımız onun nə etdiyini, kim olduğunu öyrənməlidir. Əgər o, 10 il xarici işlər naziri olubsa və bu problemi həll edə bilməyibsə, indi üç aya necə həll edəcək?", – deyə Sukiasyan əlavə edib. Onun sözlərinə görə, müvafiq orqanlar V.Oskanyanın son 30 ildəki fəaliyyətini ciddi şəkildə araşdırmalıdırlar.

Hakim partiyadan olan digər deputat Gevorq Papoyan isə deyib: "Sarkisyan və Oskanyan bizim siyasi zibilliyə göndərdiyimiz insanlardır. Onlar müharibənin carçılarıdır. Kim düşünür ki, biz onlara mandat verəcəyik? Biz avantüraya gedə, Oskanyana və Sarkisyana etibar edə bilmərik. Bu, Ermənistanın müstəqilliyinin itirilməsi demək olar. Onların bəyanatları siyasi zibillikdə olanların çarəsiz hərəkətlərdir", – Paşinyanın tərəfdarı bildirib.

Göründüyü kimi, V.Oskanyanın açıqlaması hayların özləri tərəfindən aralarında belə rədd edilir. Bu da gözlənilən idi. Çünki məhz oskanyanların, sarkisyanların və koçaryanların zamanında erməni xalqı olmazın müsibətlərə düçar edilib. Hayların onlara yenidən mandat verəcəyi heç ağlabatan deyil. Oskanyan isə "səlahiyyət, vəzifə" deyə-deyə qalacaq.

**Səxavət HƏMİD,**
**"Xalq qəzeti"**

# Madər Əliəsgər oğlu Musayev



**Azərbaycan ictimaiyyətinə ağır itki üz vermişdir. Tanınmış ictimai xadim, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Madər Əliəsgər oğlu Musayev 2023-cü il iyulun 14-də ömrünün 76-cı ilində vəfat etmişdir.**

Madər Musayev 1947-ci il noyabrın 26-da Bakı şəhərində anadan olmuşdur. O, 1975–1982-ci illərdə Moskva Kooperativ İnstitutunun Bakı filialının sənaye əmtəəşünaslığı və ticarətin təşkili fakültəsində ali təhsil almışdır.

Əmək fəaliyyətinə 1964-cü ildə Bakı şəhərində ticarət sahəsində başlayan Madər Musayev 1995-ci ilədək bu sahədə müxtəlif vəzifələrdə çalışmış, iri ticarət mərkəzlərinə rəhbərlik etmiş, ticarətin təşkili və təkmilləşdirilməsi işində mühüm xidmətlər göstərmişdir. O, uzun illər ərzində tutduğu vəzifələrdən asılı olmayaraq yüksək təşkilatçılıq qabiliyyəti nümayiş etdirmiş, insanlara münasibətdə həssaslığı və dərin məsuliyyət hissi sayəsində böyük hörmət və rəğbət qazanmışdır.

Madər Musayevin ictimai fəaliyyəti də zəngin olmuşdur. O, XII çağırış Azərbaycan Respublikası Ali Sovetinin və I–VI çağırışlar Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. Azərbaycan Respublikası Milli Məclisinin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin və İntizam komissiyasının üzvü kimi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşdırılması istiqamətində nailiyyətlərin əldə olunmasında Madər Musayevin xidmətləri təqdirəlayiqdir. O, həmçinin Türkiyə, Rusiya, İran, Pakistan, Səudiyyə Ərəbistanı, Tunis, Gürcüstan və Tacikistan parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvü olmaqla parlamentlərarası qarşılıqlı əməkdaşlığın inkişafına töhfələr vermişdir.

Madər Musayev milli dövlətçiliyə sədaqəti və xalqımızın adət-ənənələrinə xüsusi ehtiramı sayəsində çoxsaylı seçiciləri arasında həqiqi nüfuz sahibi olmuşdur. Xeyriyyəçilik fəaliyyəti onun ali insani keyfiyyətlərini xarakterizə edən başlıca cəhətlərdən idi.

Madər Musayevin ölkəmizin ictimai-siyasi həyatında fəal iştirakı daim lazımınca qiymətləndirilmiş və o, uzunmüddətli səmərəli fəaliyyətinə görə müstəqil Azərbaycan Respublikasının ali mükafatlarına layiq görülərək, 2007-ci ildə "Şöhrət", 2017-ci ildə "Şərəf" və 2022-ci ildə 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordenləri ilə təltif edilmişdir.

Tanınmış ictimai xadim, xeyirxah və səmimi insan Madər Əliəsgər oğlu Musayevin xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**İlham ƏLİYEV, Mehriban ƏLİYEVA,**
**Əli ƏSƏDOV, Sahibə QAFAROVA,**
**Samir NURİYEV, Eldar ƏZİZOV,**
**Ədalət VƏLİYEV, Əhliman ƏMİRASLANOV,**
**Ziyafət ƏSGƏROV, Hicran HÜSEYNOVA,**
**Eldar İBRAHİMOV, Eldar QULİYEV,**
**Ağalar VƏLİYEV**

# Beynəlxalq QHT-lər Arazdəyəndə metallurgiya zavodu tikilməsinə etiraz edir



**Ermənistan tərəfindən Arazdəyəndə tikiləcək metallurgiya zavodunun həm insanlara, həm də planetimizə potensial zərərli təsirlərinə və baş verə biləcək ekoloji fəlakətə etiraz olaraq bir sıra ölkələrin vətəndaş cəmiyyəti təşkilatları tərəfindən imzalanan bəyanata qoşulan beynəlxalq QHT-lərin sayı durmadan artır. Belə ki, iyunun 29-da müxtəlif ölkələrin 32 qeyri-hökumət təşkilatı tərəfindən imzalanmış bəyanatı dəstəkləyənlərin sayı artıq 70-ə yaxındır. Deməli, beynəlxalq ictimaiyyət də Ermənistanın qlobal ekoloji fəlakət törədə biləcəyindən narahatdır.**

Bəyanatda vurğulanır ki, Ermənistan və ABŞ-ın birgə layihəsi olan metallurgiya zavodu irimiqyaslı metallurgiya zavodunun yaradılması ilə İrəvan beynəlxalq səviyyədə qəbul edilmiş standart və prinsiplərə, xüsusən də Transsərhəd Kontekstdə Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi üzrə BMT-nin Avropa İqtisadi Komissiyası Konvensiyasında (Espo Konvensiyası) ifadə edilənlərə məhəl qoymadığını açıq şəkildə nümayiş etdirir.

Diqqətə çatdırılır ki, Azərbaycan tərəfinin razılığı olmadan sərhəddə belə bir zavodun tikintisi transsərhəd kontekstlərdə ətraf mühitə təsirin qiymətləndirilməsini nəzərdə tutan 1991-ci ildə qəbul olunmuş Espo Konvensiyasının kobud şəkildə pozulması deməkdir. Halbuki həmin sənədə uyğun olaraq, zavodun ətraf mühitə təsirinin hərtərəfli qiymətləndirilməsi aparılmalıdır. Tikinti ilə bağlı qiymətləndirmə sənədi Azərbaycanın müvafiq qurumları, ekoloji fəallar tərəfindən rayona yaxın ərazidə yaşayan qonşu azərbaycanlıların rəyi nəzərə alınmaqla nəzərdən keçirilməlidir. Eyni zamanda, belə bir zavodun tikintisi insanlara və planetimizə zərər verə bilər.

Bütün bunlar nəzərə alınaraq, QHT-lər BMT-nin Ətraf Mühit Proqramı, Ümumdünya Səhiyyə Təşkilatı, BMT-nin Ətraf Mühit üzrə Xüsusi Məruzəçisi və BMT-nin Zərərli Maddələr və İnsan Hüquqları üzrə Xüsusi Məruzəçisi kimi müvafiq beynəlxalq təşkilatları bu vəziyyətə reaksiya verməyə və müvafiq tədbirlər görməyə çağırırlar. Bildirilir ki, Ermənistanın davam edən ekoloji pozuntularına son qoyulmalıdır.

Bəyanatda, həmçinin Amerika Birləşmiş Ştatlarına bu riskləri qəbul etməyə və Arazdəyəndə adı çəkilən metallurgiya zavodunun tikintisinə dəstəyi dayandırmağa çağırış yer alır.

# Erməni qadın Azərbaycan sərhədçilərinə təşəkkür etdi



**Dünən Azərbaycanın Qarabağ bölgəsində yaşayan, tibbi yardıma ehtiyacı olan erməni əsilli vətəndaşlar BQXK-nın vasitəçiliyi və Azərbaycan dövlət qurumlarının nəzarəti altında Laçın sərhəd-keçid məntəqəsindən Gorus istiqamətində keçiblər.**

Azərbaycanlı həkimlərin sərhəd-keçid məntəqəsində olması və BQXK ilə əməkdaşlıq etməsi tibbi evakuasiya prosesinin təmin olunmasına kömək edib.

Yeri gəlmişkən, proses zamanı maraqlı mənzərə də yaşanıb. Yaşlı erməni qadın pasport yoxlamasına getmək üçün maşından düşəndə Azərbaycan sərhədçisi ona nəzakətlə "Siz qalın" deyib və ona növbədən kənar buraxılacağını bildirib.

Qadın maşına qaytarıldıqdan sonra "Sağ olun, uşaqlar, sağ olun" deyə Azərbaycan tərəfinə təşəkkür edib.

Xatırladaq ki, iyulun 14-də xarici işlər naziri Ceyhun Bayramov BQXK-nın Azərbaycandakı nümayəndəsi Draqana Koziçi qəbul edərkən BQXK-nın vasitəçiliyi ilə və tələblərə uyğun olaraq erməni sakinlərin tibbi məqsədlərlə Laçın sərhəd-keçid məntəqəsindən keçidinin davam etməsinin mümkünlüyünü bildirmişdi.

# Ermənistanda sabiq prezident Köçəryanın əmlakına həbs qoyulub



**Ermənistanın antikorrupsiya məhkəməsi sabiq prezident, Qarabağ canisi Robert Köçəryanın və onun 7 ailə üzvünün əmlakına həbs qoyub.**

Bu barədə Ermənistan Baş Prokurorluğunun mətbuat xidməti məlumat yayıb. Məhkəmə müvafiq qərarı Baş Prokurorluğun qanunsuz mənşəli əmlakın müsadirəsi üzrə idarəsinin müraciətinə əsasən qəbul edib.

Baş Prokurorluğun məlumatına görə, Köçəryanın və onun ailə üzvlərinin İrəvandakı 20 daşınmaz əmlakı, 2 avtomobili, 18 yerli və xarici şirkətdəki səhmləri, qiymətli kağızları və 1,5 milyon dollarlıq əmanəti qanunsuz hesab olunur. Müsadirə olunan əmlakın siyahısına 22 milyard dram (təxminən, 57 milyon dollar) qanunsuz mənşəli vəsaitlər də daxildir.

**"Xalq qəzeti"**

# Əsgər ölümü ilə bağlı cinayət işi açılıb



**Hərbi Prokurorluğun mətbuat xidmətindən bildirilib ki, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin hərbi qulluqçusu, əsgər Hüseynov Nurəddin Sahib oğlunun ölüm faktı barədə Gəncə Hərbi Prokurorluğuna daxil olmuş məlumat əsasında hadisə yerinə və meyitə baxış keçirilib və digər hərəkətlər icra edilib.**

Fakt üzrə CM-nin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanılaraq şahidlər dindirilib, müvafiq ekspertizalar təyin edilib və təxirəsalınmaz zəruri istintaq hərəkətləri həyata keçirilib. Hazırda istintaq davam etdirilir.

# Azərbaycanın gəlirləri xərclərindən çox, xarici borcundan isə 10 dəfə artıqdır

## Son 20 ildə valyuta ehtiyatları 65 milyard dollara çatmışdır

**Prezident İlham Əliyev iyulun 11-də cari ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunan müşavirədəki çıxışında ölkəmizin xarici dövlət borcunun idarə edilməsi istiqamətində həyata keçirilən tədbirlərin daim diqqətdə saxlanıldığını, bunun nəticəsində qarşıya qoyulan məqsədlərə nail olunduğunu bildirib.**

Ölkə rəhbəri daha sonra deyib: "Mütləq rəqəmlərdə bizim borcumuz cəmi 6,7 milyard dollardır və bu da ümumi daxili məhsulumuzun, təxminən, 10 faizini təşkil edir. Əlbəttə ki, ümumi daxili məhsulumuzun son rəqəmləri ilin sonunda hesablanacaq. Ancaq indi də proqnoz vermək mümkündür. Birinci 6 ayda ümumi daxili məhsul 60 milyard manatdan çox təşkil etmişdir". Belə bir mühüm uğur isə təsadüfən əldə olunmayıb. Bu, son 20 ildə iqtisadiyyatın 3 dəfədən çox artması, valyuta ehtiyatlarının 65 milyard dollara çatması, ümumi daxili məhsulun nominal həcminin 22 dəfə artaraq 133,8 milyard manata yüksəlməsi, əhalinin gəlirlərinin 13,7 dəfə çoxalması kimi əhəmiyyətli göstəricilər sayəsində reallaşıb.




Ümumiyyətlə, həmin dövr ərzində uğurla həyata keçirilən islahatlar nəticəsində Azərbaycan dünyanın ən dinamik inkişaf yolu keçən iqtisadiyyatı olan ölkəsi kimi tanınıb, müstəqil dövlətimiz özünün nadir iqtisadi inkişaf modelini təqdim edib. Ölkənin maliyyə imkanları tarixi maksimuma çatdırılıb. Azərbaycan Cənubi Qafqazın və ətraf dövlətlərin iqtisadi coğrafiyasını dəyişdirməyə qadir olan möhtəşəm layihələrin təşəbbüskarı missiyasını qətiyyətlə öz üzərinə götürüb.

Ötən illər ərzində iqtisadiyyatın orta artım tempi dünya üzrə orta səviyyədən 4 faiz yüksək olub və Azərbaycan yuxarı orta gəlirli ölkəyə çevrilib. Neft gəlirləri uğurla sosial-iqtisadi inkişafa transformasiya edilib, iqtisadiyyatın fiziki və texnoloji infrastrukturu tamamilə müasirləşib. Sürətli artım sayəsində əhalinin həyat səviyyəsi əhəmiyyətli şəkildə yüksəlib, yoxsulluq səviyyəsi xeyli azalıb.

Bu müddətdə regiondakı liderlik mövqeyini davamlı şəkildə möhkəmləndirən Azərbaycan özünü etibarlı tərəfdaş kimi təsdiq edə bilib, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri qovşağına çevrilib. Beləliklə, Prezident İlham Əliyevin qarşıya qoyduğu müasir dövlət, dayanıqlı iqtisadiyyat və inklüziv cəmiyyət hədəfləri artıq günümüzün reallığına çevrilib.

İndiki bu cür sosial-iqtisadi şərait və dövlətimizin başçısının uğurlu siyasəti isə təbii ki, xarici dövlət borcunun səmərəli idarə edilməsinə əlverişli şərait yaradıb. Maliyyə Nazirliyinin məlumatına görə, hökumət 2023-cü ilin dövlət büdcəsində dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı 1005,0 milyon manat məbləğində xərclər nəzərdə tutub.

Xarici borclanma hesabına icrası davam etdirilən layihələr çərçivəsində vəsait istifadələri üzrə təqdim edilmiş məlumatlara əsasən, hazırda yuxarıda vurğulandığı kimi, birbaşa xarici dövlət borcunun səviyyəsi ümumi daxili məhsuldan 10 dəfə azdır.

Daxili dövlət borcalmasının həcminin artırılması, dövlət qiymətli kağızlar bazarının inkişafının dəstəklənməsi, dövlət borcunun orta və uzunmüddətli gəlirlik əyrisinin formalaşdırılması və "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya"sına uyğun olaraq xarici borcun daxili borcla əvəzlənməsi istiqamətində məqsədyönlü borclanma siyasətinin həyata keçirilməsi nəticəsində 2022-ci ilin sonu ilə müqayisədə birbaşa daxili dövlət borcunun səviyyəsi mütləq ifadədə 180,5 milyon manat məbləğində artmaqla aprelin 1-nə 4368,7 milyon manat təşkil edib.

"Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya"sı haqqında danışarkən, bir mühüm məqamı xüsusi qeyd etmək istərdim. Belə ki, adı çəkilən sənəddə istifadə olunan bir sıra makroiqtisadi göstəricilər, o cümlədən, ümumi daxili məhsul və manatın ABŞ dollarına qarşı məzənnə göstəriciləri ortamüddətli dövr üçün (2022–2025) qəbul edilmiş makrofiskal çərçivəyə əsaslanır.

Eyni zamanda, sözügedən strategiyada dövlət borcalmaları üzrə müəyyənləşdirilən strateji məqsədlərə çatmaq üçün bir sıra prioritet tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Onlar sırasında 2022–2025-ci illər üzrə dövlət borcunun ümumi daxili məhsula nisbətinin yuxarı həddinin 2025-ci ilin sonunadək 20 faizdən aşağı səviyyədə saxlanılması diqqət çəkir. Eyni zamanda, xarici dövlət borcunun ümumi daxili məhsula nisbətinin 10 faizə çatdırılması qarşıya mühüm vəzifə kimi qoyulur və yenilənən strategiya həmin məqsədə çatmaq üçün 2025-ci ilədək gerçəkləşdiriləcək tədbirləri əhatə edir.

Bu məqamda Maliyyə Nazirliyinin məlumatına əsaslanaraq qeyd edək ki, 2022–2025-ci illər üzrə yenilənən strategiyada ortamüddətli dövr ərzində dövlət büdcəsi qarşısında makroiqtisadi sabitliyə xələl gətirilməməsi, büdcənin gəlir və xərclərinin ahəngdarlığının təmin edilməsi, habelə tədiyə balansının tarazlığının pozulmasının qarşısının alınması, Dövlət Neft Fondunun aktivlərinin iqtisadi təhlükəsizliyinin qorunması, düşməndən təmizlənən ərazilərdə bərpa-quruculuq layihələrinin, habelə dövlətin əsas funksiyalarının (sosial təminat, səhiyyə, müdafiə, dövlət borcuna xidmət və s.) maliyyələşdirilməsi kimi bir sıra çağırışlar meydana gəlib. Elə buna görə də göstərilən illər üzrə yenilənən strategiya çərçivəsində xarici dövlət borcunun ümumi daxili məhsulda payının 2025-ci ilin sonuna 15 faizdən aşağı səviyyədə saxlanılması, növbəti dövrdə (2025–2030) isə 10 faizə çatdırılması qarşıya mühüm vəzifə kimi qoyulub.

**Vaqif BAYRAMOV,**
**"Xalq qəzeti"**

### Ekspert rəyi

**Vəkil HÜSEYNOV,**
**iqtisadçı-ekspert**



Azərbaycan həyata keçirilən uzaqgörən siyasət nəticəsində xarici dövlət borcu ilə əlaqədar davamlı şəkildə müsbət göstəricilər əldə edir. Bunun əsas səbəblərindən biri xarici dövlət borcunun daxili dövlət borcu ilə əvəzlənməsi, dövlət borcunun idarəsi üzrə strategiyanın uğurla gerçəkləşdirilməsidir.

Son illər xarici dövlət borcunun əhəmiyyətli şəkildə azaldılaraq 6,7 milyard dollar səviyyəsinə nail olunması və bu göstəricinin ümumi daxili məhsulun təxminən 10 faizini təşkil etməsi "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya"nın icrasının diqqət mərkəzində saxlanılmasının məntiqi nəticəsidir.

Bu məqamda xatırlatmaq yerinə düşər ki, "Fitch Ratings" kimi nüfuzlu beynəlxalq agentlik ölkəmizin xarici valyutada uzunmüddətli emitent defolt reytinqini müsbət proqnozla "BB+" səviyyəsində təsdiqləyib. Reytinq ölkəmizin çox güclü xarici balansı, müvafiq ölkələr qrupunda ən aşağı dövlət borcu və suveren fond aktivlərindən maliyyələşmə çevikliyi ilə dəstəklənib.

Azərbaycanın xarici dövlət borcunun davamlı olaraq azaldılması dövlətin beynəlxalq maliyyə institutlarından asılılığının minimuma enməsinə gətirib çıxarıb. Xarici borc əsasən dövlət istiqraz emissiyası vasitəsilə aşağı salınıb.

Respublikamızda istiqraz bazarı isə son illər sürətlə inkişaf etməkdədir və dövlətin bazarı stimullaşdırmaq üçün atdığı əhəmiyyətli addımlar əhalinin vəsaitlərini bu yöndə investisiya etməsinə imkan yaradır. Xarici dövlət borcunun Maliyyə Nazirliyinin istiqrazları vasitəsilə azaldılması da dövlət istiqrazları bazarına müsbət təsir göstərir. Fiziki şəxslərin bank depozitlərinin faiz gəlirlərinin vergiyə cəlb olunması isə əmanətçiləri bu bazara yatırım etməyə həvəsləndirir. Çünki dövlət istiqrazlarının faiz gəlirləri vergidən azaddır. Bank əmanətinə alternativ maliyyə aləti olan istiqrazların bir çox üstün konturları da var. Bank əmanəti vaxtından əvvəl götürülən zaman yığılan faizlər əmanətçiyə verilmir, lakin dövlət istiqrazlarına vəsaitini yerləşdirən əmanətçilər pullarını istədikləri vaxt yığılan vəsaitlə birlikdə geri götürə bilirlər.

## I yarımildə investisiyalar 10 faizdən çox olub

**2023-cü ilin yanvar-iyun aylarında Azərbaycanda əsas kapitala 7 milyard 148,3 milyon manat məbləğində, yaxud əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 10,4 faiz çox vəsait yönəldilib.**



Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 6 ayda neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 21,4 faiz, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 4,2 faiz artıb. İstifadə olunmuş vəsaitin 4 milyard 322,9 milyon manatı və ya 60,5 faizi məhsul istehsalı sahələrinə, 2 milyard 426,6 milyon manatı (33,9 faizi) xidmət sahələrinə, 398,8 milyon manatı (5,6 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunub. Əsas kapitala yönəldilmiş vəsaitlərin 5 milyard 208,9 milyon manatını və ya 72,9 faizini daxili vəsaitlər təşkil edib. Əsas kapitala yönəldilmiş vəsaitlərin 5 milyard 48,7 milyon manatı və ya 70,6 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub.

Komitənin məlumatına görə, əsas kapitala yönəldilmiş vəsaitin ümumi dəyərində müəssisə və təşkilatların öz vəsaitləri 48,6 faiz, büdcə vəsaitləri 33,8 faiz, əhalinin şəxsi vəsaitləri 7,2 faiz, bank kreditləri 3,4 faiz, sair vəsaitlər isə 7 faiz təşkil edib.

## Platformanın üst modulu Xəzərə yola salınıb

**"ATA ("Amec"-"Tekfen"-"Azfen") yard" sahəsində inşa edilmiş "Azəri-Mərkəzi-Şərqi" (ACE) platformasının üst modulu dənizdəki əməliyyat yerinə çatdırılması üçün "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) "STB-1" barjına yüklənib.**



"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"nin məlumatına görə, qurğunun barja yüklənməsi prosesi təhlükəsiz şəkildə yerinə yetirilib. ACE platformasının üst modulunun çəkisi 19 min 600 ton, hündürlüyü isə 36 metrdir.

Qeyd edək ki, "Azəri-Mərkəzi-Şərqi" layihəsində istismar olunması üçün ASCO-nun "STB-1" barjında ötən il zəruri modifikasiya işləri aparılıb. Barjın tələb olunan dərəcə üzrə sertifikasiyası yenilənib. Yeri gəlmişkən, Xəzər dənizinin ən böyük barjı sayılan "STB-1"in uzunluğu 163, eni 45 metr, göyərtəyə yükgötürmə qabiliyyəti isə 18 min tondur.

**"Xalq qəzeti"**

## Ölkəmizin xarici ticarət şəbəkəsi genişlənir

### Dünyanın 185 ölkəsi ilə idxal-ixrac əlaqələri qurulub

**Azərbaycanın dinamik iqtisadi inkişafının təmin olunması, rəqabətqabiliyyətli məhsulların istehsalının genişləndirilməsi, xüsusən də ölkəmizdə yaradılmış əlverişli biznes mühiti ticarət tərəfdaşlarımızın sayının getdikcə artmasına səbəb olur.**



Bu ilin 5 ayında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 185 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirib. Hesabat dövründə Azərbaycan dünyanın 106 ölkəsinə məhsul ixrac edib. Bununla yanaşı, 175 ölkədən müxtəlif növ mallar idxal olunub. Dövlət Statistika Komitəsinin məlumatına görə, gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2023-cü ilin yanvar-may aylarında ölkəmizin xarici ticarət dövriyyəsi 19 milyard 602,3 milyon ABŞ dolları təşkil edib. 2022-ci ilin yanvar-may ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 8,2 faiz azalsa da, real ifadədə 2,3 faiz artıb.

Hesabat dövründə xarici ticarət dövriyyəsinin 12 milyard 763,6 milyon dolları və ya 65,1 faizi ixracın, 6 milyard 838,7 milyon dolları və ya 34,9 faizi isə idxalın payına düşüb. Bunun da nəticəsində Azərbaycanın xarici ticarət dövriyyəsində 5 milyard 924,3 milyon dollar məbləğində müsbət saldo yaranıb. Yanvar-may aylarında idxal real ifadədə 11,1 faiz artıb, ixrac isə 0,5 faiz azalıb. Prezident İlham Əliyev 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədəki çıxışında Azərbaycanın xarici ticarət dövriyyəsində əldə olunmuş uğurları müsbət məqam kimi dəyərləndirərək deyib: "Bir çox ölkələrdə, hətta ölkələrin əksəriyyətində biz tamamilə başqa mənzərə görürük. Amma bizdə xarici ticarət balansımızın müsbət–yəni, profisiti çox böyük səviyyədədir. Ölkələrin böyük əksəriyyəti daha çox idxal edir, nəinki ixrac edir. Bizdə isə bu, tam əksinədir və ilin birinci altı ayında bizim profisitimiz, təqribən, 10 milyard dollara yaxındır. Əgər bu templər qorunsa, təsəvvür edin, biz ilin sonuna qədər hansı rəqəmlərə çatacağıq". Dövlətimizin başçısı, həmçinin ölkəmizdə makroiqtisadi sabitliyin təmin edilməsinin xarici ticarət dövriyyəsinin və tərəfdaşlarımızın sayının artmasına müsbət təsir göstərdiyini diqqətə çatdırıb.

Dövlət Statistika Komitəsi ölkəmizin əsas xarici ticarət tərəfdaşlarının da adlarını açıqlayıb. Belə ki, yanvar-may aylarında Azərbaycanın xarici ticarət dövriyyəsinin 33,1 faizi İtaliya, 15,6 faizi Türkiyə, 7,8 faizi Rusiya, 4,6 faizi Çin, 3,4 faizi Almaniya, hər biri 3,1 faiz olmaqla Hindistan və Yunanıstan, 3 faizi İspaniya, 2,8 faizi İsrail, 1,8 faizi Çexiya, hər biri 1,7 faiz olmaqla Gürcüstan, Türkmənistan və Rumıniya, 1,5 faizi Fransa, 1,2 faizi İrlandiya, 0,9 faizi İran, hər biri 0,8 faiz olmaqla Qazaxıstan, ABŞ və Avstriya, 10,6 faizi isə digər ölkələrlə aparılmış idxal-ixrac əməliyyatlarının payına düşüb.

Bu dövrdə Azərbaycanın ixrac əməliyyatlarının yarısından bir qədər az hissəsi (46 faiz) İtaliyanın payına düşüb. Bununla yanaşı, ilin ilk 5 ayında ölkəmizdən Türkiyə, Yunanıstan, İspaniya, İsrail, Hindistan, Rusiya, Çexiya, Almaniya, Gürcüstan, Rumıniya, Avstriya, Bolqarıstan, Xorvatiya, İndoneziya, Sinqapur, Vyetnam, Fransa və digər ölkələrə də müxtəlif növ məhsullar ixrac olunub. Bununla belə, mövcud ixrac əməliyyatları ölkəmizin iqtisadi potensialını tam əks etdirmir. Məhz buna görə də son illər Azərbaycan özünün ticarət tərəfdaşları ilə bu sahədə əlaqələrin daha da genişləndirilməsi istiqamətində səylərini artırır. Bu baxımdan dövlət rəhbərlərinin qarşılıqlı səfərləri, eləcə də hökumətlərarası iqtisadi komissiyaların birgə iclasları xüsusi əhəmiyyət kəsb edir.

Hesabat dövründə Azərbaycanın idxal əməliyyatları apardığı ölkələrin sırasında birinci yer Rusiyaya (19,3 faiz) məxsus olub. İlk üçlüyü Çin (14,7 faiz) və Türkiyə (14,1 faiz) tamamlayıb. Bununla yanaşı, göstərilən dövrdə ölkəmiz Almaniya, Türkmənistan, Fransa, İran, ABŞ, İtaliya, Yaponiya, Koreya, Qazaxıstan, Belarus, Birləşmiş Krallıq, Ukrayna, Braziliya, Polşa və digər ölkələrdən də məhsullar idxal edib.

Ölkəmizdə davam etdirilən çevik iqtisadi islahatlar, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən mühüm tədbirlər, eləcə də işğaldan azad olunmuş ərazilərimizin iqtisadi potensialının hərəkətə gətirilməsi qeyri-neft sektoruna bir dinamizm, inkişaf gətirib. Məhz bunun nəticəsidir ki, son illər Azərbaycanda qeyri-neft məhsullarının istehsalında artım müşahidə edilir. Bu da ixracın strukturunda qeyri-neft məhsullarının xüsusi çəkisinin artmasına səbəb olur.

Dövlət Statistika Komitəsinin məlumatında qeyd olunur ki, bu ilin ilk 5 ayında qeyri-neft-qaz məhsullarının ixracı əvvəlki ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə 22,1 faiz, real ifadədə isə 18,3 faiz artaraq 1 milyard 465,8 milyon dollar təşkil edib. Bu ilin yanvar-may ayları ərzində Azərbaycanın qeyri-neft məhsulları ixrac edən ölkələrin siyahısında isə ilk yerdə 31,7 faizlə qardaş Türkiyə qərarlaşıb. Sonrakı yerlər Rusiya (27,6 faiz), Gürcüstan (11 faiz), İsveçrə (3,6 faiz) və Qazaxıstana (3,3 faiz) aid olub. Bununla yanaşı, hesabat dövründə ölkəmizdən Türkmənistan, Ukrayna, İtaliya, Birləşmiş Ərəb Əmirlikləri, Özbəkistan, Belçika, Rumıniya, Çin və Almaniyaya da qeyri-neft məhsulları ixrac olunub.

2023-cü ilin yanvar-may aylarında təzə meyvə, təzə tərəvəz, kartof, şəkər, meyvə və tərəvəz şirələri, meyvə və tərəvəz konservləri, təbii üzüm şərabları və üzüm suslosu, marqarin, qida üçün yararlı digər qarışıqlar, polipropilen, polietilen, emal olunmamış alüminium, qara metallardan borular və sement klinkerlərin ixracında artım qeydə alınıb. Bununla belə, çay, tütün, bitki yağları, pambıq lifi, mineral gübrələr, pambıq ipliyi, qara metallardan çubuqlar, bentonit gili və qara metallardan yarımfabrikatların ixracı isə əksinə, azalıb.

Əvvəlki ilin 5 ayı ilə müqayisədə ölkəmiz xaricdən buğda, unlu qənnadı məmulatları, şokolad və şokolad məhsulları, quş əti və onun əlavə məhsulları, mal əti, siqaretlər, minik avtomobilləri, müxtəlif dərman vasitələri, polad prokatı, hesablama maşınları, blok və qurğuları, qara metallardan borular, rezin şinlər, sintetik yuyucu vasitələr, yük avtomobilləri, polietilen, mebellər, mineral gübrələr, qara metallardan çubuqlar, paltaryuyan maşınlar, polipropilen, qara metallardan künclüklər və məişət soyuducularının idxalını artırıb. Bitki yağları, xam şəkər, təzə meyvə, kərə yağı, digər süd yağları və pastaları çay, kartof, təzə tərəvəz, məişət kondisionerləri, avtobuslar və sement idxalında isə azalma qeydə alınıb.

**Mirbağır YAQUBZADƏ,**
**"Xalq qəzeti"**

**Mərhəmət və şəfqət dünyası**

**Prezident İlham Əliyev tərəfindən imzalanan yeni qanunvericilik aktları ilə Azərbaycanda himayədar ailə institutunun tətbiqinə başlanır. Dünyada geniş yayılmış təcrübələrdən biri olan "Himayədar ailə" qayğı modeli valideynlərini itirmiş, valideyn himayəsindən məhrum olmuş, valideynləri tərəfindən müəssisəyə qoyulmuş uşaqların qısa və ya uzun müddət ərzində dövlət nəzarəti altında ödənişli əsaslarla ailə mühitində böyüməsini nəzərdə tutur. Məqsəd həmin uşaqların ailə mühitində yaşamaları və inkişafına şərait yaratmaqdır.**

# "Atılmışlar" "himayədar ailə"nin doğmaları olacaqlar



Dövlət başçısının 2022-ci il 15 fevral tarixli Fərmanına əsasən, himayədar ailə sahəsində dövlət siyasəti, tənzimləmə və dövlət nəzarəti sahəsində səlahiyyətlər ötən ilin noyabr ayından Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə həvalə edilib. Himayədar ailə modelinin ölkəmizdə tətbiqi ilə bağlı nazirlik tərəfindən qabaqcıl dünya təcrübəsi, xüsusilə, Türkiyə təcrübəsi öyrənilməklə müvafiq işlər aparılıb. Övladlığagötürmə sahəsində olduğu kimi, himayədar ailə qayğı modeli üzrə müraciətlərin qəbulu və xidmətlərin idarə edilməsi də nazirliyin "Valideyn himayəsindən məhrum olmuş uşaqlar və övladlığagötürmə" altsistemi üzərindən həyata keçiriləcək. Bununla bağlı altsistemdə müvafiq təkmilləşdirmə işləri yerinə yetirilib.

Himayədar ailə nazirliklə himayədar valideyn olmaq istəyən şəxslər arasında uşağın himayədar ailəyə verilməsinə dair müqavilə əsasında yaranacaq. Belə ailənin yaranması 3 mərhələdə həyata keçiriləcək: 1–Himayədar valideyn olmaq istəyən şəxslər uçota alınır. 2– Himayədar ailəyə verilmənin uşağın mənafeyinə uyğunluğu müəyyən olunur. 3– Nazirlik ilə himayədar valideyn olmaq istəyən şəxslər arasında müqavilə bağlanır.

Qeyd edək ki, yetkinlik yaşına çatmış hər iki cinsdən evli və ya subay olan, ən azı, ümumi orta təhsilli və sağlamlıq vəziyyəti normal, ağır və ya xüsusilə ağır cinayətlərə görə məhkumluğu olmayan, ölkəmizdə daimi yaşayan Azərbaycan vətəndaşları himayədar valideyn ola bilər.

Uşaqların öz qohumlarına himayədar ailəyə verilməsi halı istisna olmaqla, ailədə adambaşına düşən orta aylıq gəlir ailə üzvlərinin hər biri üçün (himayədar ailəyə veriləcək uşaqlar istisna olmaqla) ölkə üzrə müəyyən olunmuş yaşayış minimumunun məbləğindən, yaşayış sahəsinin adambaşına düşən ümumi sahəsi isə qanunla müəyyən edilmiş yaşayış sahəsinin ayrılma normasından az olmamalıdır.

Himayədar valideyn olmaq istəyən nikahda olan şəxslərdən biri (ər və ya arvad) üçün aşağı yaş həddi 25, nikahda olmayanlar üçün 30 yaş müəyyən olunub. Nikahda olmayan şəxslə ona himayəyə verilən uşağın yaş fərqi 18-dən az olmamalıdır. 7 yaşına çatmış uşaq himayədar ailəyə onun fikri nəzərə alınmaqla, 10 yaşı tamam olmuş uşaq isə yalnız öz razılığı alındıqdan sonra himayədar ailəyə veriləcək.

Ailələrə himayəyə götürdükləri hər uşağın tərbiyə edilməsinə görə aylıq müavinət uşaqların yaşından və sağlamlıq vəziyyətindən asılı olaraq 355 – 435 manat arası məbləğlərdə müəyyən edilib. Həmin uşaqlara mövsümi geyim alınması üçün ailəyə birdəfəlik müavinət (hər rübdə 200 manat) də veriləcək.

Prezident İlham Əliyev tərəfindən imzalanan yeni qanunvericilik aktları ilə eyni zamanda, valideyn himayəsindən məhrum olmuş uşaqların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların müəssisələrdə yerləşdirilməsi, habelə həmin müəssisələri tərk etməsi ilə bağlı mövcud olan mexanizm təkmiləşdirilib. Belə ki, yeni qanunvericilik aktlarında valideyn himayəsindən məhrum olmuş uşaq barədə məlumat alındıqda uşağın və onun ailəsinin həyat şəraitini, valideyn himayəsindən məhrum olma səbəblərini müəyyən etmək məqsədilə ilkin və əsaslı qiymətləndirilmənin aparılması, ailə inkişaf planlarının tərtib olunması, ailəyə yönəlik sosial dəstək tədbirlərinin göstərilməsi və s. məsələlər əksini tapıb.

**Zərifə BƏŞİRQIZI,**
**"Xalq qəzeti"**

# Qarabağ və Şərqi Zəngəzura Qayıdış dövlətimizin prioritet vəzifəsidir

**Prezident, Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə rəşadətli Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələri üzərindəki dünyada əks-səda doğuran şanlı Zəfərdən sonra işğaldan azad olunmuş ərazilərdə sürətli inkişaf və bərpa dövrü başlanıb. Vətən müharibəsində şanlı Qələbə müjdəsini Azərbaycan xalqına çatdırmaq üçün tarixi müraciətində dövlətimizin başçısının "Məcburi köçkünlər yaxşı bilirlər ki, onların öz dədə-baba torpaqlarına qayıtması üçün biz əlimizdən gələni edəcəyik, işğaldan azad edilmiş bu torpaqları yenidən quracağıq" müdrik sözləri bu gün özünü açıq şəkildə büruzə verir. Qarabağda və Şərqi Zəngəzurda başlanan genişmiqyaslı bərpa-quruculuq işləri hazırda dunya ictimaiyyətinin də diqqətindən yayınmır. Bunu müxtəlif ölkələrin tanınmış şirkətlərinin yenidənqurma işlərində fəal iştirakı da təsdiqləyir.**



Otuz ilə yaxın müddətdə doğma ata-baba yurdlarına qayıtmaq həsrəti ilə yaşayan keçmiş məcburi köçkün soydaşlarımız üçün bu mühüm obyektlərin təməllərinin atılması, bəzilərinin isə artıq istifadəyə verilməsi Böyük Qayıdış proqramını reallığa çevirib. Prezident, müzəffər Ali Baş Komandanın yürütdüyü uğurlu və qətiyyətli siyasət, işğaldan azad edilən ərazilərimizdə sürətlə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri bu ərazilərin tezliklə Azərbaycanın çiçəklənən diyara çevriləcəyindən xəbər verir.



Bu ərazilərin tarixi simalarının qaytarılması, mədəni tarixi abidələrin bərpası, elektrik, su və yol xətlərinin çəkilməsi ilə bağlı başlanılan işlər böyük sürətlə davam edir. Prezident İlham Əliyevin tapşırığından irəli gələn bu ümdə vəzifələrin davam etdirilməsi üçün dövlət büdcəsindən 2,2 milyard manat vəsait də ayrılmışdı.

Xəbər verildiyi kimi, 2023-cü ilin "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Qanunda dəyişiklik edilib. Dəyişiklik zamanı işğaldan azad edilmiş ərazilərimizdə bərpa-tikinti işlərinin daha da sürətləndirilməsi üçün əlavə vəsait ayrılıb. Belə ki, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən tikinti, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi ilə bağlı xərclərin artımı üçün 2 miyard 260 milyon manat ayrılıb. Artımdan sonra bu xərc 5 milyard 260 milyon manat məbləğində olub.

**Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev dövlət büdcəsinə edilmiş dəyişikliklərlə əlaqədar dedi:**

– Məlum olduğu kimi, işğaldan azad edilən ərazilərin bərpası, keçmiş məcburi köçkünlərin bu torpaqlara qayıdışı, ümumiyyətlə, bu ərazilərdə əhalinin dayanıqlı məskunlaşması bu gün dövlətimizin qarşısında duran ən vacib vəzifələrdən biridir. Buna görə də dövlət büdcəsində həmin ərazilərdə bərpa və quruculuq işlərinə ayrılan vəsaitin həcminin artırılması təbiidir. Əminəm ki, ildən-ilə bu tendensiya davam edəcək.

Sevindirici haldır ki, Qarabağ və Şərqi Zəngəzurun bərpası üçün görülən işlərin nəinki həcmi, eyni zamanda, sürəti də artmaqdadır. Bunun da bir sıra səbəbləri var. Birincisi, Prezident İlham Əliyevin birbaşa nəzarəti altında minatəmizləmə üzrə işlər yüksək səviyyədə, sürətli şəkildə davam edir. Bundan başqa, dövlət başçısının təşəbbüsü ilə müxləlif proqramlar, planlar qəbul olunur ki, bunun nəticəsində konkret iş istiqamətləri müəyyənləşdirilir. Eyni zamanda, işğaldan azad edilmiş ərazilərdə infrastruktur məsələlərinin həll edilməsi, yeni yolların çəkilməsi, enerji təchizatının bərpa olunması görülən işləri daha geniş miqyasda aparmağa imkan verir.

Təbii ki, dövlətimizin imkanları da artmaqdadır. Makroiqtisadi göstəricilərə nəzər yetirsək görərik ki, dövlətimizin iqtisadiyyatı inkişaf etdikcə, gəlirlərimiz də artır. Bu isə bərpa və quruculuq işlərinə daha çox vəsait ayırmağa imkan verir.

R.Hacıyev bir məsələni də xüsusi qeyd etdi. Bildirdi ki, torpaqlarımızın işğaldan azad edilməsi humanitar fəlakətlə yanaşı, Qarabağda dağıntıların miqyasının necə böyük olmasını, yüzlərlə yaşayış məntəqəsinin və minlərlə tikilinin erməni işğalçıları tərəfindən yer üzərindən, demək olar ki, tamamilə silindiyini də üzə çıxardı. Vurulan zərər yalnız maddi obyektlərlə, tarixi abidələrlə və memarlıq inciləri ilə məhdudlaşmır. Təbii sərvətlərin amansızcasına istismar olunması, meşələrin qırılması, çay və göllərin çirkləndirilməsi nəticəsində ətraf mühitə böyük ziyan dəyib.

Cənab Prezidentin də dəfələrlə qeyd etdiyi kimi, Azərbaycan bütün bu işləri öz gücü, imkanları hesabına edir. Nəyin bahasına olursa-olsun, dövlətimiz qarşısına qoyduğu məqsədlərə çatacaq və işğaldan azad edilən ərazilərini bərpa edəcək. Ancaq dövlətin yükünü azaltmaq, bərpa prosesini sürətləndirmək üçün bu prosesdə vətəndaşların da iştirakı çox vacibdir. Buna görə də Vətən müharibəsində olduğu kimi, cəmiyyət, xalq olaraq həmrəylik göstərməli, işğaldan azad edilmiş ərazilərimizin bərpasında hər birimiz yaxından iştirak etməliyik.

Nəzərinizə çatdırım ki, Azərbaycan Respublikası Prezidentinin 4 yanvar 2021-ci il tarixli Fərmanı ilə yaradılan Qarabağ Dirçəliş Fondu işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması, dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyinin göstərilməsini və sərmayələrin cəlb edilməsini, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişaf etdirilməsini, habelə ölkə daxilində və xaricində zəruri təşviqat işlərini həyata keçirən publik hüquqi şəxsdir.

"Fond Qarabağın bərpası kimi ülvi bir amal uğrunda birləşən vətəndaşlarımız üçün bu işlərə töhfə vermək məqsədilə kifayət qədər geniş imkanlar yaradıb. Hər kəs fonda ianə etməklə işğaldan azad olunan torpaqlarımızın bərpasına və inkişafına öz töhfəsini verə bilər" – deyə R.Hacıyev bildirdi.

**Ə.BƏDƏLOV,**
**"Xalq qəzeti"**

# Tibb müəssisələrində optik şəbəkə infrastrukturu yaradılır

**Davamlı və sürətli data mübadiləsinin aparılması üçün Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) tabeliyində fəaliyyət göstərən və Bakı Baş Səhiyyə Mərkəzinin strukturuna daxil olan tibb müəssisələrinə optik xətlər çəkilir, müasir elektron tələblərə cavab verən tam yeni infrastruktur qurulur.**




### Sənədləşmə işləri rəqəmsallaşdırılır

Bakı Baş Səhiyyə Mərkəzindən aldığımız məlumata görə, ilkin mərhələdə artıq 30-dan çox tibb müəssisəsində bu proses yekunlaşıb və növbəti mərhələdə 70-ə yaxın tibb müəssisəsində işlərin davam etdirilməsi nəzərdə tutulur.

Görülən bu tədbirlərin əsas məqsədi TƏBİB-in tabeliyində fəaliyyət göstərən tibb müəssisələrində kağız daşıyıcılar üzərində olan bütün sənədləşmə işlərinin rəqəmsallaşdırılmasıdır.

### Vətəndaşların işi asanlaşır

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin dəstəyi ilə həyata keçirilən bu prosesin sonunda tabeli tibb müəssisələri agentliyin İnformasiya Texnologiyaları və İnnovasiyalar İdarəsinin vahid bazası ilə davamlı data mübadiləsi, müəssisələrarası şəbəkə əlaqəsi və kəsintisiz internetlə tam təmin ediləcək.

Proses yalnız optik xətlərin çəkilməsi ilə yekunlaşmır, sonrakı mərhələdə müəssisələrin daxili şəbəkə infrastrukturu da tam yenidən qurulacaq və bu da, öz növbəsində, həm müəssisələrin əməkdaşlarının, həm də vətəndaşların işlərini xeyli asanlaşdıracaq.

### Etibarlı nəzarət imkanı

Mərkəzdən o da bildirilib ki, optik xətlərin çəkilməsinin digər üstün cəhətlərindən biri də asan idarəetmənin həyata keçirilməsidir. Belə ki, bütün tibb müəssisələrində optik infrastruktur qurulduqdan sonra məlumat təhlükəsizliyinin qorunması məqsədilə onların elektron sistemlərə giriş-çıxışına və eləcə də data məlumatlara nəzarətin həyata keçirilməsinə etibarlı imkan yaradılacaq.

### Vaxt itkisi azalır

Ölkə əhalisinin tibbi xidmətlərə əlçatanlığının təmin edilməsi, göstərilən tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə həyata keçirilən bu tədbirlər ilkin səhiyyə xidmətlərinin göstərilməsində əlavə vaxt itkisinin qarşısının alınmasına, habelə, vətəndaş məmnunluğunun təmin olunmasına imkan verəcək.

**Z.BƏŞİRQIZI, "Xalq qəzeti"**



# 100 fiziki qüsurlu gəncə sosial xidmətlər göstərilir

**Sosial Xidmətlər Agentliyi Əlillərin Peşə-Əmək Reabilitasiyası Mərkəzində hazırda 100 fiziki qüsuru olan gəncə peşə reabilitasiya və digər sosial xidmətlər göstərilir. Onlardan bir qismi müharibə əlilləridir.**

Müasir tələblərə uyğun şəraitin yaradıldığı mərkəzdə 15–29 yaşlı əlilliyi olan şəxslərin peşə hazırlığı və peşə reabilitasiyası həyata keçirilir. Burada kompüter istifadəçisi, montaj-operator, tikişçi, toxuculuq, xalçaçılıq, ağac üzərində oyma, kişi bərbəri, qadın bərbəri, aşbaz köməkçisi və rəssamlıq üzrə 3–6 aylıq kurslar təşkil olunur.

Mərkəzə qəbul olunan gənclər burada dövlət hesabına yataqxana, yemək, sosial-psixoloji və tibbi-sosial xidmətlərlə təmin olunur, peşə kursları ilə yanaşı, musiqi, dizayn dərnəklərinə, stolüstü oyunlar, paralimpiya idman məşqlərinə də cəlb edilirlər.

**"Xalq qəzeti"**

# Gender əsaslı zorakılıq qurbanlarına dəstək



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində BMT-nin Əhali Fondunun (UNFPA) Azərbaycan nümayəndəliyi ilə görüş keçirilib. Söhbət zamanı qadınlara qarşı zorakılıqla mübarizə üzrə BMT-nin Əhali Fondunun qlobal proqramı çərçivəsində nazirliklə birgə fəaliyyət müzakirə edilib.**

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Hidayət Abdullayev nazirlik və BMT-nin Əhali Fondu arasında uğurlu əməkdaşlıq təcrübəsini, icra olunan birgə layihələrin əhəmiyyətini vurğulayıb. O, ölkəmizdə həssas qrupların, həmçinin gender əsaslı zorakılıq qurbanlarının sosial dəstəklə təmin olunması sahəsində aparılan işləri diqqətə çatdırıb.

Görüşdə Sosial Xidmətlər Agentliyinin Həssas Əhali Qrupları üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsində 2 il əvvəl yaradılmış məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial reabilitasiyası şöbəsinə qəbul olunanların müvafiq dəstəklə əhatə olunduğu qeyd edilib.

BMT-nin Əhali Fondunun Azərbaycandakı nümayəndəliyinin rəhbəri Fərid Babayev qadınlara qarşı zorakılıqla mübarizə üzrə qlobal proqramın önəmini və müvafiq sahədə görülən işlərə mühüm dəstək məqsədi daşıdığını bildirib.

Görüşdə gender əsaslı zorakılıq qurbanlarına dəstək göstərilməsi sahəsi üzrə kadr potensialının artırılması və mövcud sistemin təkmilləşdirilməsi yolu ilə zorakılıq qurbanlarının keyfiyyətli xidmətlərlə təmin edilməsi məqsədilə BMT-nin Əhali Fondunun qlobal proqramı çərçivəsində görüləcək birgə işlər müzakirə olunub.

**Z.HÜSEYNOVA,**
**"Xalq qəzeti"**

# Naxçıvan "yaşıl enerji" diyarına çevrilir

## *Dövlət başçısının qarşıya qoyduğu bu hədəf uğurla gerçəkləşdirilir*

**Prezident İlham Əliyevin sədrliyi ilə cari ilin birinci yarısının sosial-iqtisadi yekunlarına həsr olunan müşavirədə dövlət başçısı hesabat dövründə ölkəmizdə həyata keçirilən tədbirlərdən bəhs edərkən Naxçıvan Muxtar Respublikasının gələcək inkişafı ilə bağlı məsələyə də toxunaraq bildirib ki, bu yaxınlarda muxtar respublikanın gələcək inkişafı ilə bağlı Dövlət Proqramı qəbul olunub.**



Bu, Naxçıvanın uğurlu sosial-iqtisadi potensialını qısa müddət ərzində reallaşdıra biləcək proqramdır. Ölkə rəhbəri həmin proqramın tam icra ediləcəyinə əminliyini vurğulayaraq sənədin öz resurslarımıza əsaslanaraq qəbul edildiyini diqqətə çatdırıb.

Xatırladaq ki, Prezident İlham Əliyevin sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının 2023-2027-ci illər üçün sosial-iqtisadi inkişafı haqqında Dövlət Proqramı" bu il iyunun 5-də təsdiqlənib. Bu sənəd indiyədək muxtar respublikada həyata keçirilən dövlət proqramları içərisində daha mükəmməl hazırlanma mexanizmi və əhatəliliyi ilə seçilir. Belə ki, proqramın hazırlanması üçün cari ilin əvvəllərindən muxtar respublikada bir çox sahələr ciddi təhlil olunub, mövcud vəziyyət yerində araşdırılaraq qiymətləndirilib və bütün bunların əsasında məqsədyönlü qərarlar verilərək qarşıdakı hədəflər müəyyənləşdirilib.

Bununla bərabər, proqramın hazırlanmasında mühüm amillərdən biri gələcək hədəflərin müəyyənləşdirilməsində GZİT (Güclü və zəif tərəflər, İmkanlar və təhlükələr) təhlilindən istifadə olunub. Bu təhlil proqramda qarşıya qoyulan tapşırıqların icrasında ayrı-ayrı sahələrin mövcud vəziyyəti nəzərə alınaraq müvafiq addımlar atılmasına imkan verib. Ümumilikdə isə bəhs olunan Dövlət Proqramında 11 istiqamət prioritet olaraq seçilib. Bunlar əlverişli biznes mühitinin yaradılması, ticarətin, ixracyönümlü sənayenin, kənd təsərrüfatı məhsulları istehsalının və emalının, turizmin inkişafı, elektrik enerjisi istehsalının və ixracının artırılması, infrastruktur təminatının, sosial sektorun, insan kapitalının inkişafı, institusional inkişaf və ətraf mühitin mühafizəsinin gücləndirilməsidir.

Ölkə başçısının müşavirədə səsləndirdiyi mühüm fikirlərdən biri də bu idi ki, Naxçıvanın da Qarabağ və Şərqi Zəngəzur kimi "yaşıl enerji" zonasına çevrilməsi qarşıya mühüm məqsəd kimi qoyulub: "Naxçıvanın da Qarabağ və Şərqi Zəngəzur kimi "yaşıl enerji" zonasına çevrilməsi məsələsi mənim tərəfimdən qoyulmuşdur. Naxçıvan Muxtar Respublikasında elektrik enerjisinin böyük hissəsi indi su elektrik stansiyaları vasitəsilə istehsal olunur. Orada günəş və külək elektrik stansiyalarının inşası nəzərdə tutulur – ola bilər 1000 meqavat, ola bilər 1500 meqavat. Biz həm muxtar respublikanın bütün tələbatını "yaşıl enerji" ilə təmin edəcəyik, həm də qonşu ölkələrə "yaşıl enerji"ni ixrac edəcəyik".

Hesablamalara görə, Naxçıvanın, eləcə də Qarabağ və Şərqi Zəngəzurun bərpa olunan enerji mənbələri üzrə ümumi texniki potensialı 15 qiqavat təşkil edir. Bunu da vurğulayaq ki, əgər Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji" zonasına çevrilməsi layihəsi Vətən müharibəsindən sonra qəbul olunsa da, Naxçıvanın energetika sisteminin, xüsusilə bərpaolunan enerji mənbələri hesabına qurulması konsepsiyası dövlət başçımızın prezidentlik fəaliyyətinin ilk illərindən qarşıya əsas məqsəd kimi qoyulub. Hələ 2004-cü ildə qəbul olunan "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı"na əsasən, enerji təminatı sahəsində resursəvəzləyici potensial əldə olunması strategiyası həyata keçirilir. Həmin proqramda qeyd edilir ki, Naxçıvan Muxtar Respublikasının enerji sisteminin ölkənin əsas enerji sistemi ilə əlaqəsinin olmadığını nəzərə alaraq, ilk növbədə, muxtar respublikada orta, kiçik, mikro su elektrik stansiyalarının tikilməsi daha məqsədəuyğundur. Bu işin təşviqi olaraq bərpa olunan enerji mənbələrinin hasilatı üçün texnoloji avadanlıqların istehsalı muxtar respublikada qurulmalıdır.

Ötən dövrdə bu sahədə ciddi addımlar atılıb, müxtəlif həcmli enerji istehsal edən obyektlər istifadəyə verilib. Xüsusilə, 2006-cı ildə Şahbuz rayonunda Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə su elektrik stansiyası, 2010-cu ildə Ordubad rayonunda Gilançay üzərində 22 meqavat gücündə Biləv Su Elektrik Stansiyası, 2014-cü ildə Şərur rayonunda 20,5 meqavat gücündə "Arpaçay-1" və 1,4 meqavat gücündə "Arpaçay-2" su elektrik stansiyaları istifadəyə verilməsi muxtar respublikanın energetika sisteminin yaxşılaşdırılmasına öz töhfəsini verib. Növbəti illərdə isə bu işlərin davamı olaraq Babək, Kəngərli və Şərur rayonlarında müxtəlif gücə malik Günəş, Culfa rayonunda isə külək elektrik stansiyalarının istismara verilməsi muxtar respublikada bərpaolunan enerji mənbələrində enerji istehsalının həcmini xeyli yüksəldib.

Bu il fevralın 3-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində keçirilən nazirlərin 9-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclasında çıxışı zamanı Prezident İlham Əliyevin Naxçıvanın "yaşıl eneji" potensialına xüsusi olaraq toxunması və muxtar respublikada ən azı 500 meqavatlıq günəş elektrik stansiyasının tikintisi ilə bağlı fikirləri isə bu qədim Azərbaycan diyarının mövcud enerji potensialından istifadəni daha da aktuallaşdırıb. Ötən dövrdə bununla bağlı yaradılan işçi qrupunun qiymətləndirmələrinə görə, muxtar respublikada təxminən 8 min hektardan çox ərazinin bərpaolunan enerji mənbələri stansiyalarının tikilməsi üçün tam şəkildə yararlı olması görüləcək işlərin həcmini təsəvvür etməyə imkan verir. Bu sahədə işlərin davamı kimi ötən ay Bakı Enerji Həftəsi çərçivəsində Naxçıvan şəhərində xüsusi sessiyanın keçirilməsi də təsadüfi deyildi. Sessiyanın gedişində "Total Energies" və "Nobel Energy Management" şirkətləri ilə ümumi gücü 900 meqavat olan günəş və külək enerjisi layihələri üzrə əməkdaşlıq sənədlərinin imzalanması, həmin gücün 650 meqavatının məhz Naxçıvanda yaradılmasının nəzərdə tutulması yaxın gələcəkdə Naxçıvanın "yaşıl enerji" şəbəkəsini xeyli genişləndirəcək.

Həyata keçirilən tədbirlərin mahiyyətində həm də bu durur ki, Naxçıvan Azərbaycanın energetika sisteminə inteqrasiya etməklə, ölkəmizin digər bölgələrində, xüsusilə Qarabağ və Şərqi Zəngəzurda istehsal olunan "yaşıl enerji"nin də ixracat qovşağına çevrilir. Təsadüfi deyil ki, "Cəbrayıl" enerji qovşağının yaradılması elektrik enerjisinin Zəngəzur dəhlizi vasitəsilə Naxçıvana, oradan Türkiyəyə, sonra isə Avropaya ötürülməsinə imkan yaradacaq. Bununla da, Naxçıvan "yaşıl enerji"nin istehsalı və istehlakı ilə bərabər, həm də ixracında əsas marşruta çevriləcək. Bütün bunlar isə muxtar respublikanın hərtərəfli inkişafında mühüm rol oynayacaq.

***Səbuhi HƏSƏNOV,***
***"Xalq qəzeti"nin müxbiri***

**Naxçıvan**

**Bu gün Qazax rayonunda abadlıq-quruculuq işləri ilə yanaşı, iqtisadiyyatın bir çox sahələri də əvvəlki illərə nisbətən nəzərəçarpacaq dərəcədə inkişaf edib. Taxılçılıq, tərəvəzçilik, əvvəlki şöhrəti bərpa olunan baramaçılıq və digər sahələrə diqqət artırılıb. Nəticədə göstəricilər ilbəil yaxşılaşır. Doğrudur, elə sahələr var ki, havaların əlverişsiz keçməsi məhsuldarlığa əməlli-başlı mənfi təsir edir. Lakin qazaxlı fermerlər qətiyyən ruhdan düşmür, bütün imkanlardan maksimum yararlanmağa çalışırlar.**

# Qazax: gəlirlər artdıqca güzəran da yüksəlir

## *Həm bol məhsul yetişdirilir, həm də rayonun abadlığına diqqət yetirilir*



Cari il Qazax rayonunda 11 min 854 hektar sahədə taxıl əkilib ki, bunun da 5 min 243 hektarı buğda, 6 min 611 hektarı arpa sahəsidir. Artıq neçə vaxtdır ki, rayonda taxıl biçininə başlanılıb. Aqrotexniki tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinin nəticəsidir ki, zəmilərdən bol məhsul yığılır. Biçinin mütəşəkkil keçirilməsi və optimal müddətdə başa çatdırılması, biçin zamanı təhlükəsizlik tədbirləri ilə bağlı bütün hazırlıq işləri görülüb, texnikalar saz vəziyyətə gətirilib.

Biçinlə əlaqədar sahələrə 32 ədəd kombayn cəlb edilib. Lazım gəldikdə onların sayı artırılır. Bugünə kimi, əkilən 5 min 243 hektar buğda sahəsinin təxminən yarısından çoxunda biçin aparılıb. Hələlik hər hektardan orta məhsuldarlıq 35 sentner təşkil edir ki, bu da yuxarıda qeyd etdiyimiz kimi, təbiətin şıltaqlığı ilə bağlıdır.

Son illər Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq ölkəmizdə kənd təsərrüfatının ənənəvi və ixracyönümlü sahələrindən olan baramaçılığın inkişaf etdirilməsi istiqamətində mühüm addımlar atılır.

"Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında ölkə Prezidentinin 27 noyabr 2017-ci il tarixli sərəncamı da məhz ölkəmizdə baramaçılığın inkişaf etdirilməsinə xidmət edir. Sözügedən sərəncamdan irəli gələn vəzifələrin icrası ilə əlaqədar respublikamızın hər yerində olduğu kimi, Qazax rayonunda da baramaçılığın keçmiş şöhrətinin qaytarılması istiqamətində məqsədyönlü işlər görülür, ipəkçiliyin müasir infrastrukturu yaradılır, yeni tut bağları salınır.

Artıq səkkizinci ildir ki, Qazaxda ipəkqurdu bəslənilir. Rayon icra hakimiyyətinin unudulan bu sahənin inkişafı üçün gördüyü tədbirlər–adamlar arasında aparılan izahat–təbliğat işləri, onlara yaradılan şərait, tut tingləri sahələrinin artırılması və digər texniki–təşkilati işlər öz müsbət səmərəsini verməyə başlayıb. Rayonda neçə illərdir ki, baramaçılıqda nəzərdə tutulan öhdəliklərə artıqlamasilə əməl olunur. Adamlar özləri də etiraf edirlər ki, gəlirli sahədir, dolanışıqları xeyli yaxşılaşıb, mövsümi də olsa iş yerləri yaranıb…

Bu il də vəziyyət yaxşıdır. Cari ilin barama mövsümü üçün kümçülər tərəfindən 3200 kiloqram yaş baramanın istehsalı nəzərdə tutulub ki, o da uğurla icra olunub. İkinci Şıxlı, Birinci Şıxlı, Yuxarı Salahlı, Aslanbəyli, Kəmərli, Qaymaqlı, Aşağı Salahlı, Orta Salahlı, Kosalar, Hüseynbəyli, Çaylı, Daş Salahlı, Xanlıqlar, Alpout, Dəmirçilər, Cəfərli kəndləri üzrə 80 qutu ipəkqurdu toxumunu yetişdirən kümçülər yüksək fəallıq göstərərək artıq barama tədarükünü başa çatdırıblar. Cari mövsümdə 3 min 279,1 kiloqram barama tədarük olunub.

Bir məsələni də qeyd edək ki, istər icra strukturları, istərsə də Qazax Dövlət Aqrar İnkişaf Mərkəzi kümçülərin baramanı "Azəripək" MMC-yə təhvil vermələri üçün hər cür şərait yaradıblar.

"...Həm bol məhsul yetişdirək, həm doğma Qazaxı abadlaşdıraq". Bu, Qazaxda indi hər bir sakinin şüarına çevrilib. Rayonda aparılan abadlıq işləri, xüsusilə də ölkə başçısının tapşırığına əsasən "Azərsu" ASC tərəfindən Qazax şəhərinin içməli su probleminin həll olunması və bu işlər görüldükdən sonra prospekt və küçələrin asfaltlanması, səkilərə yeni tamet, bardür düzülməsi, qaz, elektrik, rabitə xətlərinin səliqəyə salınması ön plana çəkilib. Məqsəd Azərbaycanın "Qərb Qapısı" adlandırılan Qazaxın daha gözəl, abad bir rayona çevirməkdir.

Bu gün şəhərin 16 küçəsinə və Heydər Əliyev prospektinə qeyd olunan çəkilişlərdən sonra yeni asfalt örtüyü vurulub. Bundan əlavə 40-dan çox məhəllədə, "Hərbi şəhərcik" adlanan yaşayış massivindəki çoxmənzilli yaşayış binalarının həyətində "Abad məhəllə"lər yaradılaraq sakinlərin istifadəsinə verilib.

Rayonda aparılan abadlıq işləri bu gün də uğurla davam etdirilir. Şəhərin küçələrində, eləcə də çoxmənzilli yaşayış binalarının həyətində səliqə-sahman yaradılır, nəqliyyat vasitələrinin və vətəndaşların rahatlığını təmin etmək məqsədilə digər tədbirlər görülür. Hazırda Qazax şəhərində böyük küçələrdən olan Bakı küçəsinə yeni asfalt örtüyü vurulur.

Qeyd edək ki, görülmüş işlər sakinlər tərəfindən çox böyük razılıqla qarşılanır. Vətəndaşlar rayonda aparılan quruculuq və abadlıq işlərinə görə ölkə Prezidenti İlham Əliyevə hədsiz minnətdarlıq edirlər.

***H.ZEYNALOĞLU,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

# Kənd təsərrüfatı məhsullarına yeni bazarlar axtarılır



**Azərbaycanın kənd təsərrüfatı məhsullarının ixrac imkanlarını artırmaq məqsədilə Səudiyyə Ərəbistanının əsas satış marketlərindən olan "Tamimi" marketlər qrupunun nümayəndələri ilə görüşdə kənd təsərrüfatı nazirinin müavini Sarvan Cəfərov, nazirliyin nümayəndələri, eləcə də yerli meyvə və tərəvəz, ət və balıq istehsalçısı olan şirkətlərin əməkdaşları iştirak ediblər.**

Tədbirdə ölkəmizdə kənd təsərrüfatının inkişafı istiqamətində görülən işlər, fermerlərə yaradılan əlverişli şərait barədə qonaqlara ətraflı məlumat verilib, eyni zamanda, kənd təsərrüfatı məhsullarının istehsal və ixrac vəziyyəti barədə təqdimatlar edilib. Kənd təsərrüfatı məhsullarının ixrac potensialının yüksək olduğu qeyd olunub, dövlətin aqrar sahənin inkişafı üçün davamlı dəstək tədbirləri gördüyü, subsidiyalar ayırdığı vurğulanıb. Bildirilib ki, 2022-ci ildə 643,7 min ton həcmində kənd təsərrüfatı məhsulları ixrac edilib. Ən çox ixrac edilən kənd təsərrüfatı məhsulları xurma, pomidor, fındıq, nar, alma, kartof və çay olub.

Səudiyyə Ərəbistanının özəl sektor nümayəndələrinə respublikamızda mövcud şəffaf investisiya mühiti barədə də ətraflı məlumat verilib. Görüş zamanı bu dövlətin ən iri marketlər şəbəkəsinin nümayəndələri tərəfindən bu ölkənin satış bazarındakı vəziyyəti barədə məlumat verilib və Azərbaycan istehsallı məhsullara marağın böyük olduğu diqqətə çatdırılıb.

Səfər çərçivəsində şirkət nümayəndələrinin Abşeron və Quba-Xaçmazda yerləşən logistika mərkəzlərinə, meyvə bağlarına və istixanalara səfəri təşkil edilib.

***"Xalq qəzeti"***



# Biçindən sonra sahələri yandırmaq olmaz!

**Kənd Təsərrüfatı Nazirliyi məhsul istehsalçılarına müraciət edərək bildirir ki, taxıl sahələrinin biçindən sonra yandırılması yolverilməzdir. Bu addım həm ekoloji baxımdan, həm aqrotexniki qaydalar baxımından zərərlidir və torpağın münbitliyinin azalmasına, üzvi maddələrin, mikroflorasının məhv olmasına gətirib çıxarır.**

Daha sonra qeyd edilir ki, samanın yandırılması nəticəsində torpağa ziyan dəyir, faydalı mikroorqanizmlər məhv olur. Yanğın nəinki əkinə yararlı torpaqları, eləcə də meşə, meşəmühafizə zolaqlarını, əhalinin yaşadığı əraziləri və digər sahələri əhatə edir. Bu isə öz növbəsində ekoloji problemlərə gətirib çıxarır.

Bitki qalıqları müxtəlif üzvi maddələrin və qida elementlərinin ən vacib resurslarından biri hesab olunur. Onlarla düzgün və səmərəli davranmaq torpağın münbitliyini artırmaq, strukturunu, rütubət tutumunu yaxşılaşdırmaqla olduqca yüksək iqtisadi səmərə əldə etmək mümkündür. Günümüzün reallığıdır ki, ölkədə kənd təsərrüfatı məhsul istehsalçılarının az bir hissəsi hələ də əlavə material və əmək xərcləri tələb etdiyindən bitki qalıqları "gərəksizdir", "səmərəsizdir" və hətta "ziyanlıdır" kimi yalnış təsəvvürlərə malikdir. Kövşənliyin və digər bitki qalıqlarının yandırılması nəinki ciddi qanun pozuntusudur, həmçinin bitkinin qidalanması və inkişafı üçün lazım olan faydalı maddələrin məhv edilməsi deməkdir.

Torpağın flora və faunası bitki qalıqlarını parçalayaraq torpağın münbitliyinin artmasına, qida maddələrinin mübadiləsinə səbəb olur, torpağın strukturunu yaxşılaşdırır və suyun torpaqda daha asan hərəkət etməsinə, nəmliyin toplanmasına imkan verir. Taxıl sahələrinin biçindən sonra yandırılması isə torpaqdakı üzvi maddələrin itirilməsinə, torpaq mikroflorasının məhv edilməsinə, bütövlükdə torpaq münbitliyinin kəskin surətdə azalmasına gətirib çıxarır.

***"Xalq qəzeti"***

# Masallının bar-bərəkət günləri

**Bu il Masallı rayonunda 7 min 790 hektar sahədə buğda, 2 min 800 hektarda arpa yetişdirən taxılçıların nəticələri fərəhləndiricidir. Zəmilərdə məhsul yığımı başa çatıb. Rayonda 18 min 759,6 ton buğda tədarük edilib, hektarın məhsuldarlığı 24,3 sentnerə çatdırılıb. Arpa sahələrindən 6 min 216 ton məhsul əldə olunub, hektarın məhsuldarlığı isə 22,2 sentnerə yüksəlib.**



Rayonda qarğıdalı, günəbaxan, noxud, paxla, lobya, lərgə, mərci əkinlərinə də önəm verilir. Carı təsərrüfat ilində Masallıda 750 hektardan çox paxlalı bitkilər yetişdirilib.

Kartofçuluq da rayon iqtisadiyyatında mühüm yer tutur. Ötən illər bu sahədən yaxşı gəlir gətirən zəhmət adamları cari mövsümdə də müsbət nəticə gözləyirlər. Kartof ustaları 903 hektar sahədə əkin keçiriblər. Bir aydan çoxdur ki, sahələrin bol məhsulu fermerləri ruhlandırır. Sevindirici haldır ki, yığılan məhsul sahələrdə qalmır. Hər gün yüz tonlarla məhsul qonşu Rusiya şəhərlərinə yola salınır. Rayon statistika idarəsindən aldığımız məlumata görə, mövsümün əvvəlindən tarlalardan 15 min 892,8 ton kartof çıxarılıb.

Son illər Masallının iqtisadiyyatına daxil olan və məhsuldarlığı ilə fərqlənən sahələrdən biri də bostançılıqdır. Əvvəllər Sabirabad, Saatlı, İmişli və başqa rayonlardan gətirilən qarpız, yemiş, kudu məhsulları bu gün rayonun tarlalarından yığılıb bazarlara göndərilir.

Statistika idarəsindən aldığımız məlumata görə, bostançılar cari ilin məhsulu üçün 246 hektar sahədə yemiş, 60,5 hektarda qarpız yetişdiriblər. Cari mövsümdə 2 min tondan artıq bostan məhsullarının istehsal edilməsi bu sahənin getdikcə inkişafından xəbər verir.

***Əlihüseyn ŞÜKÜROV,***
***Masallıda çıxan "Yeni həyat" qəzetinin redaktoru***

# Vaqif Poeziya Günlərinin açılışı

**İyulun 14-də Şuşa şəhərində Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi önündə Vaqif Poeziya Günlərinin açılışı olub.**



Mərasimdə dövlət və hökumət nümayəndələri, respublikanın tanınmış elm və mədəniyyət xadimləri, Azərbaycan Yazıçılar Birliyinin üzvləri, gənc yazıçılar, şairlər iştirak ediblər.

Azərbaycan Yazıçılar Birliyi sədrinin birinci müavini, Xalq yazıçısı Çingiz Abdullayev bildirib: “Biz fəxr edirik ki, öz mövqeyindən dönməyən Nəsimi, Vaqif, Mikayıl Müşfiq, Hüseyn Cavid kimi şairlərimiz olub. Bu gün biz böyük şairimiz Vaqifin məqbərəsinə toplaşmışıq”.

Türk Ədəbiyyat Vəqfinin rəhbəri Serhad Kabaklı Şuşada Vaqif Poeziya Günlərinə dəvət olunmasından qürur hissi keçirdiyini deyib və tədbirin təşkilatçılarına təşəkkür edib. O, Şuşanın işğaldan azad olunduğu günlərdə Bakıda olduğunu və burada gördüyü möhtəşəm qələbə sevincini ömrü boyu unutmayacağını bilbirib.



Sonra çıxış edən Xalq şairi Vahid Əziz, Özbəkistanın Xalq artisti Xurşud Davron, Azərbaycan Yazıçılar Birliyinin katibi, şair-publisist Rəşad Məcid, şair-tərcüməçi Səlim Babullaoğlu Vaqif poeziyasının əbədiyaşarlığı, Şuşanın füsunkarlığı, Qarabağda xalqımızın qəhrəmanlığı, mədəniyyət paytaxtımızın həm də “Türk dünyasının mədəniyyət paytaxtı” kimi önəmli yer tutması barədə danışıblar.

Sonra vətənpərvərlik mövzusunda, eləcə də əziz Şuşaya həsr olunmuş şeirlər səsləndirilib.

Tədbir respublikanın tanınmış sənət adamlarının konsert proqramı ilə davam edib.

# İştirakçılar Şuşada...

**Heydər Əliyev Fondu, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Yazıçılar Birliyinin təşkilatçılığı ilə keçirilən Vaqif Poeziya Günləri iyulun 14-də Şuşada davam edir.**

Əvvəlcə Vaqif Poeziya Günlərinin iştirakçıları “Türk dünyasının mədəniyyət paytaxtı”nda tarixi məkanları ziyarət ediblər.

Ekskursiya Milli Xalça Muzeyinin Şuşa filialından başlayıb. Burada qonaqlara məlumat verilib ki, Milli Xalça Muzeyinin Şuşa filialında sərgilənən sənət əsərləri qədim Qarabağ torpağının ruhunu, əsrlərlə burada yaşayıb-yaratmış insanların, o cümlədən sənətkarların həyat və məişətini, estetik zövqünü, bədii dünyagörüşünü duymağa imkan yaradır.

Sonra qonaqlar Heydər Əliyev Fondu tərəfindən bərpa işləri aparılan Saatlı məscidində olublar. Onlara məlumat verilib ki, burada konservasiya və restavrasiya işləri məscidin ilkin memarlıq üslubuna uyğun aparılır. İşğal zamanı məscidə edilən müdaxilələr aradan qaldırılır.

Həmçinin qonaqlar Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Yuxarı Gövhər Ağa məscidini ziyarət edib, məscidin ərazisindəki mədrəsə binasında “Mir Möhsün Nəvvab Qarabaği – XIX əsrin ensiklopedik alimi” sərgisi ilə tanış olublar.

# “Dövlətin memarı. Bir ömrün ensiklopediyası”

**Şuşada Vaqif Poeziya Günləri çərçivəsində ümummilli liderin 100 illik yubileyinə həsr olunan “Dövlətin memarı. Bir ömrün ensiklopediyası” unikal triptixi, ensiklopedik xatirə xalça kompozisiyası-müəllif əsərinin təqdimatı olub.**




Heydər Əliyev Fondu, İqtisadiyyat Nazirliyi və “Azərxalça” ASC tərəfindən həyata keçirilən layihənin həmmüəllifləri Əməkdar incəsənət xadimi, “Azərxalça” ASC İdarə Heyətinin sədri Emin Məmmədov, Əməkdar rəssam Rəşad Ələkbərov, icraçıları isə “Azərxalça”nın yaradıcı komandasıdır.

Üç hissədən ibarət əsərin hər birində Ümummilli liderin həyat fəlsəfəsi, önəm verdiyi dəyərlər ilk dəfə “xalça dili”ndə çatdırılır. İlk hissədə xalçanın kompozisiyasına uyğun olaraq xalqın birliyini və əzəmətini əks etdirən rəmzlər yer alıb.

Ulu öndərin Azərbaycana rəhbərliyi dövründə respublikamızda ixtisaslı milli hərbçilərin yetişdirilməsi üçün Bakıda Cəmşid Naxçıvanski adına hərbi məktəb açılıb, ali və orta ixtisas məktəblərində müasir tələblərə uyğun mütəxəssis hazırlamaq üçün müvafiq fakültələr və şöbələr yaradılıb. Milli Ordu quruculuğunun təməlini qoymuş Heydər Əliyevin bu əməyi xalçanın ikinci hissəsində əksini tapıb.

Triptixin sonuncu və ən əsas hissəsi Heydər Əliyevin çağdaş, xətti (cizgili) portreti əks olunmuş “Keçmiş və gələcək – düşüncələr ayrıcında” adlanır. Burada firavan gələcəyi naminə fədakarlıqla çalışdığı, zəngin tarixi və mənəvi dəyərləri ilə daim fəxr etdiyi xalqının önündə həmişə cəsarətlə addımlayan Heydər Əliyev yüksək bir zirvədən ölkənin bu gününü böyük fəxrlə, gələcəyini isə inamla seyr edir.

# “Əbədi ömrün 100 ili”

**Heydər Əliyev Fondu, Azərbaycan Mədəniyyət Nazirliyi və Yazıçılar Birliyinin təşkilatçılığı ilə Şuşada Mehmandarovların Malikanə Kompleksində Vaqif Poeziyası Günləri çərçivəsində ulu öndər Heydər Əliyevə həsr olunmuş “Əbədi ömrün 100 ili” kitabının təqdimatı və “Molla Pənah Vaqifin əbədi yaradıcılığı türk irsi müstəvisində” mövzusunda elmi konfrans keçirilib.**




Azərbaycan Yazıçılar Birliyinin katibi, kitabın redaktoru Elçin Hüseynbəyli nəşr haqqında məlumat verib.

Kitabda tarixi hadisəyə – 1982-ci il yanvarın 14-də Şuşada Molla Pənah Vaqifin muzey-məqbərəsinin və Poeziya Evinin bu il 100 illiyini qeyd etdiyimiz ümummilli lider Heydər Əliyevin iştirakı ilə təntənəli açılışına xüsusi yer ayrılıb. Məhz bu səfər əsnasında ümummilli lider Vaqif Poeziya Günlərinin keçirilməsi barədə tapşırıq verib.

Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Ordumuzun Vətən müharibəsində tarixi Qələbəsi nəticəsində Şuşa şəhərinin erməni işğalından azad edilməsindən sonra 41 illik tarixi olan Vaqif Poeziya Günləri yenidən Vətəndə – Azərbaycanın mədəniyyət paytaxtında keçirilir.

# ...Ədəbi konfrans

**“Molla Pənah Vaqifin əbədi yaradıcılığı türk irsi müstəvisində” mövzusunda konfransda Xalq yazıçısı Çingiz Abdullayev, Əməkdar mədəniyyət işçisi Rəşad Məcid, Əməkdar incəsənət xadimi Baba Vəziroğlu, TÜRKSOY Yazıçılar Birliyinin vitse-prezidenti Səlim Babullaoğlu və başqaları çıxış ediblər.**

Çıxışlarda qeyd edilib ki, Vaqif orta əsrlər dövründə Azərbaycanın ən son görkəmli şairlərindən biri olub və ilk yeni realistik şair kimi xalq yaradıcılığına, poeziyaya yaxındır.

Vaqif Azərbaycanın yazılı ədəbiyyatının milli etnik şifrlərinin əsasının qoyulmasında və Azərbaycan xalqının poeziyada obrazının yaradılmasında müstəsna rol oynayıb.

Tədbirin zəngin proqramına Azərbaycan və türk xalqlarının müasir şairlərinin iştirakı ilə poeziya günü, qədim musiqi alətləri ansamblının konserti, ədəbi-musiqili kompozisiya, tanınmış incəsənət xadimlərinin çıxışları daxildir. Tədbirlər Molla Pənah Vaqifin Muzey-Məqbərə Kompleksində, görkəmli şairə, Qarabağ xanlığının sonuncu şahzadəsi Xurşidbanu Natəvanın evində, Mehmandarovların Malikanə Kompleksində, Azərbaycan Milli Xalça Muzeyinin Şuşa filialında keçirilir.

**“Xalq qəzeti”**

# Molla Pənah Vaqifin faciəli qətli

**(Əvvəli ötən sayımızda)**

**İbrahimxəlil xan Şuşaya qayıdıb yenidən taxta çıxandan sonra Əlimərdan bəyə tapşırdı ki, günü sabah Vaqiflə oğlunun qəbirlərinin üstünü düzəltsinlər. Dedi ki, üstündə günbəz də ucaldın.**

## Məmməd bəy Vaqifi niyə öldürtmüşdü?

İbrahimxəlil xan Vaqifin qətlinə kədərlənib, onun qatillərini lənətləyəndən sonra Məmməd bəy xəcalətdən və qorxudan xanın, əsl-nəcabətli qohumlarının, hörmətli, möhtərəm şəxslərin gözünə görünməyə cəsarət eləmədi. Qaçıb Kür qırağına getdi. Cavanlığına və qolunun gücünə arxalanıb, Qarabağın xanı olmaq eşqinə düşmüşdü. Kür qırağında Şəkili Məmmədhəsən xanla dost olmuşdu. Bundan xəbər tutan şamaxılı Mustafa xan Şəki xanını yanına çağırıb dedi:

– Bilirsən ki, mən Məmməd bəyi çoxdan axtarıram. Ondan heyfimi almalıyam. O, atamı, qardaşımı öldürüb. Sən onu aldadıb de ki, mən bir kor kişiyəm (Ağa Məhəmməd şah onun bir gözünü çıxartdırmışdı – Ş.N.). Mustafa xanın hökmündən cana gəlmişəm. Gəl, bircə qızımı sənə verim, sarayımda hakim ol.

Məmməd bəy Şəki xanının şirin dilinə, yalan vədinə aldandı. O, bir neçə gündən sonra Məmmədbəyi həbs etdi.





Qarabağdan gətirdiyi bütün cavahiratına, qızıl-zinət əşyalarına və İbrahimxəlil xanın sarayından gətirdiyi külli miqdarda puluna da sahib oldu. Əli-qolu bağlı 2 faytonu ilə, dördnəfərlik silahlı mühafizə ilə Şirvana aparıb, Mustafa xana təhvil verdi.

Görkəmli ədəbiyyatşünas-alim Salman Mümtaz 1925-ci ildə “M.P.Vaqif” əsərində XIX əsr Zaqafqaziya Şeyxülislamı Axund Molla Əhməd Salyaniyə istinad edərək yazır: “Hərçənd Axund mərhum Vaqif zalım cəlladlara yalvarır ki, məni öldürün, amma bu binəva nakam oğlum Əli bəyi öldürməyin, barı oğlumun ölümünü görməyim. Görür əlac yoxdur, ona görə bircə oğlu üçün cəlladlara yalvarır. O birəhimlər baxmayıb, əvvəl oğlu Əli bəyi Məmməd bəyin tapşırığı ilə öldürürlər, sonra Axund mərhumu öldürüb, həmin yerdə öz oğlu ilə qoyub gedirlər. Həmin gecə də Məmməd bəy özü Axund Vaqifin evini qarət edib yandırır. “Divan”ı və yaxud, “Divan”ları da yandırılır”.

Şahidlər onu da yazırlar ki, Məmməd bəy Vaqifin oğlu Əli bəyi ona görə öldürüb ki, qorxub ehtiyat edirmiş ki, Əli bəy sağ qalsa, atası Vaqifin heyfini ondan ala bilər. Axı Əli bəyin heç bir günahı yox idi. Məmməd bəyə görə Vaqifin günahı ondan ibarət idi ki, ona baş vəzir olmaqdan imtina etmişdi.

O vaxt İbrahimxəlil xan hələ Balakəndə idi. Taxt-tacın yiyəsi İbrahim xan 3 aydan sonra Balakəndən qayıdıb gəlmişdi. Bu vaxt xanlığı yiyəsiz görən Məmməd bəy əmisi İbrahimxəlil xanın taxt-tacına qeyri-qanuni sahib olmaq eşqinə düşdü. Məmməd bəy yalnız Vaqifi yox, İbrahimxəlil xana sadiq olan sarayın nüfuzlu adamlarını aradan götürmək planı qurmuşdu. Saraydakı bir neçə yaltaq və aravuranlar ona başa salmışdılar ki, nə qədər ki, sən İbrahimxəlil xanın yaxın adamlarını aradan götürməmisən, xanlığa sahib olmaq sənə müyəssər olmayacaq. Gec-tez İbrahimxəlil xan qayıdacaq, onda bunlar hamısı sənin əməllərini İbrahimxəlil xana çatdıracaqlar.

Tarixçilər yazırlar ki, vaxtilə Vaqifin dostları olan, hətta həmişə yaxşılıq elədiyi kimsələr belə zahirdə Məmməd bəy Cavanşir ilə Vaqifin uyuşduğunu görərkən gizli-gizli” şeytənətə-səayətə” başladılar. Məmməd bəy tərəfindən biçarə Vaqif üçün hazırlanmaqda olan faciyeyi-dilxəraşın (ürəkparçalayan - Ş.N.) bir an tez oynanması üçün gecə-gündüz çalışıb çabaladılar. Onun kölgəsində gəzənlərin əllərindəki dəstaviz Vaqifin fövqəladə aqil, sadiq və siyasi bir şəxs olması idi.

Vaqifin ona baş vəzir olmağına razılıq verməyən Məmməd bəy Cavanşir bəzi saray nadanlarının sözü ilə ürəyində ona kin və ədavət bəsləyirdi. Bəzi sənəd və xatirələrdən məlum olur ki, bu nadanlar arasında erməni məlik Vanonun və erməni məlik Cümşüdün fitvası ilə onlar İbrahimxəlil xanın xanlığa qayıtmasını istəmirdilər. Tez-tez saraya Məmməd bəylə görüşə gələn bu ermənilər Məmməd bəyi ağızdolusu tərifləyirdilər: “Əmin deyirdilər qocalıb, dövranını sürüb, yaşı da keçib, ona görə də 3 aya yaxındır Balakəndə oturub istirahət edir. Xanlığın dağılmağını, Şuşanın viran qalmağını eyninə almır”.

Bic və xain ermənilər onu da bilirdilər ki, İbrahim xanla Cavad xan arasında Ağa Məhəmməd şahın Tiflis yürüşündən sonra soyuqluq var. Tez-tez Cavad xanın da adını çəkirdilər. Guya, Məmməd bəyin Qarabağda xan olmasına Cavad xan ürəkdən razı idi. Ona görə də bu mövzuda söhbət düşəndə bəzi saray yaltaqları Məmməd bəyə deyirdilər ki, sən İbrahim xanı, Vaqifi Qacara qarşı vuruşmaqda düz günahlandırırsan.

Bir tərəfdə də Şuşada söhbət gəzirdi ki, İbrahim xan bu gün, sabah qayıdacaq. Camaat belə söhbəti açıq və bərkdən danışa bilmirdi. Məmməd bəyin qorxusundan heç kəs sevincini bildirmirdi. Saray əyanları – İbrahimxəlil xanın gəlməyini istəməyənlər isə Məmməd bəyə deyirdilər ki, əminin Şuşaya gəlməyinə qadağa qoyub yuxarıdan İrəvan yolunu, aşağıdan da Əsgəran yolunu bağladıbsan. Hər iki yolda qoşun dəstəsi qoymusan ki, xan gələndə onu Şuşaya buraxmasınlar. Onu da bil ki, İbrahim xan nə tək-tənha gələcək, nə də əliyalın. O, mütləq qaynı Ömər xandan mühafizə dəstəsi alıb, onunla gələcək. Bizimkilər onun ləzgi qoşununun qabağında tab gətirməyəcəklər. Ona görə də inadla İbrahim xanın tərəfdarları və Vaqiflə haqq-hesabı çürütmək lazımdır.

Məmməd bəy saray namərdlərinin tədbir və məsləhətlərini bəyəndi: “Bəsdir, düşmənlərimin nazı ilə oynamağım” – dedi. Avqust ayının 10-da Qacarın öldürülməsindən bir ay sonar 3 nəfər yaxın adamını çağırıb belə bir tapşırıq verdi: El-oba yatmağa hazırlaşanda gedib Vaqifi oğlu Əli bəylə əli-qolu bağlı Cıdır düzünə gətirirsiniz, səs-küysüz, gecə yarısı, özüm də gələcəm.

Məmməd bəy bu cinayəti gündüz eləməkdə ehtiyat edirdi. O, Şuşa camaatının Vaqifi necə sevməyini bilirdi...

Məmməd bəy axundu və oğlunu Cıdır düzündə qətlə yetirənin üçünü də qabağına salıb Vaqifin yaşadığı Saatlı məhəlləsinə gətirdi. Şairin birotaqlı evini göstərib:

–Yandırın, dağıdın onun küməsini – dedi. Qoy, yer üzündə Vaqifdən heç bir nişanə qalmasın.

– Bəs, arvad-uşaq harada? – deyə onların başçısı soruşdu.

– Nə arvad var, nə də uşaq, bir oğlu idi, onu da yox etdik. Arvadı Qızxanım da yoxdu. Onu göndərmişəm başqa evə. Yalan deyirdi. Qızxanımı öz evinə aparıb arvad eləmişdi. Evdən heç nə götürməyin, bilirəm çoxlu kitabları və kağız-dəftəri var, qoy, hamısı yansın.

Onlar cumub bir az aralıdakı ot tayasından qucaq-qucaq ot gətirib evin dörd yanına və içinə döşədilər...

Məmməd bəy onlara təpinib qəzəbləndi:

–Tez olun, əlli tərpənin, səhərə az qalır. Yaxşı oldu yağış da ara verdi. Alov güclənəndə tez əkilin ki, sizi görən şahid-zad olmasın.

– Bəy, aynabənddəki taxça kitablarla doludur. Orada axundun “Quran” kitabı da ola bilər, axı, yansa, günaha batarıq...

– Dedim yandırın, vəssalam. Sən nə qanmaz adamsan, bu gecə gözü hələ günahdan da dəm vurursan.

Alov çöldən və içəridən divarları yalayanda ətrafa gur işıq yayıldı. Əməlindən arxayın olan Məmməd bəy dərhal əkilib yox oldu.

Aşağı məscidin yanında sadiq dostu parabaş Oruca rast gəldi. Canıyananlıqla:

– Əkil, get dağılmışına, uzan yat, heç nədən xəbərin yoxdur.

– O nə alovdur, tüstü göyə dirənib Saatlı məhəlləsində, Məmməd bəy?

Məmməd bəy sərt səslə:

– Canına azardı, sənin də, mənim də düşmənimizi məhv edib, evinə od vurdum. İndi rahat xanlığa sahib ola bilərik, – deyib dan qaranlığında yoxa çıxdı.

Səhər tezdən müəzzin ağlaya-ağlaya azan verir. Onun kədərlə oxuduğu sözlər qalalıları yasa batırıb ağladırdı.

Öldürən də məlumdur, ölən də. Şahidlər də o dövrdə yazılan “Qarabağnamələr” kitablarının müəllifləri və Şuşanın ayrı-ayrı sakinləridir.

***Şəmistan NƏZİRLİ,***
***yazıçı-publisist,***
***Prezidentin fərdi təqaüdçüsü***

# 26 yaşın mübarək, “Azpetrol”!

**Azərbaycanın ən böyük yanacaqdoldurma şəbəkəsinə malik olan "Azpetrol" şirkəti uğurlu fəaliyyətinin 26-cı ildönümünü qeyd edir. Ötən illər ərzində şirkət böyük inkişaf yolu keçmiş və yanacaqdoldurma məntəqələrinin sayını məhz bu il – “Heydər Əliyev ili”ndə 100-ə çatdırıb.**




“Azpetrol” brendinin möhkəmləndirilməsi və coğrafiyasının Qarabağda genişləndirilməsi şirkətin strateji inkişaf planının qısamüddətli prioritet istiqamətlərindəndir. Artıq Zəngilanda, Hadrutda, Suqovuşanda və Füzulidə “Azpetrol”un modul tipli yanacaqdoldurma məntəqələri fəaliyyət göstərir. Şirkət Qarabağa “Böyük Qayıdış” planının tərkib hissəsindən olan məşğulluğun təmin edilməsi məsələsinə bununla öz töhfəsini vermiş olur.

Qeyd edək ki, "Azpetrol" şirkətinin yaranması, inkişafı və uğurlu fəaliyyəti ulu öndər Heydər Əliyev tərəfindən Azərbaycanda iqtisadiyyatın və sahibkarlığın inkişafı sahəsində görülən işlərin nəticəsində mümkün olmuş və respublikanın neft strategiyasının inkişafına təkan vermiş 1994-cü ildə “Əsrin müqaviləsi”nin imzalanmasının məntiqi nəticəsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilməsi davam edən yeni neft strategiyasının məqsədləri isə “Azpetrol” şirkətinin fəaliyyət istiqamətlərinin yol xəritəsidir.

“Azpetrol” şirkətinin ilk yanacaqdoldurma məntəqəsi olan “Spartak” 1997-ci il iyulun 15-də Bakı şəhərində – Nəsimi rayonu Moskva prospektindəki 1013-cü məhəllədə açılıb. Şirkətin hazırda ölkəmizin əksər iqtisadi zonalarında ümumilikdə 100 yanacaqdoldurma məntəqəsi, 1 maye qazdoldurma (propan-butan) məntəqəsi, ictimai nəqliyyatda sərnişindaşımaya xidmət edən respublikada ən müasir standartlara cavab verən 1 sıxılmış təbii qaz (CNG) terminalı, yanacaq məhsullarının saxlanılması üçün 3 neftbazası, yanacaqdaşıyan maşınlar üçün avtobaza, yanacağın yanacaqdoldurma məntəqələrinə fasiləsiz daşınmasını təmin etmək üçün 100-dən artıq yanacaqdaşıyan avtomobili və minik maşınları üçün avtosahə mövcuddur. Fəaliyyət göstərən yanacaqdoldurma məntəqələrində 4 sıxılmış təbii qazdoldurma postu, 4 maye qazdoldurma postu və elektromobillərin enerji ilə 17 doldurulma postu, 8 motel, eyni zamanda, müxtəlif xidmətlərin göstərilməsi üçün əksər məntəqələrdə iaşə obyektləri (kafe, avtoyuma və market) fəaliyyət göstərir. “Azpetrol” Azərbaycanda ən böyük işəgötürənlər siyahısındadır və hazırda şirkətdə 3300-dən çox əməkdaş çalışır.

***“Azpetrol”– daim inkişafa doğru!***

# Şavkat Mirziyoyev and içdi



**Özbəkistanda növbədənkənar prezident seçkilərində qələbə qazanmış Şavkat Mirziyoyev cümə günü parlamentin aşağı və yuxarı palatalarının birgə iclasında and içərək səlahiyyətlərinin icrasına başlayıb.**

Özbəkistan mediası xəbər verir ki, inauqurasiya mərasimində deputatlarla yanaşı, Mərkəzi Seçki Komissiyasının və hökumətin üzvləri, Konstitusiya Məhkəməsinin hakimləri, Daşkənddə akkreditə olunmuş diplomatik korpusun rəhbərləri, yerli və xarici KİV nümayəndələri iştirak ediblər.

Mərkəzi Seçki Komissiyasının sədri Şavkat Mirziyoyevə Özbəkistan Respublikası Prezidentinin vəsiqəsini təqdim edib. Sonra seçilmiş dövlət başçısı əlini eyni zamanda Konstitusiyanın və Quranın üzərinə qoyaraq xalqına sədaqətlə xidmət göstərəcəyinə, ölkə Konstitusiyasına və qanunlarına dönmədən əməl edəcəyinə, Özbəkistan Respublikasının Prezidentinə həvalə olunmuş vəzifələri vicdanla yerinə yetirəcəyinə and içib.

Xatırladaq ki, Özbəkistanın hazırkı Prezidenti Şavkat Mirziyoyev iyulun 9-da keçirilən növbədənkənar seçkilərdə 87,05 faiz səs toplayaraq inamlı qələbə qazanıb. O, bundan əvvəl 2016-cı və 2021-ci illərdə dövlət başçısı seçilmişdi.

# Voleybol Federasiyası fəaliyyətini genişləndirir

**Azərbaycan Voleybol Federasiyasının (AVF) yarımillik hesabatına həsr olunmuş mətbuat konfransı keçirilib. Tədbirdə federasiyanın fəaliyyətindən söz açılıb, qarşıdakı hədəflərdən danışılıb.**



Azərbaycan Voleybol Federasiyasının prezidenti Şahin Bağırov vurğulayıb ki, qadın voleybolçulardan ibarət milli komandamızın Avropa çempionatında iştirak etməsi bizim üçün önəmli məsələdir. O, qeyd edib ki, federasiyanın qarşıdakı hədəfləri böyükdür.

Federasiya rəhbəri millimizin yüksək nəticələr əldə edəcəyinə inandığını bildirib: “Uşaq və yeniyetmələr arasında voleybolu inkişaf etdirmək əsas məqsədlərdən biridir. Bu idman növünün coğrafiyasını genişləndirmək, bölgələrdə onun inkişafına nail olmaq üçün görülən işlər davam etdirilir. Voleybol Akademiyası yaratmaq istiqamətində bir çox işlər görülüb. Həmin akademiyaya mütəxəssislər cəlb etməklə bu idman növünü inkişaf etdirmək istəyirik”.

AVF-nin baş katibi Faiq Orucov uşaq və gənclər arasında voleybolun inkişaf etdirilməsi məqsədilə türkiyəli mütəxəssis Şahin Çatmanın ölkəmizə dəvət olunduğunu bildirib. F.Orucov təcrübəli mütəxəssislə müqavilə imzalandığını və avqustdan fəaliyyətə başlayacağını deyib. Həmçinin onun artıq paytaxtda və bölgələrdə bir sıra seleksiya işləri apardığını, voleybolla məşğul olan, müvafiq tələblərə uyğun gələn 150-yə yaxın qız və oğlanın müəyyənləşdirildiyini də əlavə edib. Vurğulayıb ki, avqustda yenidən həmin uşaqlar arasında seçim ediləcək. Ötən 6 ay ərzində kişilər və qadınlar arasında Yüksək Liqa və Birinci Liqa yarışlarının, həmçinin ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş qadınlar və kişilər arasında “Heydər Əliyev” kuboku, veteran kişi voleybolçular arasında kubok yarışlarının, “Heydər Əliyev-100. Voleybola dəstək marafonu”nun təşkil olunduğunu diqqətə çatdırıb.

Baş katib 15 yaşlı və 15 yaşdan böyük oğlan və qızlar arasında keçirilən çimərlik voleybolu üzrə Azərbaycan çempionatı (I mərhələ), bölgələrdə təşkil edilən seleksiya yarışları haqqında danışıb.

Qeyd edək ki, kişi voleybolçulardan ibarət “Xarı bülbül” və qadın idmançılardan təşkil olunan “Azərreyl” komandaları Çağırış kuboku yarışlarında gücləri sınayacaqlar. Yarışın püşkatma mərasimi iyulun 19-da Avropa Voleybol Konfederasiyasının Lüksemburqdakı mənzil qərargahında təşkil olunacaq.

Qadın voleybolçulardan ibarət Azərbaycan millisi isə Avropa çempionatına hazırlığı davam etdirir. Avropa çempionatının final mərhələsi bu il avqustun 15-dən sentyabrın 3-dək Belçika, İtaliya, Almaniya və Estoniyanın birgə ev sahibliyi ilə keçiriləcək. Yığmamızın yer aldığı C qrupuna Almaniya ev sahibliyi edəcək. Komandamızın rəqibləri isə meydan sahibi ilə yanaşı, Çexiya, Türkiyə, Yunanıstan və İsveç olacaq.

**L.QURBANOVA,**
**“Xalq qəzeti”**

# Ərdoğan Putinlə “taxıl danışıqları”nı davam etdirəcək

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan taxıl sövdələşəsinin müddətinin uzadılması ilə bağlı Rusiyanın dövlət başçısı Vladimir Putinlə yeni danışıqlar aparmaq niyyətindədir. Bunu Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının nümayəndəsi Ömər Çelik bəyan edib.**

Ö.Çelik bildirib ki, taxıl sövdələşməsi bir sıra məsələlərə görə Türkiyə üçün çox vacibdir. İlk növbədə, bu, onunla əlaqədardır ki, Ankara kənd təsərrüfatı məhsullarını ehtiyac duyan ölkələrə fasiləsiz çatdırmağa çalışır. Partiya rəsmisinin sözlərinə görə, sövdələşmənin müddəti iyulun 17-də başa çatır. Ərdoğan həmin vaxta qədər Putinlə danışıqlar aparmaq istəyir. Ankara vəziyyətin müsbət həll olunacağına inanır.

Qeyd edək ki, bir qədər əvvəl Putin Moskvanın taxıl sövdələşməsindən tamamilə imtina etməyi planlaşdırmadığını bəyan edib. Bununla yanaşı, dövlət başçısı qeyd edib ki, Rusiya sövdələşmənin müddətini yalnız ona verilmiş vədlər yerinə yetirildikdə uzadacaq.

**P.ƏMİRCANOV,**
**"Xalq qəzeti”**

# “Gimnastlarımızın potensialına güvənirik”

**İyulun 28-də start götürəcək dünyanın ən nüfuzlu idman tədbirlərindən biri olan XXXI Yay Universiadasına gimnastika üzrə Azərbaycan komandasının hazırlığı davam edir. Ötən universiadada yüksək nəticə əldə etmiş millimiz uğurları davam etdirmək əzmindədir.**



İtaliyanın Neapol şəhərində keçirilmiş XXX Ümumdünya Yay Universiadasında əldə edilmiş 2 qızıl medaldan 1-nə qadın idman gimnastımız Marina Nekrasova dayaqlı tullanma hərəkətlərinə görə sahib olmuşdu. Bədii gimnastika üzrə yarışlarda təmsilçimiz Zöhrə Ağamirova gürzlərlə və həmçinin çoxnövçülük proqramında 2 gümüş medal qazanıb. Bu qlobal yarışda qazanılmış 7 medaldan 3-ü məhz gimnastların payına düşür.

Budəfəki universiada yarışlarına millimiz necə hazırlaşıb və onların potensialını necə qiymətləndirmək olar?

Azərbaycan Gimnastika Federasiyasının baş katibi Nurlana Məmmədzadə “Xalq qəzeti”nə müsahibəsində budəfəki universiada yarışlarında Azərbaycanın bədii gimnastika və kişi idman gimnastikası üzrə təmsil olunacağını bildirdi. Qeyd etdi ki, bədii gimnastika yarışlarında fərdi proqramda komandamızın lideri Zöhrə Ağamirova və İlona Zeynalova iştirak edəcəklər. Eyni zamanda, bu növdə qrup hərəkətləri üzrə komandamız təmsil olunacaq. Kişi idman gimnastikası üzrə isə İvan Tixonov, Nikita Simonov çıxış edəcəklər: “Bu növlərin hər ikisi Olimpiya idman növləridir. Cari il həm bədii, həm də kişi idman gimnastlarımız üçün vacib illərdən biridir. Çünki dünya çempionatları Paris Yay Olimpiya Oyunlarına təsnifat xarakteri daşıyır. Digər tərəfdən hər bir yarış dünya çempionatına bir növ hazırlıq prosesidir ki, bu da Paris Olimpiadasına aparan yolda hazırlıq mərhələsi hesab olunur”.



Baş katib gimnastlarımızdan yaxşı nəticələr gözlədiklərini bildirdi: “Gimnastlarımızdan Zöhrə Ağamirova ötən universiadanın ikiqat gümüş, eyni zamanda, son İslam Həmrəyliyi Oyunlarının həm qalib, həm mükafatçısıdır. Zöhrə, həm də Tokio Olimpiya Oyunlarının iştirakçıdır. Azərbaycan bədii gimnastika məktəbinin ilk yetirməsi kimi olimpiadada ölkəmizi təmsil edib. Gimnastımızın son uğuru kimi Bakıda Avropa çempionatında bürünc medalını xüsusi qeyd etməliyəm. Zöhrə təcrübəli olsa da, İlona Zeynalova bir qədər gənc idmançıdır. Komanda hesabında Avropa çempionatının mükafatçısıdır.

Kişi gimnastlarımızdan Tokio Olimpiadasının iştirakçısı İvan Tixonov bir sıra beynəlxalq turnirlərdə mükafatlar əldə edib. Təcrübəli idmançıdır. Nikita Simonov isə builki dünya kuboku mərhələlərində uğurla çıxış edib. O, bu nüfuzlu yarışların iki mərhələsində qızıl medal qazanıb. Dünya kubokunun mərhələ yarışlarında topladığı xallara əsasən, Beynəlxalq Gimnastika Federasiyasının kubokuna layiq görülüb”.

Nurlana Məmmədzadə gimnastların hazırlığının davam etdiyini bildirdi: “İdmançılarımızın potensialına güvənirik. İnanırıq ki, onların hər biri öz gücündən maksimum istifadə edəcək”.

**Leyla QURBANOVA,**
**“Xalq qəzeti”**


## “SUMQAYIT - ÇÖRƏK” ATSC-nin 2022-ci il dekabrın 31-nə

### maliyyə vəziyyəti haqqında balans hesabatı

manatla

| AKTİVLƏR | 31.12.2021 | 31.12.2022 |
|---|---|---|
| Əsas vəsaitlərin dəyəri | [illegible] | [illegible] |
| Köhnəlmə | [illegible] | [illegible] |
| Qalıq dəyəri | [illegible] | [illegible] |
| Qeyri - maddi aktivlər | [illegible] | 0 |
| **I . BÖLMƏ ÜZRƏ CƏMİ** | [illegible] | [illegible] |
| İstehsal ehtiyatları | [illegible] | [illegible] 1 |
| Azqiymətli inventarlar | [illegible] | [illegible] |
| Köhnəlmə | [illegible] | [illegible] |
| Qalıq dəyəri | [illegible] | [illegible] |
| Hazır məhsul | 0 | 0 |
| Alınmış mallara görə ƏDV | 0 | 0 |
| **II . BÖLMƏ ÜZRƏ CƏMİ** | [illegible] | [illegible] |
| Mallara iş və xidmətlərə görə debitor borcları | [illegible] | 0 |
| Yüklənmiş mallar | [illegible] | [illegible] |
| Büdcə | [illegible] | [illegible] |
| Sair debitorlar | | |
| Verilmiş avanslar | 0 | 0 |
| Kassa | 0 | 0 |
| Hesablaşma hesabı | [illegible] | [illegible] |
| Yolda olan pul vəsaiti | [illegible] | 0 |
| Valyuta hesabı | [illegible] | [illegible] |
| **III . BÖLMƏ ÜZRƏ CƏMİ** | [illegible] | [illegible] |
| Ötən illərin zərərləri | 0 | 0 |
| Hesabat ilində | 0 | 0 |
| Cəmi aktivlərin dəyəri | [illegible] | [illegible] |
| **PASSİVLƏR** | **31.12.2021** | **31.12.2022** |
| Nizamnamə kapitalı | [illegible] | [illegible] |
| Əlavə kapital | [illegible] | [illegible] |
| Ehtiyat kapitalı | 0 | 0 |
| Yığım fondu | 0 | 0 |
| İstehlak fondu | [illegible] | [illegible] |
| Mənfəət | [illegible] | [illegible] |
| İstifadə edilmiş mənfəət | [illegible] | [illegible] |
| İstifadə edilməmiş mənfəət | | |
| **I BÖLMƏ ÜZRƏ CƏMİ** | [illegible] | [illegible] |
| Qısamüddətli bank kreditləri | [illegible] | [illegible] |
| Mallara, iş və xidmətlərə görə kreditor borcları | 0 | [illegible] |
| Əmək haqqı ödənişləri üzrə | [illegible] | [illegible] |
| Sosial sığorta üzrə | [illegible] | [illegible] 1 |
| Sair kreditorlar | [illegible] | [illegible] |
| Təsisçilərlə hesablaşmalar | [illegible] | [illegible] |
| **II BÖLMƏ ÜZRƏ CƏMİ** | [illegible] | [illegible] |
| **Cəmi passivlərin dəyəri** | [illegible] | [illegible] |

**“Sumqayıt –Çörək” ATSC-nin 2022-ci il dekabrın 31-nə maliyyə vəziyyəti, mənfəət, zərər və digər məcmu gəlirlər və kapitalda dəyişikliklər haqqında maliyyə hesabatlarının auditinə sərbəst auditor Quliyev Elçin Vaqif oğlu tərəfindən 2023-cü il martın 13-də rəy verilmişdir.**

SON SƏHİFƏ
# Xalq qəzeti
Xalqın qəzeti!
№ 146 (30262) 15 iyul 2023-cü il, şənbə
veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

## Güləşçimiz Budapeştdə gümüş medal qazanıb

**Macarıstanın paytaxtı Budapeştdə güləş üzrə ilin sonuncu reytinq turniri start götürüb.**



Yarışda sərbəst güləş üzrə yığmanın üzvü Abubakr Abakarov (86 kq) ilk görüşdə israilli Yuri Kalaşnikova 8:0 hesabıyla qalib gəlsə də, 1/4 finalda türkiyəli Osman Göçenə 3:6 hesabıyla məğlub olub.

Maqomedxan Maqomedov (97 kq) macarıstanlı Vladislav Baytsayevə (7:6), qazaxıstanlı Əlişir Yergaliyə (6:3) və almaniyalı Erik Tileyə (7:1) qalib gələrək finala yüksəlib. Ancaq topuğundan zədələndiyi üçün amerikalı olimpiya və dünya çempionu Kayl Snayderlə qarşılaşmada iştirak etməyib. Beləcə Maqomedxan gümüş medalla kifayətlənib.

## Basketbol millimiz Avropa çempionatında

**Basketbol üzrə Azərbaycan millisi Şimali Makedoniyanın Skopye şəhərində keçirilən Avropa çempionatında növbəti matçda çıxış edib.**



20 yaşadək basketbolçulardan ibarət yığma Lüksemburq seçməsi ilə üz-üzə gəlib. Qarşılaşma komandamızın məğlubiyyəti ilə başa çatıb - 63:78

Xatırladaq ki, millimiz bundan əvvəl B Divizionunun C qrupunda Ukrayna, İsveç, Kosovo və Gürcüstana məğlub olub.

## Azərbaycanın ən güclü cüdoçuları müəyyənləşib



**U-23 qadınlar və kişilər arasında Azərbaycan çempionatına yekun vurulub.**

Hövsan qəsəbəsində yerləşən Fövqəladə Hallar Nazirliyinin (FHN) İdman Sağlamlıq Mərkəzində keçirilən yarışda qadınlar və kişilər arasında 14 çəki dərəcəsində qaliblər müəyyənləşib. 2 gün ərzində ölkənin müxtəlif regionlarından, Sumqayıt və Bakı şəhərindən 52 müxtəlif klub, cəmiyyət və idman təşkilatından olan 192 cüdoçu medallar uğrunda mübarizə aparıb.

Fərdi yarışların son nəticəsinə görə, ümumi komanda hesabında medalların sayına görə 1-ci yerə "Neftçi", 2-ci yerə "Atilla" idman klubları, 3-cü yerə isə "Gömrükçü" İdman Sağlamlıq Mərkəzi layiq görülüb. 22 komanda müxtəlif əyarlı medal qazanıb.

*L.SABİRQIZI, "Xalq qəzeti"*

## Ətir dünyasına 4-ü də əlavə olundu

**Kişi moda dünyasının tanınmış simalarından olan türkiyəli modelyer Emre Erdemoğlu Dubaydakı moda nümayişi üçün dünyanın ən böyük ətir şirkətlərindən olan "MG International" ilə əməkdaşlıq edərək fərqli ətirlər istehsal edib. Erdemoğlu "Ruh məkanları" adlı kolleksiyasını bu ətirlərlə birlikdə təqdim edib.**



4 əsas rəng və qoxunu birləşdirən ətir dəbdəbəli və ehtiraslı maddələrin, qiymətli ağac və ədviyyatların cəlbedici ahəngini özündə birləşdirərək adamda xoş duyğular oyadır. Moda nümayişi ilə eyni vaxtda qonaqlara təqdim olunan "Deeply Wind", "Emptiness", "Free Spirit" və "Hidden Desire" ətirləri modelyerin istehsal etdiyi geyimlərlə vəhdət təşkil edir.

Erdemoğlu, təkcə dizayn və kolleksiyaları ilə deyil, türk musiqisinin əhəmiyyətli adları üçün hazırladığı səhnə geyimləri ilə də illərdir moda dünyasında özünəməxsus yer tutur.

İlk moda nümayişini İtaliyada təşkil edən və "Sandıq ləkəsi" adlı buraxılış kolleksiyası ilə bir çox mükafata layiq görülən dizayner Nişantaşıdakı salonunda kişilər üçün xüsusi geyimlər hazırlayır və moda istehsalı xidmətləri ilə əməkdaşlıq edir.

*F. HÜQUQQIZI, "Xalq qəzeti"*

## Pulsuz film və tv proqramları




**Bir çox fərqli sahədə məzmun təqdim edən ABŞ televiziya yayım kanalı Roku internetdə film və müxtəlif məzmunlu verilişləri izləmək üçün müqavilə imzalayıb.**

Pulsuz yayımlanan Roku kanalını artıq Google TV-də izləmək mümkün olacaq. Kanalı izləmək üçün tamaşaçılardan heç bir abunə haqqı və ya qeydiyyat tələb olunmur. Xəbərin müsbət tərəfi ondan ibarətdir ki, proqramları və ya filmləri smarfonlarınıza yükləyə və dərhal sonra izləyə biləcəksiniz.

*F. SALMANOVA, "Xalq qəzeti"*

Maraq dünyamız

## İnsan sirli aləmdir

**İnsanın öyrənilməsi bütün dövrlərin və xalqların tədqiqatçılarını cəlb etmişdir. Xəstəlikləri, mənşəyi, psixologiyası, motivasiyası və s. ali məxluqu yaxşı tanımağa imkan verir. Alimlər öyrəniblər ki:**



1. Bir insanın bədənində orta hesabla 2 kiloqram bakteriya yaşayır.
2. Bu gün təbabət xəstəliklərin diaqnostikası sahəsində xeyli irəliləyib. Orta əsrlərdə həkimlər üçün belə bir imkan mövcud deyildi. Onlar xəstəliyi dəqiq müəyyən edə bilmədikdə, sifilis diaqnozu qoyurdular.
3. İnsan doğulan zaman onun beynində 14 milyard hüceyrə olur. Ancaq 25 ildən sonra bu rəqəm 100 minədək azalır.
4. Ən çox gülümsəyən insanlar uşaqlardır. Onlar böyüklərlə müqayisədə, daha çox – gündə 400 dəfə gülürlər.
5. Hər bir insan ömrünün, orta hesabla, 5 ilini yeməyə sərf edir.
6. Gülmək üçün insan 17 əzələdən istifadə edir.

## Valyuta ticarəti də qədim peşədir

**Valyuta ticarəti heç də yeni anlayış deyil. Hətta qədim dövrdə pul mübadiləsi ilə məşğul olan insanlar olub. Artıq IV əsrdə Bizans hökuməti valyuta mübadiləsində monopoliyaya nəzarət edirdi.**



1. Dünyada ilk bank 1472-ci ildə Toskanada qurulan "Monte Dei Paschi di Siena" idi.
2. Mediçi ailəsi XV əsrdə tekstil tacirlərinə kömək etmək üçün xarici ölkələrdə banklar açırdı.
3. XVII və XVIII əsrlərdə Amsterdamda valyuta bazarı fəaliyyət göstərirdi.
4. 1880-ci ildə "qızıl standart" tətbiq olundu. Bu, valyuta ticarətinin başlanğıcı hesab olunur.
5. 1902-ci ildə Londonda 2 valyutadəyişmə brokeri fəaliyyət göstərirdi.
6. 1913-cü ilə qədər qlobal valyuta ticarətinin demək olar ki, yarısı funt-sterlinq vasitəsilə həyata keçirilirdi. Bu valyutanın üstünlük təşkil etdiyi dövrdə ticarət mərkəzləri Paris, Nyu-York və Berlin idi.
7. 1973-cü ildə müasir valyuta bazarı yaranıb.
8. 1990-cı illərin ortalarında valyuta bazarı yalnız banklar və korporasiyalar üçün mövcud idi. İnternetin yaranması ilə hər şey dəyişdi. Hazırda dünya valyuta bazarında gündəlik ticarət 5,3 trilyon dollar təşkil edir.
9. Hazırda ABŞ dolları ən populyar valyutadır və əməliyyatların 87 faizi onunla həyata keçirilir. Valyuta ticarətinin 71 faizi Böyük Britaniya, ABŞ, Sinqapur və Yaponiya birjalarının payına düşür.

## Venera niyə tərsinə fırlanır?

**Venera öz oxu ətrafında saat əqrəbi istiqamətində fırlanan yeganə planetdir. Elm adamları bunun necə baş verdiyinə dair bir çox versiya söyləyirlər. Ən çox ehtimal olunan budur: keçmişdə nəhəng asteroidlər ona təsir edib və ya atmosferin yuxarı hissəsində güclü hava cərəyanları istiqaməti dəyişib.**



Venera başqa planetlərlə müqayisədə təkcə əks istiqamətdə dövr etməsilə fərqlənmir, o, həmçinin çox ləng dövr edir. Əslində, öz orbiti ətrafında dövr etmə müddəti 243 gündür. Daha qəribəsi odur ki, Venera 1990-cı ildə 2014-cü ilə nisbətən 6,5 dəqiqə ləng dövr edib.

Veneranın buludu o qədər sıxdır ki, səthi görməyə imkan vermir. Amma NASA 1990-cı ildə Veneraya "Magellan" kosmik aparatı göndərərək bu problemi həll edib. Zond planetin ətrafında dövr edərək radar vasitəsilə onun səthinin tam təsvirini ala bilib.

*P.ƏFƏNDİ, "Xalq qəzeti"*

Sağlamlıq

## Maqnit qasırğası və biz...

**Harada yaşamağınızdan asılı olmayaraq, hava dəyişən zaman maqnit qasırğası baş verəndə miqren və oynaqlarda ağrı daha da güclənir. Mütəxəssislərin fikrincə, həm uşaqlarda, həm də böyüklərdə belə havaya kəskin reaksiya olur.**



Onlar bildirirlər ki, ən asan yol hava dəyişikliyindən bir gün əvvəl daha az aktiv olmaqdır. Orqanizmə dəstək üçün bitki çayları içmək olar. Maqnit fırtınaları zamanı tünd qara çay və təbii qəhvənin istifadəsini azaltmaq lazımdır. Bunun əvəzinə, bitki dəmləmələri içmək məsləhətdir.

Qan təzyiqi aşağı olanlara cökə və gicitkən çayı məsləhətdir. Yüksək təzyiqdən əziyyət çəkənlərə isə nanə, çobanyastığı, itburnu və ya zəncəfil çayı xeyirlidir.

Dərman bitkilərinin qurudulmuş meyvələri termosda nə qədər yaxşı dəmlənərsə, miqren və əzalardakı ağrılar bir o qədər tez keçər.

*Zərifə HÜSEYNLİ, "Xalq qəzeti"*

Proqnoz

## Hava isti olacaq, lakin şimal və qərb rayonlarında yağış yağacaq



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən iyulun 15-də Bakıda və Abşeron yarımadasında yağmursuz keçəcək. Şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 20-25° , gündüz 31-36° isti olacaq. Atmosfer təzyiqi 759 mm civə sütunundan 755 mm civə sütununa enəcək, nisbi rütubət gecə 55-65, gündüz 35-45 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 26-27° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 27-28° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Bəzi şimal və qərb rayonlarında arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Mülayim qərb küləyi əsəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Havanın temperaturu gecə 20-25° , gündüz 33-38° , dağlarda gecə 11-16°, gündüz 18-23° isti olacaq.

*Q. QASIMOV, "Xalq qəzeti"*

## ALLAH RƏHMƏT ELƏSİN

Milli Məclisin deputatı Anatoli Rafailov "Xalq qəzeti"nin əməkdaşı Məsaim Abdullayevə anası

**XAVƏR XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Turizm və Menecment Universitetinin rektoru İlham Mədətov və universitetin kollektivi Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Əli Nağıyevə əzizi

**ZÜLEYXA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Məleykə Abbaszadə, Rəna Mustafayeva və ailə üzvləri Məmməd Əliyevə, Xumar Əliyevaya, Faiq Bağırova və Lalə Bağırovaya əzizləri

**KAMİL MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinin direktoru, professor Nazim Kazımov və kollecin kollektivi sabiq tədris hissə müdiri

**FİRUDİN QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq artisti, professor Siyavuş Kərimi və konservatoriyanın kollektivi konsert yaradıcılığı və kütləvi tədbirlər departamentinin rəhbəri

**FİRUDİN QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Turizm və Menecment Universitetinin rektoru İlham Mədətov Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzliyə əzizi

**SONA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4428
SİFARİŞ 1731
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır
00:00